NAİLƏ BAYRAMOVA

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

# ŞAMAXI XANLIĞI



AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

NAİLƏ BAYRAMOVA

# ŞAMAXI XANLIĞI

AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının
5 iyun 2009-cu il tarixli iclasının
qərarı ilə çap olunur.

BAKI – 2009

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Elmi redaktor: **T.T.Mustafazadə**
tarix elmləri doktoru, profess-
or

Rəyçilər: **C. M. Mustafayev**
tarix elmləri doktoru

**G.C.Nəcəfli**

**B20 Bayramova Nailə. Şamaxı xanlığı.** Bakı, "Təhsil", 2009, 396 səh

Kitab XVIII yüzilliyin ikinci yarısı – XIX yüzilliyin əvvəllərində Azərbaycanda mövcud olmuşxanlıqlardan birinin – Şamaxı xanlığının tarixinə həsr olunmuşdur

Əsərdə Şamaxı xanlığının yaranma tarixi, inzibati – idarəçilik sistemi, iqtisadi inkişaf səviyyəsi, xanlığın qonşu xanlıqlar və dövlətlərlə siyasi əlaqələri müxtəlif mənbələr əsasında təhlil edilmişdir.

**B** **<u>4306020600</u>** **2009**
**053**

"Təhsil", 2009

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

# ŞAMAXI XANLIĞININ TARİXİNƏ YENİ BAXIŞ

**Nailə Bayramovanın**
**“Şamaxı xanlığının tarixi” monoqrafiyasına**

## ÖN SÖZ

Şimali Azərbaycan Çar Rusiyası tərəfindən işğal olunduqdan sonra, bir tərəfdən torpaqlarımızın qonşular arasında bölüşdürülməsinə, digər tərəfdən isə tariximizin amansızcasına saxtalaşdırılmasına başlandı.

İşğaldan az sonra İmperiya tarixçiləri Cənubi Qafqazın işğalı zamanı Çar Rusiyası qoşunlarının törətdiyi qanlı qırğınları, soyqırımlarını, Azərbaycanda xristianlığı yaymaq və erməni dövləti yaratmaq siyasətini ört – basdır etmək məqsədi ilə saxta tarix formalaşdırmağa başladılar.

Yeni yaradılan imperiya tarixşünaslığında guya Şimali Azərbaycanın Rusiyaya “könüllü surətdə birləşdiyini” sübut edən “Konsepsiya” formalaşdırıldı. Bu üzdəniraq “Konsepsiyaya” görə guya ayrı – ayrı Azərbaycan xanlıqları Rusiyaya birləşməyə meyil göstərir, xalq içərisində güclü “antiiran” və “antitürkiyə” əhvali – ruhiyyəsi hökm sürürdü.

Sovet hakimiyyəti illərində tarixşünaslıqda yuxarıda göstərilən meyil daha da gücləndi. Ayrı – Ayrı Azərbaycan tarixçiləri də bu yolla getdilər. Nəticədə XIX yüzilliyin əvvəllərində öz müstəqilliklərini qoruyub saxlamaq üçün Rusiya ilə əlaqə yaradan, bu ölkədən kömək almağa çalışan Azərbaycan xanları az qala “xalq qəhrəmanları”, eyni məqsəd üçün Qacarlar İranı və Osmanlı dövlətinə müraciət edən Azərbaycan xanları isə “xalq düşməni”, “İran və Türkiyə casusları” kimi təqdim olundular. Beləcə, həm tariximiz təhrif olundu, həm də İran və Osmanlı dövləti ilə əlaqələr tariximizin öyrənilməsi üzərinə yasaq qoyuldu. Bu baxımdan, hazırkı mərhələdə tariximizin xanlıqlar dövrünü saxtalaşdırmalardan və təhriflərdən təmizləmək üçün tədqiqatçılar qarşısında mühüm vəzifələr durur.

Yeri gəlmişkən, son zamanlar Milli Elmlər Akademiyası Tarix İnstitutunun “Xanlıqlar dövrü tarixi” şöbəsində bu istiqamətdə mühüm uğurlar qazanılmış, bir sıra yeni əsərlər işıq üzü görmüşdülər. Belə əsərlərdən biri də gənc tədqiqatçı Nailə Bayramovanın “Şamaxı xanlığı” monoqrafiyasıdır.

“Şamaxı xanlığı” monoqrafiyası Azərbaycanın xanlıqlar dövrü tarixinin öyrənilməsi sahəsində mühüm elmi uğurdur. Əsərin ən mühüm elmi məziyyəti budur ki, həmin kitab Şamaxı xanlığının tarixinə yeni baxışdır.

Gənc tədqiqatçı oxucuların mühakiməsinə verdiyi “Şamaxı xanlığı” kitabında bu Azərbaycan xanlığının tarixini ilk dəfə olaraq kompleks halında araşdırıb ərsəyə gətirmişdir.

Müəllif, haqlı olaraq, xanlıqların meydana gəlməsini Azərbaycanın dövlətçilik ənənələrinin davamı və Vətən torpağında heç zaman səngiməyən müstəqillik mübarizəsinin qanunauyğun nəticəsi hesab edir.

Xanlıqlar dövrü Yurdumuzun keçmişində siyasi pərakəndəlik dövrü olsa da və nəticə etibarilə müvəqqəti olsa, dövlətçilik ənənələrimizin məhv edilməsinə gətirib çıxarsa da, Nadir şah imperiyasının süqutundan sonra yaranmış xanlıqlar Azərbaycanda yerli dövlətçilik ənənələrinin dirçəlişi demək idi. Bu mənada, ölkənin Təbriz, Naxçıvan, Şəki, İrəvan, Gəncə, Quba, Lənkəran, Şuşa, Dərbənd və b. tarixi – siyasi mərkəzləri ətrafında yeni müstəqil dövlət qurumlarının yaranması Azərbaycanın siyasi dirçəlişi demək idi. Əbəs yerə deyil ki, bu dövrdə siyasi pərakəndəliyin Vətən torpağının gələcəyi üçün ağır nəticələr verəcəyini irəlicədən görən qubalı Fətəli xan və şəkili Hacı Çələbi xan kimi böyük dövlət xadimlərimiz Vahid Azərbaycan dövləti yaratmaq üçün qurtuluş mübarizəsi tariximizə çətin və şərəfli səhifələr yazdılar.

Nailə Bayramovanın özünə elmi araşdırma mövzusu seçdiyi Şamaxı xanlığı da tariximizin yuxarıda bəhs etdiyimiz mürəkkəb hadisələrlə dolu dövrünün mühüm tərkib hissəsidir. Təbiidir ki, Nadir şah imperiyasının süqutu ərəfəsində Şamaxı, bütün tarix boyu olduğu kimi, yenə Azərbaycanın mühüm siyasi mərkəzlərindən biri idi. Uzun müddət Şirvanşahlar dövlətinin paytaxtı olmuş Şamaxının öz ətrafındakı torpaqları birləşdirərək xanlıq paytaxtına çevrilməsi təbii hal idi. Digər Azərbaycan xanlıqları kimi Şamaxı xanlığı da öz müstəqilliyini qoruyub saxlamaq üçün çevik siyasi manevrlər etməyə məcbur olmuş, Rusiya ilə yanaşı, Qacarlar İranı və Osmanlı dövləti ilə əlaqələr saxlamışdı. Lakin ayrı – ayrı tədqiqatlarda, başqa Azərbaycan xanlıqları kimi, Şamaxı xanlığının tarixi də təhrif olunmuş, Rusiya imperiyası ilə əlaqələrə birtərəfli mövqedən yanaşılmış, Osmanlı dövləti və Qacarlar İranı ilə münasibətlər isə, demək olar ki, elmi axtarışlardan kənarda qalmışdır. Bu mənada Nailə Bayramovanın tədqiqatı ilk dəfədir ki, Şamaxı xanlığının tarixinə mükəmməl bir aydınlıq gətirir. Müəllif çox qiymətli ilk mənbələrə, o cümlədən Türkiyə Respublikasının arxivlərindən topladığı çoxsaylı sənədlərə söykənərək olduqca qiymətli bir Şamaxı tarixi yaratmışdır. Müəllif istifadə etdiyi və ilk dəfə elmi dövriyyəyə daxil etdiyi mənbələrin, sənədlərin xeyli hissəsini əsərinə əlavə etmişdir. Bu, əsərin mötəbərliyini və elmi dəyərini daha da artırır. Şübhə etmirəm ki, Nailə Bayramovanın bu dəyərli tədqiqatı bu gün üçün Şamaxı xanlığının tarixini hərtərəfli və dolğunəks etdirən ən sanballı əsərdir.

Gənc tədqiqatçıya elmi yaradıcılığında yeni uğurlar arzulayıram.

**YAQUB MAHMUDOV**

*Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor*

# Ön söz əvəzi

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlətçilik tariximizin araşdırılmasında mühüm addımlar atılmış, o cümlədən tariximizdə xüsusi mərhələni təşkil edən xanlıqlar dövrünün tədqiqi istiqamətində bir sıra addımlar atılmışdır. Artıq Quba, Şəki, Naxçıvan, İrəvan, Bakı, Lənkəran, Gəncə, Qarabağ xanlıqlarının tarixini əks etdirən kitablar çap olunmuşdur. Şöbənin fəal, savadlı əməkdaşlarından olan Nailə Bayramova bu faydalı işi davam etdirərək Şamaxı xanlığının tarixinə, ilk növbədə xanlığın digər xanlıqlarla və qonşu dövlətlərlə münasibətlərinə həsr olunmuş monoqrafiyasını oxuculara təqdim edir.

Müəllif Nadir şahın qətlindən, yəni 1747-ci ildən sonra yaranan və 1820-ci ilə kimi mövcud olan Şamaxı xanlığının tarixini araşdırarkən müxtəlif, rus, osmanlı və fars mənbələrinə, həmçinin müəllif əsərlərinə müraciət etmişdir.

Problemin həllinə kompleks halında yanaşmış Nailə xanım məqsədinə çatmaq üçün zəruri olan, demək olar ki, bütün mənbələrdən istifadə etməklə tədqiqat işini uğurla tamamlaya bilmişdir. Müəllif qeyd olunan dövrdə Şamaxı xanlığının yaranma tarixini, xanlığın inzibati bölgüsünü, sənətkarlıq və ticarətin inkişafını, şəhərlərin təsnifatını təqdim etmişdir.

Şamaxı xanlığının ümumi vəziyyətini təsvir etməklə bərabər müəllif tarixçünaslıqda ilk dəfə olaraq istər XVIII əsrin sonu, istərsə də, XIX əsrin əvvəllərində xanlığın xarici təcavüzə qarşı mübarizə şəraitində öz müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizə tarixini elmi dövriyyəyə cəlb etmişdir.

Monoqrafiyanı səhifələdikcə xanlıqlararası ərazi toqquşmalarını araşdıran müəllifin XIX əsrin əvvəlində çarizmin işğalçılıq siyasətinə bir növ "yardımçı" olan xanlılararası qarşıdurmaları haqlı olaraq təəssüflə qeyd etdiyinin şahidi oluruq. Qeyd olunan dövrdə beynəlxalq münasibətlərin xarakterini açan N. Bayramova tarixşünaslığımız üçün yeni olan bir sıra nəticələrə gəlmişdir. İlk öncə sovet tarixşünaslığında mövcud olan yanlış konsepsiyanın – yəni digər Şimali Azərbaycan xanlıqları kimi, Şamaxı xanlığının da Rusiyaya meyilli olması kimi səhv konsepsiyanı tutarlı faktlarla təkzib etmişdir.

Düşünürəm ki, Nailə Bayramovanın bu əsəri tarixşünaslığımıza bir yenilik gətirəcək və oxucuların rəğbətini qazanacaq.

Əsərin əlavələr bölməsində istifadə olunmuş rusdilli sənədlərin foto – surətinin bəzi hissələri çətin oxunsa da, vacib məlumatların olmasını nəzərə alaraq həmin sənədləri olduğu kimi təqdim etməyi münasib hesab edirik.

**Redaktor T.T.Mustafazadə,**

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın qonşu xalqlarla əlaqələri və xanlıqlar dövrü tarixi şöbəsinin müdiri, t.e.d., professor

# G İ R İ Ş

**Atam, Bayramov Şafaddin Əliəşrəf oğlunun əziz xatirəsinə ithaf edirəm.**

Qədim və zəngin dövlətçilik ənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində, özünün dövlətçilik ənənələrini qoruyub saxlaya bilmiş, hətta Şərq və Qərb dünyasında özünəməxsusluğu ilə seçilən qüdrətli imperiyalar yaratmış, uzun müddət qonşu əraziləri öz nəzarəti altında saxlaya bilmişdir.Bu həm Manna, Atropatena, Albaniya kimi qədim, həm də Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi qüdrətli orta əsr dövlətlərinin timsalında, həmçinin ərazi cəhətdən kişik olsa da, xanlıqlar kimi siyasi müstəqilliyə malik son orta əsr dövlətlərimizin timsalında özünü göstərmişdir. Lakin zamanın gedişi heç də həmişə dövlətçilik tariximiz üçün asan və rəvan olmamışdır. Bu tarix olduqca çətin, mürəkkəb və ziddiyyətli dövrlərdən də xali deyildir.

XVIII yüzilliyin ortalarında meydana gəlmiş Azərbaycan xanlıqları dövlətçilik ənənələrinin bərpası baxımından mühüm əhəmiyyət kəsb etsə də, əsrin sonlarında özlərinin siyasi varlıqlarını qorumaq üçün həlli getdikcə çətin olan bir mübarizə meydanına atılmağa məcbur oldular. Bir tərəfdən daxili – siyasi çəkişmələr, digər tərəfdən isə yadelli hücumları Azərbaycan xanlıqlarının siyasi mövcudluğu üçün ciddi təhlükəyə çevrilmişdi. Öz varlıqlarını qorumaq uğrunda daim mübarizə aparan Azərbaycan xanlıqları, siyasi müstəqilliklərini itirməmək naminə qonşu xanlıqlar və dövlətlərlə müəyyən münasibətlərə girmək məcburiyyətində olmuşlar.

1991-ci ilin oktyabrında müstəqillik haqqında konstitusiya aktının qəbul edilməsindən sonra Azərbaycan Respublikasının dərin köklərə malik olan dövlətçilik tarixinin tədqiqi, qonşu dövlətlərlə münasibətlərinin əhəmiyyəti, həmin münasibətlərin tarixinin araşdırılması bu gün də inkaredilməzdir.

Qeyd etdiyimiz kimi, XVIII yüzilliyin II yarısı Azərbaycan tarixində, eyni zamanda müstəqil xanlıqlar dövrü olmuşdur. Həmin dövrdə Azərbaycan dövləti tarix səhnəsində vahid şəkildə deyil, ayrı – ayrı feodal dövlətləri – xanlıqlar formasında daxil olsa da, müəyyən dövr üçün dövlətçilik anlamını özündə saxlamışdır. Bu gün XVIII yüzillik xanlıqlar dövrü tarixinin, xüsusən də bu dövrün pozitiv cəhətlərinin üzə çıxarılmasına böyük ehtiyac vardır. Bu dövrü öyrənmək üçün hər bir xanlığın tarixinin araşdırılması zərurəti artıq reallaşmış və bu istiqamətdə müasir tarixçilərimiz tərəfindən xeyli iş görülmüş, xüsusi monoqrafiyalar yazılmışdır.

Bununla belə, XVIII yüzilliyin II yarısında Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının yaranması, iqtisadi həyatı, əsasən də onun qonşu dövlətlərlə münasibətlərinin tədqiqi bu gün də öz aktuallığı ilə qarşımızda dayanan

ciddi problemlərdəndir. Şamaxı xanlığının tarixinə indiyə kimi kompleks şəkildə müraciət edilməməsi bu problemin aktuallığını daha da zəruri edir. Doğrudur, bu problemin həllinə əvvəlki dövrlərdə də səy göstərilmiş, sovet dövrünün həm rus, həm də Azərbaycan tarixşünaslığında Şamaxı xanlığının yaranması, xanlıqda ikihakimiyyətliliyin mövcud olması kimi məsələlərə, qonşu xanlıqlar və dövlətlərlə münasibətlərinə ayrı – ayrı tədqiqat əsərlərində (101; 60; 59) cüzi də olsa toxunulmuşdur. Lakin həmin əsərlərdə konkret olaraq bu problemin həllinə cavab tapmaq qarşıya məqsəd qoyulmamış və xanlığın yaranması, əsasən də xanlıqda mövcud olan ikihakimiyyətlilik məsələsinə, Şamaxı xanlığının qonşu dövlətlərlə münasibətlərinə birtərəfli şəkildə yanaşılmış, əsasən Osmanlı imperiyası ilə olan siyasi münasibətləri isə kölgədə qalmışdır. Bundan əlavə, bu əsərlərdə dövrün tələbinə uyğun olaraq xanlığın Rusiya ilə münasibətləri tarixinə toxunarkən bitərəfliyə yol verilmiş, digər Azərbaycan xanlıqları kimi Şamaxı xanlığının da Rusiya təmayüllü olması və bu imperiyanın tabeliyinə "könüllü" şəkildə keçməsi kimi səhv yanaşma mövcud olmuşdur.

Əldə olunan yeni arxiv materialları qarşıya qoyduğumuz problemin həllini yenidən aktuallaşdırır və Şamaxı xanlığının yaranmasında ikihakimiyyətliyin mövcud olması məsələsinin daha dolğun işıqlandırılmasında, xanlığın iki adla – Şamaxı və yaxud Şirvan adlandırılmasında, onun qonşu dövlətlərlə münasibətlərində yol verilmiş birtərəfli yanaşmanın, ən əsası isə elmi boşluğun aradan qaldırılmasının əhəmiyyətini zaman müstəvisində daha da artırır.

Qarşıya qoyduğumuz mövzunun tədqiqi Azərbaycan mənbəşünaslığının və tarixşünaslığının daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli ola bilər.

Şamaxı xanlığının uzun müddət tarixşünaslıqda "Şirvan xanlığı" adlandırılması da həllini gözləyən problemlərdəndir. Mövzu ilə bağlı mövcud arxiv sənədlərindən və ilk mənbələrdən istifadə edilməsi, müxtəlif materialların araşdırılması tarixşünaslığımızda yaranan bu problemlərlə bağlı mövcud boşluğu bərpa etməyə imkan verəcəkdir.

Monoqrafiya XVIII yüzilliyin II yarısı – Şamaxı xanlığının mövcud olduğu dövrdən, XIX yüzilliyin I rübünə - II Rusiya – İran müharibəsinin başlanmasına qədərki dövrü əhatə edir. Monoqrafiyada Şamaxı xanlığının yaranması, ikihakimiyyətlilik illəri, xanlığın sosial – iqtisadi vəziyyəti, qonşu dövlətlərlə iqtisadi – ticarət əlaqələrinə müəyyən aydınlıq gətirilmiş, əsasən xanlığın qonşu xanlıqlar və dövlətlərlə siyasi münasibətlərinə, eləcə də XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində Mustafa xanın Şamaxı xanlığının müstəqilliyi uğrunda apardığı mübarizəsinə daha geniş yer verilmişdir. Şamaxı xanlığının müəyyən dövrlərdə Quba xanlığının tərkibinə qatıldığını nəzərə alaraq, xanlığın müəyyən dövr tarixi ilə bağlı qeyd olunan məsələlərə məhz Şamaxı xanlığının müstəqillik uğrunda mübarizəsi kontekstindən yanaşılmışdı.

Sovet dövründə Azərbaycan tarixinin öyrənilməsində daha çox təhriflərə məruz qalan başlıca problemlərdən biri də xanlıqlar dövrü tarixinin tədqiqidir.

Sovet tarixşünaslığında belə bir ideoloji konsepsiya hakim idi ki, Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının qonşu dövlətlərlə münasibəti bitərəfli olmuş, xüsusən Rusiyaya münasibəti "könüllülük" prinsipinə əsaslanmış, Osmanlı dövləti ilə isə münasibətləri olmamışdır. Belə yanlış münasibət isə həmin dövrdə Şamaxı xanlığının öz müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizəsi haqqında səhv nəticələrə gətirib çıxarmışdır.

Mövzu XVIII yüzilliyin II yarısı – XIX yüzilliyin əvvəllərinə aid olan arxiv sənədləri, o dövrün səyyahlarının məlumatları, həmçinin müasir dövrdə çap olunmuş arxiv materialları və tarixi ədəbiyyatın təhlili əsasında yazılmışdır.

Şamaxı xanlığının yaranma tarixi, ikihakimiyyətlilik illəri, sosial – iqtisadi vəziyyəti, qonşu xanlıqlar və dövlətlərlə iqtisadi – ticarət və siyasi – diplomatik əlaqələri ilə bağlı olaraq, ilk növbədə arxiv sənədlərindən istifadə olunmuşdur. Bunlara Rusiya Dövlət Hərbi Tarix Arxivinə (RDHTA), Rusiya İmperiyasının Xarici Siyasət Arxivinə (RİXSA) və Həştərxan Vilayəti Dövlət Arxivinə (HVDA) məxsus sənədlərin Azərbaycan Elmlər Akademiyasının A.A.Bakıxanov adın Tarix İnstitutunun arxivində saxlanılan surətlərini aid etmək olar (8; 9; 10; 11).

İstifadə olunan həmin mənbələr rəsmi arxiv sənədlərindən - rus diplomatlarının Azərbaycan xanları ilə məktublaşmasından, Azərbaycanda olan rus konsullarının mərkəzə göndərdikləri məlumatlardan, həmçinin qeyri – rəsmi sənədlərdən – şəxsi adamların gündəliklərindən, Azərbaycan ərazisində ticarətlə məşğul olan müxtəlif tacirlərin Rusiya dövlət məmurlarına müraciətlərindən, "donoslar"ından və s. ibarətdir. Mövzunun tədqiqi ilə bağlı həmin sənədlərdən istifadə olunarkən onlara tənqidi cəhətdən yanaşılmışdır, çünki onlar Rusiyanın Cənubi Qafqazda apardığı xarici siyasətə uyğun olaraq tərtib olunmuş, çarizmin buradakı müstəmləkə siyasətini müdafiə etmişdir. Bütün bunlara baxmayaraq, həmin sənədlərin Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının tarixinin öyrənilməsində əhəmiyyəti misilsizdir.

Mövzunun tədqiqi ilə bağlı çap olunmamış mənbələr sırasına, həmçinin müasir Türkiyə Respublikasının müxtəlif arxivlərində saxlanılan sənədlər də cəlb edilmişdir. Bu sənədlər içərisində Baş Bakanlıq Arxivinin "Xətti - Humayun" fondlarındakı sənədlər (48, 255, 6748, 720 və s.) birbaşa xanlıqlar dövrünün hadisələrini özündə əks etdirdiyi üçün və Şamaxı xanlığının qonşu dövlətlərlə qarşılıqlı əlaqəsinin öyrənilməsi baxımından misilsiz əhəmiyyətə malikdir.

Monoqrafiyada çap olunmamış mənbə kimi, həmçinin Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivinin fondlarında (4; 5; 6) qorunub saxlanılan sənədlərdən istifadə olunmuşdur. Azərbaycan torpaqları Rusiya imperiyası və Qacarlar İranı tərəfindən bölüşdürüldükdən sonra tərtib olunmuş həmin materiallar xanlıqlar dövrünün hadisələrini tam əks etdirməsə də, dövr baxımdan çox yaxın olduğundan həmin sənədlər əsasında Şamaxı xanlığının iqtisadi inkişafını yaxından izləmək mümkün olmuşdur.

Şamaxı xanlığının qonşu xanlıqlarla və dövlətlərlə münasibətləri B. Dornun Şirvanın tarixinə həsr etdiyi əsərində (81) bəzi ziddiyyətli məqamların mövcud olmasına baxmayaraq, Şamaxı xanlığının Quba və Lənkəran xanlıqları ilə münasibətləri, Mustafa xanın Rusiyaya münasibəti kimi siyasi məsələlər açıqlanmışdır. B. Dornun verdiyi məlumata görə, Nadir şahın 1734-cü ildə Yeni Şamaxıya hakim təyin etdiyi Hacı Məhəmmədəli Zərnəvaini elə həmin dövrdən buranın müstəqil hakimi olmuşdu (81, 49). B. Dorn yanlış olaraq Məhəmmədsəid xanın 1748-ci ildə Köhnə Şamaxıda Kərim xan Zənd tərəfindən xanlıq taxtına çıxarılmasını göstərir.

Zəndilər vaxtilə Nadir şah osmanlıları Qərbi İrandan çıxardıqdan sonra ona tabe olmaqdan imtina edirlər. Nadir şahın təqiblərinə məruz qalmış Zəndilər onun ölümündən sonra İranda müxtəlif feodal qrupları ilə hakimiyyət üstündə mübarizəyə qoşulur. Onların nümayəndəsi Kərim xan Zənd isə yalnız 1752-ci ildə Mərkəzi və Qərbi İranda rəqiblərini məğlub edir (63, 39) və burada hakimliyə sahib olur. Dornun verdiyi səhv mülahizənin əksinə olaraq, buradan belə nəticə çıxır ki, 50-ci illərdə İranda hələ öz mövqeyini tam möhkəmləndirməyən, özünü şah yox, vəkil adlandıran Kərim xan Zənd 1748-ci ildə Şimali Azərbaycanda böyük nüfuz üstünlüyünə malik ola bilməzdi və Şamaxı xanlığına da xan təyin edə bilməzdi. Bu məsələyə toxunan F. Əliyev yazırdı ki, Kərim xan şiələrdən ehtiyat etdiyinə görə ömrünün axırına kimi "vəkil" titulu ilə məhdudlaşıb, özünü şah elan edə bilməmişdir (21, 56). Belə yanlış fikirlərə yeni faktlar əsasında aydınlıq gətirməklə, Nadir şahın ölümündən sonra Şimali Azərbaycanın İranın təsir dairəsində olmadığını bir daha sübut etmiş olarıq.

Mövzunun tədqiqi zamanı, həmçinin çap olunmuş mənbələrdən – xüsusilə çoxhəcmliliyi və elmi əhəmiyyəti ilə fərqlənən Qafqaz Arxeoqrafiya Komissiyasının (QAKA) topladığı 12 cildlik sənədlər toplusundan (61) istifadə edilmişdir. A. Berjenin redaktəsi ilə hazırlanaraq Tiflisdə çap olunan bu topluda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriplər və s.) yanaşı, statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir – çıxar sənədləri və.s) da mövcuddur. QAKA-larda mövcud olan sənədlərə əsasən, Şamaxı xanlığının XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəlləri tarixinə dair məlumatları müqayisə etmək, dəqiqləşdirmək, bir sözlə, tənqidi süzgəcdən keçirmək mümkün olmuşdur. Mustafa xanın Rusiyanın Qafqazdakı ali baş komandanları olan Qudoviçə, Sisianova və başqalarına yazdığı məktubların da daxil olduğu həmin sənədlərdə, həmçinin Şamaxı xanlığının tarixinin bu və ya digər məsələləri ilə bağlı suallara cavab tapmaq mümkündür. Lakin bu toplunun böyük elmi əhəmiyyəti ilə yanaşı, onun tendensiyalı səciyyəsini də qeyd etmək lazımdır. Həmin sənədlər böyük elmi əhəmiyyətə malik olması ilə fərqlənsə də, yanlış fikirlərdən, qeyri – dəqiq məlumatlardan da xali deyildir. Dövrün tələbinə uyğun olaraq tərtib olunan sənədlərdə şamaxılı Mustafa xan İrana

meyilli hakim kimi təqdim olunur. Bununla da, Rusiyanın bölgədəki işğalçılıq siyasəti ört – basdır edilir.

Mövzuya aid çap olunmuş mənbələr sırasına, həmçinin Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə əlaqələrini işıqlandıran, Ankarada nəşr olunan ikicildlik sənədlər toplusunu (55; 55) aid etməmək mümkün deyildir. Burada toplanan sənədlər, əsasən müasir dövrdə Türkiyə dövlət arxivində saxlanılan "Mühimmə dəftərləri", "Xətti – Humayun dəftərləri", "Topqapı Saray Arxivi"ndəki qiymətli mənbələrə əsasən hazırlanmışdır. Həmin sənədlərdə öz əksini tapan Osmanlı sultanının Şamaxı xanlarına göndərdiyi fərmanlar xanlığın Türkiyə ilə qarşılıqlı münasibətlərinin araşdırılmasında əvəzolunmaz mənbədir.

Mövzuya aid olan mnəbələrə, həmçinin Azərbaycan xanlıqlarının Rusiya və Qacar dövləti arasında bölüşdürülməsindən sonra işğal olunmuş yeni torpaqların tarixini, iqtisadiyyatını və təsərrüfatını öyrənmək üçün yazılmış yerli və rus tədqiqatçılarının əsərləri aiddir. Bunlar içərisində qədim dövrdən başlamış XIX yüzilliyin əvvəlinədək Azərbaycan tarixini tam şəkildə elmi əsaslarla işıqlandıran A. Bakıxanovun 1841-ci ildə yazıb başa çatdırdığı "Gülüstani – İrəm" (16; 17) əsərini xüsusi olaraq qeyd etmək lazımdır. Əsərin beşinci fəslində Nadir şahın ölümündən "Gülüstan" sülhünə qədər olan hadisələr: Azərbaycan xanlıqlarının təşəkkülünün qısa tarixi, xanlıqlar arasında gedən aramsız çəkişmələr, o cümlədən Şamaxı xanlığının yaranması, Quba və Şəki xanları arasında bölüşdürülməsi, hakimiyyətdən uzaqlaşdırılan Şamaxı xanlarının qubalı Fətəli xana qarşı apardığı siyasi mübarizə, eləcə də Ağa Məhəmməd şah Qacarın Azərbaycanın şimal torpaqlarına, o cümlədən Şamaxıya hücumu və xanlıqların Rusiya tərəfindən istilası məsələləri yığcam şəkildə öz əksini tapmışdır.

Şamaxı xanlığının iqtisadiyyatını və təsərrüfatını, inzibati – idarə quruluşunu öyrənmək üçün 1819-cu ildə tərtib edilərək 1867-ci ildə isə nəşr olunmuş "Şirvan əyalətinin təsviri" (112) adlı sənədlər toplusunu qeyd etməmək mümkün deyil. Əsərdə bilavasitə Şamaxı xanlığında daxili ticarətin inkişafını, xanların xeyrinə ödənilən vergilərin, ümumiyyətlə, sənətkarlardan alınan vergi növlərinin araşdırılmasında mühüm mənbədir.

Digər bir mənbə 1828 – 1836-cı illərdə Cənubi Qafqazın iqtisadi həyatının öyrənilməsinin nəticəsi kimi Sankt – Peterburqda Leqkobıtovun redaktəsi ilə çap edilən dördcildlik "Rusiyanın Qafqazdakı ərazilərin statistik, etnoqrafik, topoqrafik və maliyyə münasibətlərinin icmalı" toplusudur (111). İlk növbədə Azərbaycanın bir müstəmləkə kimi metropoliya üçün əhəmiyyəti məsələsinin, iqtisadi sərvətlərin mənimsənilməsi yollarının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edən əsərin ikinci və üçüncü cildlərində Şamaxı xanlığının tarixinə dair bəzi məlumatları əldə etmək mümkündür. Qafqaz ölkələri haqqında ilk ümumi statistik məlumatlar verən bu əsərin üçüncü (111, 62) cildində Şirvan regionu ilə Şamaxı xanlığı çox düzgün olaraq bir – birindən fərqləndirilir və Muğan düzünün bir hissəsi də daxil olmaqla xanlığın ərazisinin 14.500 kv. verstə çatdığı göstərilir. Eyni fərqləndirici

cəhəti XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində Azərbaycanın şimal xanlıqlarının siyasi və sosial – iqtisadi həyatından bəhs edən S. Bronevskinin əsərində (71) də görmək olar (S. Bronevski 1796-cı ildə rus qoşununun Azərbaycana yürüşündə iştirak etmiş, 1802 – 1808-ci illərdə Qafqazda hərbi qulluğunu davam etdirmiş, şəxsən iştirakçısı olduğu və gördüyü hadisələri həmin əsərində təsvir etmişdir (32, 10).

Müəllif Şamaxı xanlığının sərhədlərini şimalda Quba xanlığı, şərqdə Bakı xanlığı, cənubda Muğan düzü və Qarabağ xanlığı ilə, qərbdə isə Göyçay çayı ilə hüdudlandırır (71, 157). Lakin onun səhvi onda idi ki, Dağıstan tərəfdən xanlığının sərhəddinin Rubas çayına qədər uzandığını göstərdiyi halda, həm də Samur çayını Quba xanlığının sərhədi kimi vermişdir. Rubas çayı isə məlumdur ki, Dərbənddən axır (126, 197; 97). Şamaxı xanlığının tarixinə dair xeyli maraqlı məlumatlar verən S. Qmelin də, həmçinin göstərir ki, hələ Nadir şah dövründə Şamaxı şəhərinin ətrafındakı kəndlər, Ağsa, qərbdən Göyçay çayına, şimaldan Altıağac və şərqdən Navahı kəndinə qədər olan ərazilər Sərkərlər nəslindən olan Allahverdi bəyə məxsus olmuşdur (79, 90 - 91) ki, bu ərazi də bütün Şirvan adlanan regionu yox, Şamaxı xanlığının sərhədlərini əhatə edir. S. Qmelin, eyni zamanda xanlığın Quba xanlığı ilə siyasi əlaqələrini açıqlamışdır. Xanlığın Təbriz xanlığı ilə ticarət əlaqələrindən bəhs edən müəllif Şamaxı xanı Məhəmmədsəid xanın dövründə Təbrizdən buraya 100 fabrik (manufaktura nəzərdə tutulur – N. B.) sahibinin – sənətkarın köçdüyünü bildirir (79, 101). Qubalı Fətəli xan Şamaxı xanlığını Şimali – Şərqi Azərbaycan torpaqlarına birləşdirdikdən sonra (1768 –ci il) həmin sənətkarlar yenidən Təbrizə qayıdırlar.

1796-cı il Rusiya qoşunlarının Cənubi Qafqaza yürüşünün iştirakçısı olan qafqazşünas – akademik P.Q.Butkovun üç cildlik əsərinin ikinci cildində (740 Şamaxı xanlığının siyasi tarixinə dair zəngin və rəngarəng məlumatları daha çox izləmək mümkündür. Lakin digər qafqazşünaslar kimi P.Q.Butkov da öz əsərində hadisələrin izahına birtərəfli yanaşmış, hər şeydən əvvəl, xidmətində olduğu imperiyanın maraqlarını müdafiə etmişdir. Şamaxı xanı Mustafa xanın Rusiyaya münasibəti "ikimənalı" təqdim edilmişdir. 1796-cı ildə V. Zubova qarşı Azərbaycan xanlarının təşkil etdiyi sui – qəsddə əsas rol oynayan Mustafa xanın Rusiyaya münasibətində onun sədaqət andı içməsi çox inandırıcı şəkildə verilmişdir ki, bu da qətiyyən düzgün deyildir. Rusiyaya tabe olmaq istəməyən xan, əslində imperatriçaya sadiq qalacağına heç bir rəsmi sənədlə razılığını bildirməmiş, bu zaman xanın sözlə verdiyi "vəd" isə diplomatik manevrdən başqa bir şey deyildir.

XIX yüzilliyin sonlarında çap olunmuş tədqiqat əsərləri içərisində rus qafqazşünaslarından N.F. Dubrovinin əsərlərini (85; 86) qeyd etməmək mümkün deyil. Əsərdə müəllifin Rusiyanın Qafqazda apardığı işğalçılıq siyasətinə haqq qazandırmasına baxmayaraq, burada Sisianovun komandanlığı altında rus qoşunlarının Azərbaycana gəlişi zamanı Şamaxı xanı Mustafa xanın rus generalı ilə

apardığı danışıqlarını, işğalçılara qarşı yönəlmiş siyasətini izləmək mümkündür. Əsərdə verilmiş hadisələrdən bəlli olur ki, 1804-cü ildə Şamaxı xanlığının Rusiyaya tabe edilməsi haqqında danışıqlar gedən zaman Mustafa xan həmin təklifə birbaşa etiraz edə bilmir, müəyyən vaxt qazanmaq məqsədilə rus komandanlığının qarşısına bir sıra şərtlər qoyur (86, IV c., s. 480). Bu şərtlər Rusiya tərəfindən Şəki, Şamaxı, Muğan, Rudbar, Salyan və Bakı xanlığında Mustafa xanın hakimiyyətinin tanınmasından ibarət idi. N.F. Dubrovinin qeyd olunan əsərində, həmçinin XIX yüzilliyin ilk illərində Rusiyanın Cənubi Qafqaza hücumu ərəfəsində şamaxılı Mustafa xan ilə şəkili Səlim xan arasında Şirvan torpaqlarına sahib olmaq uğrunda gedən mübarizə və həmin mübarizədən Rusiyanın öz xeyrinə istifadə etməsi faktlarını da izləmək mümkündür (85, IV c., s. 27).

Azərbaycanın xanlıqlar dövrü tarixinin öyrənilməsi, xanlıqların ictimai – iqtisadi və siyasi həyatının tədqiqi məsələlərinə istər sovet dövrünün rus və Azərbaycan tarixşünaslığında, istərsə də müstəqil Azərbaycan Respublikasının tarixşünaslığında xeyli iş görülmüşdür. Xanlıqların yaranma tarixi, onların inzibati quruluşu, sosial – iqtisadi inkişafı, sənətkarlıq və aqrar quruluşu, siyasi tarixi və qonşu xanlıqlar və dövlətlərlə qarşılıqlı əlaqələrinə dair xüsusi monoqrafiyalar yazılmışdır.

Bu tədqiqat əsərləri içərisində sovet dövrünün istər Azərbaycan, istərsə də rus tarixçilərindən V. Leviatovun, (101) Petruşevskinin, (113) H. Abdullayevin (60, 59) F. Əliyevin, (23; 62) H. Dəlilinin, (19) O.P.Markovanın (106) və başqalarının əsərlərini göstərmək olar. Lakin həmin əsərlərdə Şamaxı xanlığı birbaşa tədqiqat obyekti olmadığı üçün xanlığın yaranma tarixi, Şamaxı xanının özünü İran şahının vəkili hesab edən Kərim xan Zənd tərəfindən hakimliyə təyin edilməsi məsələsində, xanlıqda ikihakimiyyətliliyin təkhakimiyyətliliklə əvəz olunmasının xronoloji çərçivəsi və.s məsələlərdə qeyri – dəqiqlik müşahidə edilir. Bundan əlavə, Şamaxı xanlığının qonşu dövlətlərlə münasibətlərinin öyrənilməsinə də xüsusi diqqət yetirilməmişdir. Şamaxı xanlığının Quba xanlığı ilə apardığı mübarizənin birinci mərhələsinə (XVIII yüzilliyin 60 -70-ci illərinə qədər olan dövr) qədərki dövrdə Şamaxı xanlarının və Sərkərlər nəslinin digər sülalə üzvlərinin qonşu xanlıqlarla və dövlətlərlə münasibətlərinə ötəri toxunulmuş və demək olar ki, bu hadisələrlə bağlı qeyri – dəqiqliyə yol verilmişdir.

Mövzunun öyrənilmə səviyyəsindən bəhs edərkən Azərbaycan sovet dövrü tədqiqatçılarından Ə. Cəfərovun dissertasiyasını (18) da qeyd etməliyik. Ə. Cəfərov Şirvan (Şamaxı – N.B.) xanlığının Rusiyaya birləşdirilməsinin nəticələrinə həsr etdiyi həmin dissertasiyasında dövrün tələblərinə uyğun olaraq qeyd etdiyimiz digər müəlliflər kimi Azərbaycanda Rusiyaya meyilin dərin kök salması fikrini əsaslandırmağa çalışmış, əsas diqqətini Şirvan əyalətinin yaranmasından "dağıdılmış Şamaxı şəhərinin təməlinin qoyulmasına" (18, 84 -98) və Rusiyanın tərkibində daha da tərəqqi etməsinə yönəltmişdir. Bununla belə, kommunist

idelogiyasının tələblərinə uyğun şəkildə yazmağa məcbur olan müəllifin qeyd olunan əsərində şamaxılı Mustafa xanın Rusiya işğalçılarına qarşı apardığı mübarizə tarixini izləmək mümkündür.

Lakin Şamaxı xanlığının tarixinin kompleks şəkildə araşdırılması indiyə kimi tədqiqata cəlb edilməmişdir. Belə güman edirik ki, bunun həm obyektiv, həm də subyektiv səbəbləri olmuşdur. Obyektiv səbəb kimi xanlığın yaranmasında ikihakimiyyətliliyin olması ilə əlaqədar hadisələrin ziddiyyətli xarakter daşıması, bu ziddiyyətlərin araşdırılması üçün kifayət qədər mənbələrin əldə olunması imkansızlığı olmuşdur. Subyektiv səbəb isə mənbələrdə xanlığın gah Şirvan, gah da Şamaxı adlandırılması ilə bərabər bu xanlığın XVIII yüzilliyin 60-80-ci illərində Quba xanlığından asılı vəziyyətdə olması ilə əlaqədar olaraq, xanlığın mübarizə tarixinə şübhə ilə yanaşmalar olmuşdur. Əslində Şamaxı xanlarının müstəqillik uğrunda apardığı mübarizə tarixini, xüsusilə Rusiyaya qarşı mübarizəsini ayrı – ayrı tədqiqat əsərlərində izlədikdən sonra bu qənaətin qetri – dəqiq olmasını üzə çıxarmaq bir o qədər də çətin deyil.

Sovet dövrü Azərbaycan tarixinin görkəmli tədqiqatçılarından olan H. B. Abdullayev yuxarıda qeyd etdiyimiz zəngin arxiv materialları əsasında ərsəyə gətirdiyi əsərlərində əsas diqqətini Quba xanlığının Rusiya ilə münasibətlərinin araşdırılmasına yönəltdiyi üçün digər xanlıqlar nəzərdən qaçırılmışdır. Lakin Şamaxı xanlığı müəyyən dövrlərdə Quba xanlığının tərkibində olduğundan müəllifin ikinci əsərində Şamaxı xanlığının Quba xanlığı ilə münasibətlərinə müəyyən aydınlıq gətirilmişdir. Müəllif Şamaxı xanlığının Quba xanlığı tərəfindən işğalı zamanı Quba xanlığının böyük hərbi hazırlıq işlərinə başlamasını göstərməklə Şamaxı xanlığının heç də zəif olmadığını bir daha təsdiqləyir və qeyd edir ki, 1758-ci ildə Ağa Rəzi bəyin Qubanın Bərmək mahalına yürüşü məğlubiyyətlə nəticələnsə də, həmin dövrdə Quba xanlığı Şamaxı xanlığını tam tabe edəcək vəziyyətdə deyildi (59, 214). Fətəli xanın Şamaxı xanlığını tabe etməkdə bir çox çətinliklərlə üzləşməsinin digər bir səbəbi də, 1761-ci ildə Şamaxıda ikihakimiyyətliliyə son qoyulması olmuşdur. Qubalı Fətəli xanın Şamaxı xanlığına qarşı şəkili Hüseyn xan ilə ittifaq bağlamaq məcburiyyətində qalması təkhakimiyyətlilik şəraitində Şamaxı xanlığının hərbi – siyasi gücünün artmasının təkzibedilməz sübutudur.

Şamaxı xanlığının tarixinə V.İ. Leviatov qeyd etdiyimiz əsərində toxunmuş, qubalı Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmə siyasəti zamanı Şamaxı xanlığının mövqeyini açıqlamışdır. Həmin dövrdə daxili çəkişmələr nəticəsində Azərbaycan ticarətində nəzərə çarpan tənəzzül birbaşa Şamaxı ticarətinə öz mənfi təsirini göstərmişdir. V.İ. Leviatov göstərir ki, Şamaxı tacirləri Fətəli xanın birləşdirmə siyasətini qəbul etməkdənsə, Sərkərlər nəslinin nümayəndələrini dəstəkləməyi üstün tutur. Qubalı Fətəli xan daha çox tənəzzülə uğrayan Şamaxı ticarətini yenidən canlandırmaq üçün vergilərin miqdarını artırır (101, 1584).

Haqlı olaraq, Ağa Məhəmməd şah Qacarın Azərbaycana birinci yürüşü zamanı şamaxılı Mustafa xanın Qarabağ və Lənkəran xanları kimi kömək üçün Rusiyaya müraciət etmədiyini qeyd edir. Sovet dövrünün digər müəllifləri kimi, V. Leviatov da xanlıqların xarici siyasətinin işıqlandırılmasında birtərəfli mövqe tutsa da, Şamaxı xanlığının qonşu dövlətlərlə münasibətlərini obyektiv açıqlamalarla təqdim etmişdir.

Şamaxı şəhərinin tarixini araşdıran müəlliflərdən biri kimi A. Fituni də Şamaxı xanlarının siyasətinin geniş təhlilini vermişdir. Xanlığın siyasi həyatında mühüm rol oynayan Fitdağ qalasının əhəmiyyətindən bəhs edən müəllif xanlığın İran və rus qoşunlarına qarşı mübarizəsi zamanı Mustafa xanın bu qaladan müdafiə mövqeyi kimi istifadə etdiyini göstərir. A. Fituni daha sonra qeyd edir ki, 1796-cı ildə rus qoşunları xanlığın ərazisinə daxil olarkən Mustafa xan əvvəl Fitdağda möhkəmlənsə də, vəziyyətin çətinliyini görüb İrana qaçmağa cəhd edir göstərir, lakin bütün yollar bağlandığından o Qarabağa getməyi qərarlaşdırır (123, 126). Müəllifin səhv fikirlərinə rəğmən deyə bilərik ki, Ağa Məhəmməd şah Qacara yenicə rədd cavabı verən şamaxılı Mustafa xanın İrana qaçmağa cəhd göstərməsi tarixi reallıqdan xeyli kənardır. Çünki eşitdiklərinə əsaslanan müəllif həmin məlumatı verərkən heç bir mənbəyə istinad etmir.

Sovet hakimiyyəti illərində Azərbaycan xanlıqlarının tarixinə dair bir çox tədqiqat əsərləri yazılmışdır. Həmin tədqiqat əsərlərində bu və ya digər məsələlərin şərhi ilə əlaqədar, Şamaxı xanlığının tarixinə də toxunulmuşdur. Xanlıqların yaranmasının iqtisadi və siyasi kökləri, xanlıqlar dövründə mövcud olan vergi və mükəlləfiyyətlər, torpaq mülkiyyət formaları haqqında görkəmli şərqşünas alim İ.P.Petruşevskinin əsərində geniş məlumat verilmişdir (113).

Monoqrafiyanın yazılması zamanı istifadə edilən tədqiqat əsərləri içərisində rus tarixçisi O.P.Markovanın yuxarıda qeyd etdiyimiz monoqrafiyası da xüsusi yer tutur. Rusiya və Qərbi Avropa dillərində olan mənbələrə istinadən yazılmış əsərində müəllif Rusiya və İranın Cənubi Qafqazda yeritdikləri siyasətə daha çox beynəlxalq konteksdən yanaşmışdır. Əsərdə Azərbaycan xanlıqlarının, o cümlədən qismən də olsa Şamaxı xanlığının bu münasibətlərdə tutduğu yeri müəyyənləşdirmək mümkündür (106). Azərbaycanda xanlıqlar dövrünün tədqiqatçılarından olan F. Əliyevin xidmətləri misilsizdir. Öz tədqiqatlarında (22, 23), xüsusilə Azərbaycan şəhərlərinin inkişaf xüsusiyyətlərini araşdıran müəllif, həmçinin Şamaxı şəhərinin ticarət və sənətkarlıq mərkəzi kimi geniş təhlilini vermişdir.

Monoqrafiyanın yazılması zamanı F. Ağamalının (2) və C. Mustafayevin də monoqrafiyalarından (36; 109) istifadə edilmişdir. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq F. Ağamalı Azərbaycan xanlıqlarının sosial – iqtisadi vəziyyətini ilkin mənbələr əsasında ətraflı tədqiq etmişdir. Xüsusilə Şamaxı xanlığında aqrar münasibətlərin, sənətkarlığın və ticarətin inkişaf xüsusiyyətlərini araşdırmışdır. C. Mustafayev isə öz tədqiqat əsərində Azərbaycan xanlıqlarının Rusiya ilə iqtisadi,

siyasi əlaqələrini təhlil etmiş, Şamaxı xanlığının Rusiya ilə münasibətlərinə obyektiv yanaşaraq onları elmi dövriyyəyə cəlb etmişdir. İran və Rusiya təcavüzünə qarşı Mustafa xanın apardığı mübarizə tarixini təhlil edən müəllif A. Fitunidən sonra ilk dəfə olaraq Fitdağ qalasının Şamaxı xanlığının siyasi həyatında oynadığı rolu fərqləndirmişdir. C. Mustafayevin digər bir tədqiqat əsərində (36) isə xanlıqlar dövründə bütövlükdə Azərbaycan xanlıqlarında, o cümlədən Şamaxı xanlığında sənətkarlığın inkişafına və təsnifatına, sənətkarlardan alınan vergi növlərinə, onların miqdarına və s. məsələlərə xüsusi diqqət yetirilmişdir.

Şamaxı xanlığının tarixinin müxtəlif məsələləri, xüsusilə xanlığın Rusiya və İran ilə münasibətləri G. Məmmədovanın tədqiqatında (104) da əks olunmuşdur. Müəllif XVIII yüzilliyin 60-cı illərində Şamaxı xanlığının Rusiya ilə ticarətdə mühüm rol oynadığını ön plana çəkməklə bərabər xanlığın siyasi həyatına da xeyli yer vermişdir. Əsərdə 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın Azərbaycana yürüşü zamanı Qarabağ, Quba və Bakı xanlarının ümumi təhlükəyə qarşı birləşməsi zamanı Şamaxı xanı Hacı Məhəmmədəli xanın da bu ittifaqa qoşulduğu göstərilir. Burada müəllif haqlı olaraq qeyd edir ki, İran XVIII yüzilliyin 60-cı illərində Azərbaycanın şimal xanlıqlarını silah gücünə özünə tabe edəcək qüvvəyə malik deyildi (104). Müəllifin digər tədqiqat əsəri V.A.Zubovun 1796-cı ildə Azərbaycana yürüşünə həsr olunmuşdur (103). Yeni konsepsiya ilə yazılmış bu əsərdə müəllifin gətirdiyi faktiki materiallar əsasında sübüt olunmuşdur ki, rus işğalına məruz qalmış Azərbaycan xanlıqlarından heç biri, o cümlədən də Şamaxı xanlığı öz hakimiyyətini Rusiyaya güzəştə getmək fikrində deyildi.

M. İsmayılovun və M. Bağırovanın Şəki xanlığının tarixinə həsr edilmiş birgə tədqiqat əsərində (29) Şəki xanlığının qonşu xanlıqlarla münasibəti çərçivəsində Şamaxı xanlığı ilə siyasi münasibətlərinə də toxunulmuşdur.

Quba xanlığının tərkibində olması baxımından Şamaxı xanlığı ilə oxşarlıq təşkil edən Bakı xanlığının tarixinə həsr olunmuş M. İsgəndərovanın monoqrafiyası (92) zəngin qaynaqlar əsasında yazılmışdır. Əsərdə Bakı xanlığının Şamaxı xanlığı ilə olan iqtisadi – ticarət məsələlərinə toxunulmuşdur.

Uzun müddət Azərbaycan sovet tarixşünaslığında Azərbaycan xanlıqlarının qonşu dövlətlərlə, əsasən də Osmanlı dövləti ilə qarşılıqlı münasibətlərinə birtərəfli və ziddiyyətli yanaşma mövcud olmuşdur. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra yazılmış əsərlərdə artıq bu və ya digər məsələlərə yeni – obyektiv baxış formalaşmışdır. Bu baxımdan G. Nəcəflinin ilk dəfə olaraq XVIII yüzilliyin II yarısında Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi münasibətlərinə həsr olunmuş monoqrafiyasında (39) xanlıqların qonşu dövlətlərlə qarşılıqlı əlaqəsinə onların öz müstəqilliyini qorumaq siyasəti kimi baxılmış və qismən Şamaxı xanlığının Osmanlı dövləti ilə münasibətlərinə toxunulmuşdur.

Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının Osmanlı dövləti ilə münasibətlərini xronoloji baxımdan daha geniş şəkildə professor T. Mustafazadənin "XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı –

Azərbaycan münasibətləri” (37) adlı əsərində izləmək mümkündür. T. Mustafazadə qeyd olunan dövrdə Osmanlı - Azərbaycan münasibətlərini tədqiq edərkən haqlı olaraq Şamaxı xanı Ağası xanın Osmanlı dövləti ilə ittifaqa meyil etməsinin səbəbini Rusiyaya qarşı deyil, qubalı Fətəli xana qarşı mübarizəni davam etdirmək niyyətində olması kimi izah edir (37, 178). Həqiqətən də, həmin dövrdə (XVIII yüzilliyin 60-cı illəri) Rusiyanın Şamaxı xanlığına, o cümlədən bütünlüklə Azərbaycanın şimal xanlıqlarına real hücum təhlükəsi gözlənilmirdi.

Professor T. Mustafazadənin Quba xanlığının tarixinə həsr etdiyi digər bir tədqiqat əsərində (38) qubalı Fətəli xanın Azərbaycanın şimal – şərq torpaqlarını Quba xanlığına birləşdirməsi fonunda Şamaxı xanının xanlığın müstəqilliyini qorumaq uğrunda apardığı mübarizə; Quba xanlığına xərac verməkdən imtina edən Şamaxı xanlığı ilə Quba xanlığı arasında gedən 4 illik (1765 - 1769) mübarizə tarixi yeni qaynaqlar əsasında işıqlandırılmışdır. Burada Azərbaycan torpaqlarının qubalı Fətəli xan tərəfindən birləşdirilməsi zamanı Şamaxı xanlığının tabe edilməsinə baxmayaraq, xanlığın daim separatçılığa meyil etməsini, onun Quba xanlığı üçün çox təhlükəli bir qüvvəyə çevrildiyini izləmək mümkündür.

XIX yüzilliyin başlanğıcında Azərbaycanın Arazdan şimaldan yerləşən xanlıqlarının rus işğalçılarına qarşı azadlıq mübarizəsi və Azərbaycan torpaqlarının ikiyə bölünməsi tədqiqatçı V. Umudlunun əsərində (45) yeni baxımdan, obyektiv şəkildə tədqiq olunmuşdur. Azərbaycanın şimalda yerləşən xanlıqlarının sərhədləri haqda qısa məlumat verən müəllif Şamaxı xanlığının şimal sərhəddinin Samur çayı sahili ilə hüdudlanması haqda yanlış fikri təkrar etməsinə (45, 21) baxmayaraq, Rusiyanın Şimali Azərbaycanı işğal etdiyi zaman Şamaxı xanlığının müqavimət göstərməsini obyektiv şəkildə işıqlandırmışdır.

Son illərin tədqiqat əsərləri içərisində xanlıqlar dövrünün aqrar münasibətlərinin ümumi səciyyəsinin araşdırılmasında M. Abdullayevin tədqiqat əsərini, (1, 9) xüsusilə qeyd etmək yerinə düşərdi. Əsərdə Azərbaycanın şimal xanlıqlarına, o cümlədən Şamaxı xanlığına məxsus torpaq mülkiyyət formalarına toxunulmuş, vergi verən əhali ilə bağlı konkret statistik məlumatlara daha çox yer verilmişdir.

Bunlarla yanaşı, tədqiqat mövzumuzla bağlı bir sıra müəlliflərin (12; 75, 32; 27) də əsərlərindən faydalanmış, Azərbaycan tarixinin, bu və ya digər məsələlərinə dair ümumiləşmiş əsərlərdən (12; 11) istifadə edilmişdir.

Beləliklə, Şamaxı xanlığının mənbəşünaslıq və tarixşünaslıq məsələlərinin araşdırılması onu göstərir ki, xanlığın tarixinin, xüsusilə siyasi tarixinin kompleks şəkildə öyrənilməsi bu gün də öz aktuallığını saxlayır və əlimizdə olmayan mənbələrin axtarılmasını bir daha zəruri edir.

Araşdırılan problemin aktuallığını və çoxcəhətliliyini nəzərə alaraq monoqrafiyanın başlıca məqsədi Azərbaycanın dövlətçilik tarixində Şamaxı xanlığının tutduğu yeri və rolu müəyyənləşdirmək, onun mövqeyini elmi cəhətdən qiymətləndirmək, xanlığın qonşu xanlıqlar və dövlətlərlə qarşılıqlı münasibətlərini

obyektiv şəkildə, yəni qaynaqlar əsasında tədqiq etmək və Azərbaycan tarixşünaslığında bu problemlə bağlı olan mövcud boşluğu doldurmaqdan ibarətdir.

XVIII yüzilliyin II yarısı – XIX yüzilliyin 20-ci illərində Şamaxı xanlığı və onun qonşu dövlətlərlə münasibətləri ilk dəfədir ki, kompleks şəkildə tədqiqata cəlb edilmişdir. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Şamaxı xanlığının tarixinin dövrün qaynaqları əsasında hərtərəfli araşdırılması prosesində aşağıdakı elmi yeniliklər əldə olunmuşdur:

- Şamaxı xanlığının yaranması və ikihakimiyyətlilik məsələsinə ilkin qaynaqlar əsasında aydınlıq gətirilmiş, iranlı Kərim xan Zəndlə xanlığın yaranmasının heç bir bağlılığının olmaması ilkin mənbələr əsasında təkzib edilmişdir;
- Şamaxı xanlığının inzibati – idarə quruluşu aydınlaşdırılmış, onun mahallarının sayı dəqiqləşdirilmişdir;
- Şamaxı xanlığının qonşu dövlətlərlə qarşılıqlı münasibətinin təhlili zamanı xanlığın daxili və xarici siyasətinin əsas istiqaməti aydınlaşdırılmış, dövrün beynəlxalq vəziyyətilə bağlı olaraq ona təsir edən amillər təhlil edilmiş və xanlığın müstəqil xarici siyasət yeritməsi faktlarla əsaslandırılmışdır;
- dövrün qaynaqları əsasında Şamaxı xanlığının qonşu Dağıstan hakimləri ilə qarşılıqlı münasibətləri ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir;
- Mustafa xanın qonşu dövlətlərlə münasibətlərdə ardıcıl və məqsədyönlü siyasət yeritməsi əsaslandırılmışdır;
- ilkin qaynaqlara əsaslanaraq Şamaxı xanlığının Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələri aydınlaşdırılmışdır;
- xanlığın Rusiya tərəfindən işğal edilməsindən sonra Mustafa xanın tutduğu mövqe və yeritdiyi siyasət elmi cəhətdən əsaslandırılmışdır;
- xanlığın inzibati xəritəsi tərtib edilmişdir;
- Şamaxı xanlarının şəcərəsi dəqiqləşdirilərək tərtib edilmişdir.

Monoqrafiyadakı materialların və əldə edilən nəticələrin müəyyən praktiki əhəmiyyəti vardır ki, bunlar aşağıdakı qaydada tətbiq oluna bilər:

- Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında, dərslik və dərs vəsaitlərinin hazırlanmasında;
- ali tədris müəssisələrində mühazirə və ixtisas kurslarının oxunmasında;
- Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinə aid ümumiləşdirici əsərlərin yazılmasında istifadə edib bilər.

# I FƏSİL

# ŞAMAXI XANLIĞININ YARANMASI VƏ ONUN İCTİMAİ-İQTİSADİ VƏZİYYƏTİ

## 1.1. Şamaxı xanlığının yaranması və ikihakimiyyətlilik

1747-ci ildə Nadir şah Əfşarın öldürülməsindən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı. Hələ Nadir şahın sağlığında ikən azadlıq mübarizəsinə qalxan və müstəqilliyə can atan Azərbaycan torpaqlarında yeni dövlətlər yarandı. Beləliklə, XVIII yüzilliyin ortalarında Azərbaycan xalqının həyatında yeni mərhələ başlandı: Azərbaycan tarix səhnəsinə vahid dövlət kimi deyil, bir sıra kiçik feodal dövlətlərinə - xanlıqlara və sultanlıqlara parçalanmış şəkildə çıxdı.

Orta əsrlərin son mərhələsini səciyyələndirən xanlıqlar dövrü özünün bir sıra xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Qeyd etdiyimiz kimi, xanlıqların yaranmasının sosial-iqtisadi kökləri hələ Səfəvilər dövründən formalaşmağa başlamışdı. XVII yüzilliyin sonundan etibarən tənəzzül dövrü keçirən, 200 ildən artıq (1501-1736) mövcud olan Səfəvi dövlətinin ərazisində bəylərbəyliklərin olması güclü mərkəzləşdirilmiş dövlətin qorunub saxlanılmasında çətinliklər törədirdi. Səfəvilər dövründə iri torpaq mülkü və hərbi qüvvəsi olan bəylərbəyi Şirvan bölgəsində irsi hakimliyə malik deyildir. Məhz XVIII yüzilliyin ortalarında Səfəvilər dövründən mövcud olan ölkə və ya bəylərbəyliklərin yerində müstəqil xanlıqlar yarandı.

Tayfa əyanlarının köməyi ilə hakimiyyətə gələn Nadir şahın dövründə iri feodal əyanları varlanaraq separatçılığı daha da gücləndirirlər. Azərbaycan on bir il (1736-1747) Nadir şah imperiyası dövründə də təbii ki, güclü dövlət aparatına malik ola bilməmişdir. Nadir şahın ölümündən sonra onun idarə etdiyi dövlətin taxt-tacı uğrunda mübarizə o qədər güclənir ki, Azərbaycanda müstəqil dövlətlərin yaranmasına mane ola biləcək qüvvə, demək olar ki, qalmır.

XVIII yüzilliyin II yarısında Azərbaycan tarixində Nadir şah hökmranlığına son qoyulduğu, beynəlxalq münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda xanlıqlar adlanan müstəqil Azərbaycan dövlətlərinin meydana gəlməsi feodal cəmiyyətinin obyektiv təzahüründən başqa bir şey deyildir. Məhz həmin dövrdə Azərbaycan vahid bir mərkəzdən idarə olunmaq şansını itirir və ölkənin hərbi-siyasi tənəzzülü dövrü başlanır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan torpaqlarının vahid dövlətdə birləşməməsi ölkənin iqtisadi, siyasi və mədəni inkişafına mane olurdu. Buna baxmayaraq, xanlıqlar öz müstəqilliklərini qoruyub saxlamaq, qonşu dövlətlərlə

qarşılıqlı münasibətlər yaratmaq üçün özünəməxsus xarici siyasət yeritmişlər. Həmin xanlıqlardan biri də Şamaxı xanlığı olmuşdur.

Azərbaycanın Arazdan şimalda yerləşən xanlıqlarının çar Rusiyası tərəfindən işğal olunmasından sonra Şamaxı xanlığı tarixi ədəbiyyatda "Şirvan xanlığı" adlanmışdır. Təəssüf ki, tədqiqatçılarımız uzun müddət bu məsələyə öz münasibətlərini bildirməmişlər. S.Bronevski öz əsərində (71, 157) Şirvan bölgəsi və Şamaxı xanlığı haqqında ayrı-ayrılıqda məlumat vermişdir. O qeyd edir ki, Alazan çayının sol sahilində yerləşən Şirvan bölgəsinə Şəki, Şamaxı və Salyan daxildir. XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəllərində Azərbaycanın şimal xanlıqlarının siyasi və sosial-iqtisadi həyatından bəhs edən S.Bronevski M.Biberşteynə istinad edərək Şamaxı xanlığının sərhədləri haqqında verdiyi maraqlı məlumatlar artıq monoqrafiyanın "giriş" hissəsində verildiyi üçün bu məlumatları təkrarlamağa ehtiyac görmürük. Təkcə onu demək kifayətdir ki, xanlığın sərhədlərinin dəqiqləşdirilməsi üçün tədqiqata cəlb edə bildiyimiz bütün XIX yüzilliyə aid mənbələrin təsvir etdiyi ərazilərdə Şirvan adlanan region ilə Şamaxı xanlığının sərhədləri bir-birindən fərqləndirilmişdir.

Digər bir XIX yüzilliyə aid mənbədə (111, 62) də göstərilir ki, Şamaxı xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra əyalətə çevrilərək "Şirvan əyaləti" adlandırılmışdır. Bu onu göstərir ki, Şamaxı xanlığının "Şirvan xanlığı" kimi adlandırılması qətiyyən düzgün deyildir və eyni zamanda Şirvan bölgəsində yerləşən digər xanlıqların tarixinin kölgədə qalması deməkdir.

Məlumdur ki, Şirvan coğrafi baxımdan böyük ərazini əhatə edirdi. Şirvan ərazisində bir neçə xanlığın Quba, Bakı, Şamaxı, Şəki xanlıqlarının və Salyanın mövcudluğunu nəzərə alaraq, (70, 16) son dövrlərdə həmin xanlıq elmi baxımdan obyektiv adla – "Şamaxı xanlığı" adlanmışdır. Lakin ilk dəfədir ki, xanlığın tarixi həmin adla elmi tədqiqata cəlb edilir. Ola bilsin ki, Şamaxı xanları özlərini "Şirvan xanı" adlandırmışlar. Lakin bu da xanlığın "Şirvan xanlığı" adlandırılmasına heç bir əsas vermir. Çünki qeyd etdiyimiz kimi, rus mənbələrində gah Şirvan, gah da Şamaxı xanlığı adlandırılan bu xanlıq Osmanlı mənbələrində Şirvan xanlığı adlandırılır. Osmanlı mənbələrində, nəinki Şamaxı xanları, hətta Quba, Şəki xanları da Şirvan xanları kimi təqdim edilmişdir (48, sən.4,94L,10, 336). Buradan belə bir qənaətə gəlmək olar ki, Şirvan regionunda müstəqil xanlıq taxt-tacına sahib olan hər bir xan qonşu dövlətlərlə yazışmalarında özünü Şirvan hakimi kimi təqdim etmişdir. Qonşu dövlətlərlə yazışmalar zamanı Şamaxı xanlarının yazdığı məktubların əksəriyyətini əldə etmək mümkün olmadığı üçün həmin məktublarda xanların möhürlərində "Şamaxı xanı" və ya "Şirvan xanı" yazılması haqqında dəqiq söz demək çətindir.

Lakin məlum həqiqətdir ki, heç bir Şamaxı xanı bütün Şirvan torpaqlarına sahib ola bilməmişdi. Baxmayaraq ki, qubalı Fətəli xanın perspektiv planlarında keçmiş Şirvanşahlar dövlətinin sərhədlərini bərpa etmək və özünü onların varisi kimi qələmə vermək arzusu olmuşdu və bu məqsədlə də o, Köhnə Şamaxını

möhkəmləndirməyə, onu şimal-şərqi Azərbaycan torpaqlarının mərkəzinə çevirməyə böyük səy göstərirdi (38, 113). XIX yüzillikdə yaşamış N.Zeydlis bu haqda yazırdı: "Fətəli xan Quba, Bakı, Şamaxı, Salyanı öz hakimiyyəti altında birləşdirərək, bu yolla Şirvanşahlar dövlətini bərpa edir" (88, 23-24; 59, 512). Lakin qubalı Fətəli xan Azərbaycanın şimal-şərq torpaqlarını birləşdirdikdə belə özünü Şirvan hökmdarı adlandırmamışdır. Ola bilsin ki, Şamaxı xanlarının da qubalı Fətəli xan və şəkili Hacı Çələbi xan kimi bütün Şirvan torpaqlarının hakimi olmaq arzusu olmuşdur. Lakin tədqiqat zamanı müəyyən olunmuşdur ki, Sərkərlər nəslinə mənsub olan Şamaxı xanları minillik tarixə malik olan Şirvanşahlar dövlətini bərpa etməyi qarşılarına məqsəd qoymamış və bu qüdrətə də malik ola bilməmişlər. Şamaxı xanları da Azərbaycanın əksər xanları kimi yalnız xanlığın müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizə aparmışlar. Bu səbəbdən də xanlığın Şirvan xanlığı adlandırılması düzgün deyildir.

Nadir şah Əfşarın yaratdığı imperiyanın dağılması ilə əlaqədar XVIII yüzilliyin ortalarında Köhnə Şamaxıda varlı ailədən olan Xançobanı tayfasının Sərkərlər nəslinin nümayəndəsi Allahverdi bəyin oğlanlarının, Yeni Şamaxıda isə Hacı Məhəmmədəlinin hakimiyyətə gəlməsi ilə ikihakimiyyətlilik əsasında Şamaxıda müstəqil xanlıq yaranır. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, Şamaxı xanları heç bir hakimə vergi ödəmirdilər. Bu isə Şamaxı xanlığının müstəqil olaraq yaranmasına əsaslı sübut ola bilər. Sərkərlər nəsli, Şamaxı xanlığının yaranmasında, həmçinin əvvəlki dövrlərdə də Şamaxıda siyasi qüvvə kimi özünü göstərə bilmişdir. 1721-ci ildə Hacı Davud Şirvanda üsyan qaldırarkən Şamaxını ələ keçirir və burada böyük nüfuza malik olan Sərkərlərin nümayəndəsini öldürür (89, 120). Çox güman ki, həmin nümayəndə Sərkərlər nəslindən olan Əsgər bəyin Allahverdi bəydən başqa digər övladlarından biri olmuşdur. Hadisələrin sonrakı gedişi göstərir ki, Hacı Davud Şamaxıda hakimiyyəti ələ keçirmək üçün türk sultanından kömək istəyir. Buradan belə nəticə çıxır ki, C.Zeynaloğlunun göstərdiyi kimi, Sərkərlər Səfəvilər dövründən Şamaxıda böyük nüfuza malik olmuşdular (58, 5). Elə Nadirqulu xanın Şamaxını dağıtmasının səbəbini də burada axtarsaq, bəlkə də, səhv etmərik. Lakin tarixi ədəbiyyatda bu dağıntının səbəbi başqa cür izah edilir ki, bu barədə növbəti fəsildə məlumat veriləcək.

Şamaxı xanlığında ikihakimiyyətliliyin mövcud olması haqda tarixi mənbə və ədəbiyyatlarda müxtəlif, əsasən bir-biri ilə uyğunsuzluq təşkil edən fikirlər mövcuddur. Məlumata görə, Yeni Şamaxıda hakimiyyəyi ələ alan Hacı Məhəmmədəli xan Zərnəvaini Nadir şahın vergi yığanı idi və eyni zamanda şah ordusunu ərzaqla təmin edirdi. Nadir Əfşar Köhnə Şamaxını dağıtdıqdan sonra Hacı Məhəmmədəlini Yeni Şamaxıya hakim təyin etmişdi. Digər bir məlumata görə isə Nadir şah oğlu Nəsurullah Mirzəni kiçik bir dəstə ilə burada hakimiyyətə qoymuşdu (64, 63). H.Abdullayevin yazdığına görə isə Nadir şahın dövründə Yeni

Şamaxıda Ərdəbil hakimi Məhəmməd xan hakimiyyətdə idi, sonra o qovulur, İbrahim şahın dövründə Məhəmmədəli xan hakimliyə sahib olur (59,100).

A.Bakıxanovun yazdığına görə: “Şamaxı əhalisi sursat təhvildarı olan Hacı Məhəmmədəli Sufi Nəbi oğlu Zərnəvaini hökumətə keçirdi. Xançobanı tayfasından olan Əsgər bəy Allahverdi bəy oğlu Sərkarın oğlanları isə Şirvan elatı arasında hakimiyyət bayrağı qaldırdılar (16, 62). İrana meyilli olan Hacı Məhəmmədəli xan yerli əhali üzərinə çoxlu, həm də nəzərdə tutulmayan vergilər qoyurdu. Yerli əhalinin Nadir şahın bu əlaltısına nifrət bəslədiyini (13, 412) nəzərə alsaq, A.Bakıxanovun yuxarıda Hacı Məhəmmədəli xan haqqında söylənilən fikri qeyri-qənaətbəxş hesab olunmalıdır. Çünki Nadir şahın daxili siyasətindən narazı olan əhali ilk növbədə onun vergi siyasətindən əziyyət çəkirdi. Bu mənada Hacı Məhəmmədəlinin Şamaxı əhalisi tərəfindən hökumətə keçirilməsi inandırıcı deyildir.

P.Butkov da, həmçinin Hacı Məhəmmədəlinin 1734-cü ildə Yeni Şamaxıya hakim təyin edildiyini göstərir. P.Butkovun məlumatlarında diqqəti cəlb edən digər bir fakt həmin ildə (1734 - N.B.) dağılmış Şamaxının ətrafındakı kəndlərə Allahverdi bəyin sahiblik etməsi fikridir (73, 247). Göründüyü kimi, P.Butkovun bu fikri A.Bakıxanovun yuxarıda qeyd etdiyimiz Xançobanı tayfasından olan Əsgər bəy Allahverdi bəy oğlu Sərkarın oğlanlarının Şirvan elatı arasında hakimiyyətə gəlməsi fikrini təsdiq edir.

Qeyd etdiyimiz kimi, Nadir şahın ölümündən sonra Köhnə Şamaxıda Allahverdi bəyin oğlanları – Məhəmmədsəid və Ağası xan öz hakimiyyətlərini möhkəmləndirmişdilər. Allahverdi bəyin oğlanlarının hakimiyyətə gəlmə tarixi haqqında müxtəlif məlumatlar vardır. S.Qmelinin verdiyi məlumata görə hələ Nadir şahın hakimiyyəti dövründə dünyasını dəyişən Allahverdi bəy ölümündən əvvəl sahib olduğu mülklərini oğlu Məhəmmədsəidə vəsiyyət etmişdir. Məhəmmədsəid isə atası öləndən sonra Köhnə Şamaxıya köçərək şəhərin yuxarı hissəsində salamat qalmış 15 evdə yerləşmişdi [(9, 91).

Dövrün digər bir mənbəsinin məlumatına görə isə Allahverdi bəy 1767-ci ildə vəfat etmiş və Günbəzlər qəbiristanlığında dəfn edilmişdir (61, V c, s. 1109) QAKA-nın verdiyi bu məlumatda Allahverdi bəyin ölümü ilə Məhəmmədsəidin hakimiyyətə gəlməsi tarixində bir uyğunsuzluq olduğunu izləmək mümkündür. Təbii ki, S.Qmelinin verdiyi məlumat tarixi hadisələrə daha uyğundur. Yuxarıda qeyd etdiyimiz kimi, Allahverdi bəy böyük mülklərə (həmin mülklər haqqında giriş bölməsində ətraflı məlumat verilmişdir) sahib olan bəy idi, xan deyildi, sağlığmda öz mülklərini oğlu Mohommədsəidə vəsiyyət etmişdir. Həmin mülkə holo Nadir şahın dövründə (59, 101) sahib olan Məhəmmədsəid şahın ölümündən sonra burada hakimiyyətə gəlmişdir. Mənbələrdə Məhəmmədsəid və qardaşı Ağasının Şamaxı xanları kimi 1748-ci ildən adları çəkilir (81; 16, 162). Nadir şahın ölümündən sonrakı ilk illərdə Köhnə Şamaxıda cərəyan edən hadisələrlə bağlı daha çox Allahverdi bəyin yaşca kiçik oğlu Ağarəzi bəyin (1735-1758)

fəaliyyəti qabardılır. C.Zeynaloğlu öz əsərində göstərir ki, Nadirin ölümündən sonra Sərkər oğullarından Əli Rza bəyi (Ağarəzi bəyi - N.B) Şirvanşahlar taxtına (Şamaxı xanlığına - N.B.) gətirdilər. Ondan sonra onun yerinə qardaşı Məhəmmədsəid (1758-1789) gəlir (58, 170]). Lakin dövrün digər mənbələri Ağarəzi bəyin Köhnə Şamaxıda xan olması fikrini təsdiq etmir. Fikrimizcə, qeyd olunan dövrdə cərəyan edən hadisələrdə Ağarəzi bəyin adının daha çox çəkilməsi onun hərbi şücaəti ilə bağlı olmuşdur. Belə ki, Ağarəzi bəyin şücaətli bir sərkərdə olması haqda A.Bakıxanov yazır: "1749-cu ildə şahsevənli Əhməd xan Köhnə Şamaxı şəhəri üzərinə hücum etdikdə Ağarəzi bəy onunla üzbəüz döyüşə girir və onun qardaşı Məhəmmədrza xanı öldürür. Əhməd xan özü intiqam almaq üçün meydana atılırsa da, Ağarəzi bəy tərəfindən bərk yaralanır, məğlub olub geri qayıdaraq şəhərin yarımağaclığında vəfat edir" (16, 163-164).

Daha sonra 1752-ci il hadisələrindən bəhs edən A.Bakıxanov yazır: "Gürcü knyazı II İrakli Azərbaycan xanlarını Gəncə yaxınlığında əsir edərkən Şəki hakimi Hacı Çələbi bu xəbəri eşidən kimi şücaət və igidliyi ilə Sərkar xanədanının hökmranlığına vasitə olan Ağarəzi bəylə ittifaq edib Gürcüstan valisinin üzərinə hücum etdi" (16, 163-164). Göründüyü kimi, A.Bakıxanov Ağarəzi bəyin Köhnə Şamaxıda xan olması fikrini deyil, onun qardaşlarının hakimiyyətdə möhkəmlənməsində bir vasitə olduğunu vurğulamışdı.

Şamaxı xanlığında ikihakimiyyətliliyin mövcud olması xanlığın mübarizə qüdrətinə mənfi təsir göstərirdi. Belə ki Şamaxı ərazisinə hücum edən qonşu xanlara qarşı birgə ittifaq yaratmaq mümkün olmur, bəzən ayrı-ayrılıqda mübarizə aparılır, bəzən isə bir-birinin əksinə hərəkətlər edilirdi. Məsələn: 1755-ci ildə Hacı Çələbi çox sayda qoşunla Şirvanı almaq məqsədilə gəlib Ağsu şəhərini mühasirə etdikdə Yeni Şamaxı hakimi Hacı Məhəmmədəli xan Quba hakimi Hüseynəli xandan kömək istədi. Hacı Məhəmmədəli ilə Hüseynəli xanın birləşmiş qüvvələri Hacı Çələbini məğlub edə bilirlər. Lakin 1758-ci ildə Qubalı Hüseynəli xanın ölümü ilə əlaqədar yaranan qarışıqlıqdan istifadə edən Ağarəzi bəy dərhal gedib Qubanın Bərmək mahalını qarət edir və 200 ailəni özü ilə götürüb gətirir. Buna cavab olaraq Fətəli xan Şamaxıya hərəkət edəndə Ağarəzi bəy onun qarşısına çıxır və şəhərin yaxınlığında məğlub edilərək öldürülür (16, 163-164). Göründüyü kimi, qeyd olunan mənbələrdə təsvir olunan hadisələrdə daha çox Ağarəzi bəyin adı çəkilir və onun hərbi bacarığı qabardılır. Tədqiqatçı G.Məmmədovanın əsərində isə Ağarəzi bəyin məhz qardaşı Məhəmmədsəid tərəfindən göndərilməsi faktı hadisələrə aydınlıq gətirməyə imkan yaradır. Müəllif Rusiya konsulu Çekalevskinin 1758-ci il 11 oktyabr tarixli məlumatına əsaslanaraq yazır: "Köhnə Şamaxı hakimi Məhəmmədsəid xan qardaşlarının rəhbərlik etdiyi hərbi dəstənin birini Qubaya, digərini isə Salyana göndərmişdi. Onlar az itki verərək Salyandan Yeni Şamaxıya, oradan isə Quba istiqamətində olan yolu ələ keçirmişdilər (104, 93). Bu bir daha qeyd olunan dövrdə Köhnə Şamaxıda hakimiyyətdə Ağarəzi bəyin deyil, qardaşları Məhəmmədsəid və Ağası xanın olmasını təsdiq edir.

İkihakimiyyətliliyin olmasına görə digər xanlıqlardan fərqlənən Şamaxı xanlığında bu vəziyyətə son qoyulmasının dəqiq tarixi ilə bağlı mənbə və tarixşünaslıqda mövcud olan fikirlər müxtəlifdir.

Tarixşünaslıqda Şamaxı xanlığında ikihakimiyyətliliyin 1748-ci ildən 1761-ci ilə kimi, (104, 94) bəzi hallarda isə bu vəziyyətin 1763-cü ilə kimi davam etdiyi göstərilir (36, 32). Lakin birinci variant daha həqiqətə uyğundur. Çünki 1761-ci ildən sonra Hacı Məhəmmədəlinin adına hakim kimi heç bir mənbədə rast gəlinmir.

Ümumiyyətlə, Hacı Məhəmmədəli xanın hakimiyyətdən devrilməsi haqda olan məlumatlar müxtəlifdir. S.Qmelin bu haqda qeyd edir ki, Məhəmmədsəid 1761-ci ildə Hacı Məhəmmədəlini məğlub edərək, təkhakimiyyətliliyə sahib olur, Köhnə Şamaxıya qayıdır və Yeni Şamaxıya isə naib təyin edir (79, 99). Tədqiqatçı H.Abdullayev isə Hacı Məhəmmədəlinin hakimiyyətdən devrilməsini Kərim xan Zəndlə mübarizədə məğlub olan urmiyalı Fətəli xanın sərkərdəsi Azad xan ilə bağlı olduğunu göstərir. Belə ki, məğlub olan Azad xan öz dəstələri ilə Gürcüstana, oradan isə Şamaxıya gəlir. Hacı Məhəmmədəli xan onu böyük sevinclə qarşılayır. Şamaxıda sığınacaq tapan Azad xan çox keçmir ki, yerli əhalini təhqir edərək incitməyə başlayır. Hacı Məhəmmədəli xan isə xalqın narazılığına baxmayaraq, bütün bunlara göz yumur və nəhayət, bu onun hakimiyyətdən devrilməsinə səbəb olur (59,102). S.Qmelinə əsaslanan tədqiqatçı E.Qarayev də bu fikri təsdiq edərək yazır ki, şəhər əyanları 1761-ci ildə Köhnə Şamaxıya-Məhəmmədsəid xanın yanına gələrək bildirdilər ki, Hacı Məhəmmədəli xan qanunlara əməl etmədiyindən, sərxoşluqla məşğul olduğundan onlar xana tabe olmaq istəmirdilər. Ona görə də onlar Məhəmmədsəid xana məsləhət gördülər ki, o, Yeni Şamaxını öz hakimiyyəti altına alsın (32, 107). Yaranmış əlverişli imkanı əldən verməyən Məhəmmədsəid xan qoşun toplayaraq Yeni Şamaxıya hücum edərək onu ələ keçirmişdi. Hacı Məhəmmədəli xan isə həbs edilərək xüsusi nəzarət altında Köhnə Şamaxıya göndərilmişdi. Bir ildən sonra o, burada 80 yaşında vəfat etmişdi. Yeni Şamaxını ələ keçirən Məhəmmədsəid xan isə yenidən Köhnə Şamaxıya qayıdır və Yeni Şamaxıya isə naib təyin edir (79, 99).

Xanlıqda ikihakimiyyətliliyin başa çatması ilə bağlı A.Bakıxanov yazır: "1765-ci ildə Əsgər bəyin (Allahverdi bəyin - N.B.) oğlanları Məhəmmədsəid xan və Ağası xan elat arasında vəkildən (Kərim xan Zənd nəzərdə tutulur - N.B.) xanlıq ləqəbi qazanıb, Ağsu şəhərini aldılar və Hacı Məhəmmədəli xanı öldürdülər (16, 165). Yuxarıda göstərdiyimiz tarixi faktlara istinadən deyə bilərik ki, A.Bakıxanovun Şamaxı xanlığında ikihakimiyyətliliyin başa çatması ilə bağlı olan bu fikirləri tarixi reallıqdan xeyli uzaqdır.

Sonda qeyd etmək istərdik ki, digər xanlıqlardan fərqli olaraq, Şamaxı xanlığında ikihakimiyyətliliyin mövcud olması xanlığın sonrakı tarixi mərhələlərində də öz siyasi nəticəsini göstərmişdi ki, bu barədə sonrakı bölmələrdə məlumat veriləcək. Təsadüfi deyil ki, xanlığın mərkəzi şəhəri olan Şamaxının ayrı-

ayrı dövrlərdə çiçəklənmə və ya tənəzzülü təkcə daxili sosial-iqtisadi amillərlə deyil, eyni zamanda aramsız müharibələrlə daha çox əlaqədar olmuşdur.

## 1.2. Şamaxı xanlığının idarə quruluşu və inzibati bölgüsü

XVIII yüzilliyin II yarısında eyni ictimai-iqtisadi quruluşa malik olan Azərbaycan xanlıqlarının əksəriyyətində, demək olar ki, inzibati-idarə aparatı eyniyyət təşkil edirdi. Azərbaycan xanlıqlarının inzibati-idarə quruluşu V.Leviatov, H.Abdullayev, A.Milman, E.Məmmədova tərəfindən tədqiq edilmişdi (101; 60; 107; 105). Lakin mahallar və onların sayı haqqında dəqiq məlumata rast gəlmirik. Ayrı-ayrı mənbə və tədqiqat əsərlərində öz əksini tapmış məlumatlara əsasən, Şamaxı xanlığının mahallarına dair yeni faktlar əsasında onların sayını dəqiqləşdirmək mümkündür.

Məlumdur ki, hakimiyyətdə irsilik prinsiplərinə əsaslanan Azərbaycan xanlıqlarının hər birini öz mülkündə tam müstəqil hakimiyyətə malik olan xanlar idarə edirdi. Bəzi xanlıqlarda Şəki, Quba, Qarabağ, o cümlədən Şamaxı xanlığında divan fəaliyyət göstərirdi. A.Fituninin göstərdiyinə görə xanlığın divanxanası Fitdağ qalasında yerləşirdi (123,97).

Divanda müharibə və sülh məsələləri, mülkü və məhkəmə işləri müzakirə edilirdi. Son qərar xana məxsus olurdu. Xanlıqları idarə etməkdə xanın şəxsiyyəti müəyyən rol oynasa da, bəzi xanlıqlarda feodalların xan üzərində təsiri çox güclü olmuşdur. Şamaxı xanlığında elə hallar olurdu ki, divanbəylərin xəbəri və məsləhəti olmadan xan hər hansı məsələni təkbaşına həll edə bilməzdi. M.Biberşteynin verdiyi məlumata görə Şamaxı xanları divanla məsləhətəşməmiş heç bir məsələni həyata keçirmir və bəylərdən ehtiyat edirdilər (70, 36). S.Bronevski də Şamaxı xanlarının divandan icazələri olmadan ciddi bir məsələ ilə məşğul olmaqdan ehtiyat etdikləri haqqında məlumat verir (71, 444) Əgər xan digər nüfuzlu şəxsiyyətlərdən xəbərsiz hər hansı bir qərar qəbul etsəydi, bu, dərhal onların narazılığına səbəb olardı. Bəzən onlar xanın qəbul etdiyi qərarla razılaşmırdılar. Buradan belə bir nəticə çıxarmaq olar ki, xan bütün hakim – feodal sinfinin mənafeyini həmişə qorumalı idi. Divan isə bu təbəqələrdən təşkil olunduğu üçün Şamaxı xanlığında divanın xan üzərində nüfuzu olmuşdur.

Məlumdur ki, bəzi xanlıqlarda xanlar şəhərləri də idarə edirdi, bəzilərində isə şəhərlərdə idarəçilik naib, qalabəyi, darğa və kələntərlərin əlində idi. Mustafa xanın dövründə Ağa Rəhim adlı bir nəfər Şamaxıya qalabəyi təyin olunmuşdur (23,58). Naiblər eyni zamanda vergilərin toplanması işini icra edirdilər. Bu işin icrası zamanı onlar vergilərin miqdarını özbaşınalıq edərək süni şəkildə artırırdılar. S.Qmelin bütün Şamaxı xanlığını Fətəli xanın adından idarə edən Abdulla bəyin özbaşınalıqlarından bəhs edərək yazırdı: “Xan şəhərdə olmayanda onun yerini naib

tutur. Bu vəzifəyə Fətəli xan Şamaxını tutduqdan sonra qardaşı Abdulla bəyi təyin etmişdi. Artıq bir ildir ki, xan Abdulla bəydən narazıdır” (79,97-98; 2, 79).

Dini vəzifələrə gəldikdə isə bu məsələ heç də bütün xanlıqlarda eyni dərəcədə əhəmiyyətə malik deyildir. M.Gülmalıyev göstərir ki, əhalisi müsəlmanlığın şiə məzhəbinə biət edən xanlıqlarda ruhanilərin başçıları şeyxülislam, sünni məzhəbinə biət edənlərinki isə qazi, yaxud müfti adlanırdı (25, 38). Xanlıqlarda sünni məzhəbində olan dindarlara rəhbərlik edən müfti vəzifəsi yox idi. Şamaxı xanlığında şəriət məhkəməsi fəaliyyət göstərsə də, çox güman ki, müfti vəzifəsi olmadığından burada baş qazi vəzifəsi də olmamışdı. Əhalisinin əksəriyyəti şiə məzhəbinə mənsub olan xanlıqlarda ruhanilərin sayı çox, əhalisi sünni olan xanlıqlarda isə ruhanilərin sayı nisbətən az idi. Ruhanilərin mövqeyi zəif olan, yaxud da xanın qüvvətli olduğu xanlıqlarda, o cümlədən Şəki və Şamaxı xanlığında ruhani rəhbərlərin, demək olar ki, heç bir səlahiyyətləri yox idi (28,161). Şamaxı xanlığında xan hər mahala bir və ya iki qazi təyin edirdi. Şəriət və məhkəmə işlərinə onlar baxırdılar (111, 29)

Xanlığın qoşunlarının ali baş komandanı xan özü idi. Qoşunun tərkibi xan qvardiyasından, maaf və nökərlərdən təşkil olunmuş qoşun dəstələrindən ibarət idi. Şamaxı xanları lazım olanda 3 minə qədər qoşun toplaya bilirdi (61, VII c, 327). Xanlığın qoşunu haqqında Suvorovun verdiyi məlumata görə isə lazım gələrdisə xan 4 min atlı dəstə toplaya bilirdi(110, 93). Ümumiyyətlə, əsərlərin təhlilindən məlum olur ki, Şamaxı xanlığının qoşunu haqqında müxtəlif fikirlər var. Belə ki, S.Burnaşevin verdiyi məlumata görə Məhəmmədsəid və Ağası xanın 2 min nəfərdən ibarət qoşunu var idi (72, 5). E.Məmmədova isə S.Burnaşevin həmin fikrinə etiraz edərək rus konsullarının 1765-ci ilə aid olan məlumatlarına əsasən göstərir ki, Şamaxı xanı 10 min nəfərlik qoşun toplaya bilərdi (105, 132-133). Bütün bu faktlara əsasən, belə qənaətə gəlmək olar ki, Şamaxı xanlığının həm daimi qoşunu olmuş, eləcə də lazım olduqda əlavə olaraq ehtiyat qüvvələr toplaya bilmişdi.

İnzibati cəhətdən digər xanlıqlar kimi Şamaxı xanlığı da mahallara bölünürdü ki, onun da mərkəzi idarə aparatı ilə yanaşı, hər mahalın da öz idarə orqanları var idi. Mahalları bəylərdən təyin olunmuş mahal naibləri idarə edirdilər. Mahal naibləri xanın müəyyən etdiyi vergiləri kənd icmaçıları arasında bölür, vergi verməkdən boyun qaçıranları vergiləri ödəməyə məcbur edir, lazım gələndə kəndliləri qoşuna səfərbər edir, müharibə və yürüş zamanı onlara komandanlıq edir, mahalın sərhədlərini qoruyurdular (2, 28-29).

Tarixşünaslıqda Qarabağ, Şəki və s. xanlıqların mahallarının sayı haqqında məlumat verildiyi halda, Şamaxı xanlığının mahallarının sayı haqqında dəqiq məlumatlar əldə etmək çox çətindir. Bunun obyektiv səbəbi isə Şamaxı xanlığı ilə qonşu xanlıqlar arasında ərazi toqquşmalarının ənənəvi hal alması ilə bağlı olmuşdur. Təsadüfi deyildir ki, dövrün səyyahı M.Biberşteyn öz əsərində “ən zəngin xanlıq” adlandırdığı Şamaxı xanlığını təbii sərvətlərinə görə digər

Azərbaycan xanlıqlarından fərqləndirmişdi (70, 16). Bu səbəbdəndir ki, Şamaxı xanları Salyan, Xançobanı və digər sərhəddə yerləşən mahalları ələ keçirmək istəyən qonşu Quba, Qarabağ və Lənkəran xanlıqları ilə intensiv olaraq mübarizə aparmışdı. Buna görə də xanlığın mahallarının inzibati sərhədləri sabit qalmamış, tez-tez dəyişikliyə uğramış, bu isə xanlığın mahallarının, bura daxil olan kənd və obaların sayı haqqında məlumatların əldə olunmasında çətinliklər yaratmışdı.

Xanlığın qonşu xanlıqlarla münasibətlərində ərazi toqquşmaları ənənəvi hal almışdı. Şamaxı xanları Salyan və Xançobanı mahallarını ələ keçirmək istəyən qonşu Quba, Qarabağ və Lənkəran xanlıqları ilə mübarizə aparmalı olmuşdu. Bu mənada Şamaxı xanlığına daxil olan mahallar və onların sayı haqqında olan məlumatlara aydınlıq gətirməyi (112) daha vacib hesab edirik. Yalnız, "Şirvan əyalətinin təsviri"nə əsaslanan V.Umudlu Şamaxı xanlığının 17 mahaldan ibarət olduğunu qısa şəkildə olsa da göstərmişdi (45, 21).

İqtisadi-siyasi, hərbi-strateji cəhətdən böyük əhəmiyyətə malik olan Şamaxı xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra da həmin mahallar eyni adla saxlanılmışdrr (6,siy.l, iş l). Yəni xanlığın inzibati idarə quruluşunda dərhal dəyişiklik edilməmişdi. Şamaxı xanlığının inzibati quruluşunda ciddi dəyişiklik olunmamasının, Mustafa xanın xanlıq statusunun ilk əvvəl ləğv edilməməsinin səbəblərindən biri onun Rusiyaya qarşı açıq müqavimət göstərməməsi ilə bağlı ola bilərdi. Fikrimizcə, digər əsas səbəb isə Şamaxı xanlığının əlverişli coğrafi mövqeyi və çarizmin buraya olan iqtisadi və siyasi maraqları ilə daha çox bağlı idi.

Maraqlıdır ki, 1820-ci ildə Şamaxı xanlığının statusu ləğv edildikdən sonra Şirvan əyalətinə çevrilən xanlığın ərazisində mahalların sayında yenə də dəyişiklik edilməmişdir. Yalnız 1831-ci ildə Xasayurt, Salyan, Qarabağlar, Nəvai mahalları çox güman ki, ərazilərinin kiçik olması ilə əlaqədar olaraq, birləşdirilmiş və mahalların sayı 13-ə endirilmişdir (4, siy.l,səh.346).

Ümumiyyətlə, mənbələrdə xanlığın bəzən Şirvan, bəzən Şamaxı adlandırılması, Salyanın gah Quba, gah da Şamaxı xanlığının tərkibində olması da xanlıqda olan mahalların sayının dəqiqləşdirilməsində çətinlik yaradır. Rudbar mahalı xanlığın işğalından sonra (1805) ayrıca mahal kimi verildiyi halda, xanlıq dövründə Salyanın tərkibində 13 kənddən ibarət olan mahal kimi göstərilmişdir (69).

XVIII yüzilliyin 90-cı illərinə qədər xanlığın mahallarının sayı 15-ə çatmışdır. Salyan mahalı və onun tərkibində olan Rudbar mahalı Quba xanlığının tərkibində olmuşdur. Qubalı Fətəli xanın ölümündən sonra (1789) Quba xanlığının zəifləməsi ilə əlaqədar olaraq, Şamaxı xanlığı yenidən müstəqil olmuş və həmin mahallar Mustafa xan tərəfindən Şamaxı xanlığının tərkibinə daxil edilmişdir. Həmin dövrdən etibarən xanlığın mahallarının sayı 17-yə çatmışdır. F.Ağamalı isə Salyan mahalının Quba xanlığının tərkibində daimi olmadığını qeyd etmiş və Şamaxı xanlığının 16 mahala bölündüyünü göstərmişdir (2, 54).

XVIII yüzilliyin 90-cı illərindən etibarən Şamaxı xanlığında mövcud olmuş müxtəlif oba və kəndlərin daxil olduğu 17 mahalın adı, kimə məxsus olması, yerləşdiyi coğrafi ərazi, əhalisinin əsas məşğuliyyəti və s. məsələlərə aydınlıq gətirmək üçün arxiv materiallarına (6,siy.3; 4,siy.l) istinad edərək onları olduğu kimi təqdim etməyi məqsədəuyğun hesab edirik. Xanlıqlar dövrünə aid sənədlərdə, mahalların adlarının hamısı verilmədiyi üçün göstərdiyimiz sənədlərə əsasən mahalların ümumi mənzərəsini verməyə cəhd göstərmişik.

I. 24 kəndin daxil olduğu **Salyan mahalı** Şamaxı xanı Mustafa xanın xüsusi mülkiyyətində olmuşdur. Hacı Zeynalabidin Şirvani "Büstan-üs-siyahə" əsərində göstərirdi ki, "Salyanın şərq və cənub tərəfi Gilan (Xəzər - N.B.) dənizinə bitişikdir. Onun bir tərəfi Kür çayına və Muğan səhrasına yapışıqdır, uzunluğu 20 fərsəxə, eni isə təqribən 10 fərsəxə bərabərdir. İki minə qədər ev vardır" (42, 1270). 1824-cü il məlumatına əsasən, Salyanın əsas kəndləri Arbatan, Marışlı, Salyan, Bayat, Sarvan, Qızılağac olmuşdur. Həmin kəndlərin hamısı Qızıl balıq tutmaqla məşğul olmuşlar (24[a], 58). Qızılağac lənkəranlı Mir Həsən xanın qardaşı Məmməd bəyə məxsus olmuşdur. Qızılağacda yaşayan 30 ailə 1805-ci ildə Lənkəran xanlığının ərazisindən buraya gəlmişdir. Arbatan Salyan mahalının əsas mərkəzi idi. Qaramanlı kəndi Mustafa xanla İrana keçən Mirzə Abdulla bəyə və Əhmədbəyli Məmmədəli oğluna məxsus olmuşdur. Mənbələrdə Salyan mahalında 1400-dən çox ailənin olması qeydə alınmışdır (6,siy.1,1-9). Salyanın balıq ticarətindən gələn gəlirdən Rusiya-Həştərxan tacirləri Şamaxı xanlığına 40-50-min rubl məbləğində pul ödəyirdilər. Onların balıq vətəgələri Kür çayının cənubunda yerləşirdi. Bundan əlavə, Salyan əhalisi də balıq ticarətindən Şamaxı xanına ödənc verirdi (71, 157). Salyanın yol kənarında olan üç kəndindən əhali duz toplayırdı. Yığılan duzun gəlirləri Mustafa xanın həyat yoldaşı Surxay xanın (Qazıqumuxlu - N.B.) qızı Paxay Bikəyə məxsus olmuşdur (4,siy.l 4).

II. Kür çayının sağ sahilində yerləşən **Muğan** mahalı 16 kənddən ibarət olmuşdur. Mahal Həsən xana, sonra əmisi oğlu Mustafa bəyə məxsus olmuşdur. Mustafa xanın məcburən İrana keçməsindən sonra mahalın əhalisinin bir hissəsi Lənkəran xanlığının, bir hissəsi isə Qarabağ xanlığının ərazisinə getmişdir. Bu mahala Saatlı, Melday, Mollaveysli, Həşimxanlı və s. kənd və obalar daxil idi. Muğan mahalına daxil olan kəndlərin əhalisi, demək olar ki, rəncbərlik edir, pambıqçılıqla məşğul olurdular (4,siy.l, 28).

III.**Rudbar mahalına** Cavad, Kovratlı, Meynimənd, Axtacı kəndləri daxil idi. Əhalinin çox hissəsi tut bağlarında çalışırdılar, ipəkçilik və pambıqçılıqla məşğul olurdular (4,siy.l, 15).

IV.Müasir dövrdə İsmayıllı, Ağsu, Kürdəmir və Şamaxı rayonlarının ərazisini əhatə edən **Xançobanı mahalı** "qərbdə Girdiman çayı ilə, şərqdə Ağsu çayı ilə həmsərhəd olmuşdur" (76, 48). Xançobanı mahalına Veysəlli, Mərzili, Alpout, Gorus, Dəlilər və s. adlı kənd və obalar daxil idi. Bu mahala daxil olan Mərzili obası İsmayıl bəyə (Mustafa xanın qardaşına - N.B.) məxsus

olmuşdur. Onlar Qarabağdan gəlmə olduqları üçün torpaqları yox idi. Xançobanı əhalisi rəncbərlik edir və əsasən maldarlıqla məşğul olurdular. Şamaxı xanları Xançobanı mahalından olduqları üçün bu obaların əhalisinə vergi təyin etməmişdilər. Bunun əvəzində Xançobanı mahalının sakinləri Mustafa xana onun tələb etdiyi qədər qoyun verirdilər. Sonralar bu cür vergi qaydası çar məmurlarını qane etmədiyindən 1820-ci ildə mahalın əhalisi üzərinə pulla ödənilən vergi qoymuşdular (4,siy.l, 4).

V.**Lahıc mahalına** Lahıc, Ximran, Dahar, Həftəsov, Əhənli kəndləri daxil idi. Lahıc mahalı Mustafa xanın oğlu Cəfərqulu ağaya məxsus olmuşdur. Əkinçiliklə məşğul olan əhali xana və onun oğluna məhsulun 1/10-i qədər vergi ödəyirdilər. Yeri gəlmişkən qeyd edək ki, əhalinin hamısı əkinçiliklə məşğul olmadığından malcəhət vergisini hamı ödəmirdi. Əhalinin əksəriyyəti silah istehsalı və misgərliklə məşğul olurdu. Silah istehsalı ilə məşğul olanlar vergi əvəzinə Mustafa xana və oğlu Cəfərqulu ağaya ildə 100 tüfəng və tapança verirdilər. Əhali dərğaların xeyrinə isə xüsusi dərğalıq adlanan vergi ödəyirdi (112, 237).

VI.Ərazicə kiçik olan **Qarabağlar mahalına** Qarabağlar, Kürd, Poti, Xoşabad kəndləri daxil idi.

VII.Müasir dövrlə müqayisə etdikdə Ağsunun bir hissəsini, Şamaxı və Qobustan rayonlarının ərazisini əhatə edən **Qoşun mahalı** “Ağsu çayı ilə Pirsaat çayının yuxarı axarı boyunca yerləşirdi” (76, 48). Qoşun mahalına Qalabuğurd, Nüydi, Ərçiman, Sündü, Mabur, Mədrəsə və s. kəndlər daxildir. Mahalın əhalisi, əsasən əkinçiliklə məşğul olurdu.

VIII.Ərazicə kiçik olan **Nəvahi mahalına** Muğanlı, Nəvahili, Kusi kəndləri daxildir. Nəvahi mahalında da əhali, əsasən əkinçiliklə məşğul olurdu.

IX.**Həsən mahalı** Göyçay çayı ilə Girdiman çayı arasında yerləşirdi (4,21;6,siy.l, 39). Mahala Diallı, Yuxarı İsmayıllı, Gülyan, Müskürlü, Vəlibinə, Kirki və s. kəndlər daxil olmuşdur. Mahalın əhalisi, əsasən əkinçilik və sənətkarlıqla məşğul olurdu. Kirki kəndinin əhalisi, əsasən misgərlik, boyaqçılıq, dəmirçilik və başmaqçılıq kimi sənətkarlıq sahələri ilə məşğul idilər. Bu kənddə yaşayan 25 ailə Qarabağdan gəlmə idi (76, 48). Bu kənd Mustafa xanın həyat yoldaşı Kiçkinə xanıma məxsus olmuşdur.

X.**Qarasubasar mahalına** Şilyan, I Ləki, II Ləki, Əlvənd, Muradxan, Xələc, Zərdab, Çallı və s. kəndlər daxil idi. Mahalın əhalisinin çox hissəsi əkinçiliklə məşğul olurdu. Xələclilərin bir hissəsi 1801-ci ildə Şəkiyə qaçmış, sonra yarısı geri qayıtmışdır. Şilyan əhalisi tut bağlarında çalışır, pambıq sahələrində işləyirdilər. Muradxanlılar da əkinçilik və pambıqçılıqla məşğul olurdular (76, 48). Muradxan kəndi Mustafa xanın qardaşı İsmayıl bəyə məxsus olmuşdur.

XI.**Xozayurt mahalına** Haputlu, Şıxlı, Qalınçax, Xanağalı, Mican kəndləri daxildir. Xanağalılar Qubadan gəldiyi üçün onların öz torpaqları yox idi. 1806-cı ildə xan onların heç kimə məxsus olmadığı haqqında təliqə imzalamışdı.

XII.Müasir dövrlə müqayisədə Ağsu, İsmayıllı və Şamaxı rayonlarının ərazisini əhatə edən **Houz mahalına** Basqal, Sulut, Zərnəva, Alpout, Müsüslü, Sarsura, Şəbian, Bilistan və s. kəndlər daxil olmuşdur. Mahalın əhalisi, əsasən əkinçiliklə məşğul olurdu. Houz mahalı Mustafa xanın qohumu Xancan, Mərdan və Mehdi bəyə məxsus olmuşdur (4, siy.l,iş 84, s. 18).

XIII.Müasir dövrlə müqayisədə Qobustan, Şamaxı və Hacıqabul rayonlarının ərazisini əhatə edən **Qəbiristan mahalı** "Pirsaat çayının hər iki sahilində Şamaxıdan şərq və şimali-şərq istiqamətində yerləşirdi" (76, 48). Bu mahal 1820-ci ilə kimi Mustafa xanın digər həyat yoldaşı Pəricahan xanıma məxsus olmuşdur. Baxmayaraq ki, o Mustafa xandan ayrılaraq Muğanda yaşamışdır. Mahala Poladlı, Mərəzəli, Qurbançı, Qubalı Baloğlan, Qubalı Bəşir, Yekəxana İbrahim və s. adlı kənd və oba daxil olmuşdur. Mənbədə bu mahala dair 27 tayfa adı göstərilir (6,siy.l, 42).

XIV.**Bölükət mahalına** Ağsu, Kürdəmir, Qarasaqqallı, Külüllü, Ağrı, Kəngərli, Növsü, Binəcik, Daraqlı, Şahməzin və s. kəndlər daxildir.

XV.**Əkərət mahalına** İncə, Kürdmaşı, Yekəxana, Qaraməryəmli, Qaradakka və Seyidsaatlı kəndləri daxil olmuşdur.

XVI.**Sərdərin mahalının** qərb sərhədləri Göyçay çayı ilə həmsərhəddir (76, 48). Bərgüşad, (1819-cu ilə kimi Ömər Sultanın övladlarına məxsus idi) Qarabucaq (1819-cu ilə kimi Mustafa xanın həyat yoldaşı Paxay Bikəyə məxsus olmuşdur) Şixəmir, Hacıəli, Molla Hacılı, Məlikkənd, Xəlilli, Ərəb, Şəkər, Mırtı, Alpout, Muğanlı, Köçəkənd, Yenikənd, Güləbəd və s. obalar daxil idi.

XVII.**Elat mahalına** Bayat, Qacar, Ucarlı, Quşçu, Çaxırlı, Xınışlı, Qarabağlar, Şamlı, Paşalı və s. obalar daxil idi.

Bundan əlavə, mənbədə Elat mahalında yaşayan 23 tayfanın adı çəkilir.

1820-ci ildə Şamaxı xanlığının xanlıq statusu ləğv edilən kimi əhali çar Rusiyasının məmurları tərəfindən siyahıya alınmışdır (4, siy. 1. sən. 346, 347, 382). Həmin siyahıda ailələrin ümumi sayı ilə bərabər, vergi verənlərin vergi ödəməyənlərin sayı göstərilmişdir. Göstərilən ailələrin sayına əsasən Şamaxı xanlığının mahallar üzrə əhalisinin sayını təxminən cədvəl üzrə belə göstərə bilərik.

| **Əhalinin sayı** | **Mahallar** |
|---|---|
| 10000 | Salyan |
| 5500 | Muğan |
| 2110 | Rudbar |

| | |
|---|---|
| 7460 | Xançoban |
| 1870 | Lahıc |
| 510 | Qarasubasar |
| 44835 | Qoşun |
| 6640 | Navahi |
| 22055 | Həsən |
| 33205 | Houz |
| 55860 | Qəbristan |
| 8800 | Əkərət |
| 66050 | Sərdərin |
| 1500 | Bölükət |
| 5080 | Elat |
| 4075 | Qarasubasar |

Səhifə 148-də olan cədvəldən göründüyü kimi, Şamaxı xanlığının mahallarının tərkibində kəndlərlə bərabər obaların da olması xanlığın inzibati quruluşunun dəqiq müəyyən edilməsində bir sıra çətinliklər yaradır. Oturaq əhalidən fərqli olaraq, köçmə maldarlıqla məşğul olan obalar məşğuliyyət sahələrinə görə yerlərini tez – tez dəyişirdilər. Bu səbəbdən mahalların inzibati quruluşunun müəyyən olunması, mahallara daxil olan kənd və obaların dəqiq sərhədlərinin cızılması qeyri – mümkündür.

## 1.3. Sosial – iqtisadi vəziyyət: şəhərlər, sənətkarlıq və ticarət

**Sosial – iqtisadi vəziyyət:** XVIII yüzilliyin II yarısı Azərbaycanın sosial – iqtisadi və siyasi tarixində mühüm mərhələni təşkil edir. Feodal istehsal münasibətlərinin hakim olduğu xanlıqlar dövründə də cəmiyyətdə iki sinif: hakim feodallar və onlardan müxtəlif asılıqda olan kəndli təbəqələri mövcud olmuşdur.

Xanlar hakim feodallar içərisində birinci pillədə idilərsə, bəylər, ağalar sonrakı pillədə əsas yer tuturdular (25, 33). Ən ali hakim zümrə sayılan xanların xanlıq hüququ isə irsi xarakter daşıyırdı.

Xandan sonra ikinci pillədə sayca daha çox olan və ali zümrənin əsas hissəsini təşkil edən bəylər dayanırdı. Azad silkin digər nümayəndələri kimi bəylər də heç bir vergi ödəmirdilər. Bəylər üç qismə bölünürdülər:

1) hakim sülalə nəslindən olan bəylər
2) köklü bəylər
3) bəy adını və hüququnu alanlar (2, 112).

Bəylərin əsas vəzifəsi ondan ibarət idi ki, onlar öz hesablarına xana hər cür xidmətə hazır olmalı idilər (2, 28). Bəylərin vəziyyəti bütün xanlıqlarda, o cümlədən Şamaxı xanlığında eyni deyildi. Belə ki, Şamaxı xanlığında bəzən bəylər idarə etdikləri kəndlərin müqabilində xana tabe olmaq istəmirdilər. Xan bu silkin nümayəndələrindən yalnız müti olmağı tələb edir, yumşaq rəftara çalışır, onların qədim hüquqlarını pozmağa cəsarət etmirdi. Xan bəylərdən öz mənafeyinə uyğun istifadə etməyə çalışır, bəylər isə öz növbəsində hakimiyyəti əllərində saxlamağa can atırdılar, buna görə də çox vaxt onlar müstəqilləşirdilər. Xan isə həmin bəylərin onun hakimiyyəti altından tamamilə çıxa biləcəklərindən ehtiyat edərək, onlara toxunmurdu (2, 116). Müəllifin fikrinə aydınlıq gətirərək qeyd edək ki, xan əsasən ikinci kateqoriyaya məxsus bəylərlə - köklü bəylərlə məhz belə münasibət qurmağa çalışırdı.

Ümumiyyətlə, xanlıqlarda feodal təbəqəsinə daxil olan zümrələr müxtəlif təsnifata bölünür. Belə ki, Şamaxı xanlığında hakim sinfi əsasən əyanlar – yəni xanlar, ağalar, bəylər, bəyzadələr və maaflar təşkil edirdi. Şamaxı xanlığında maaflar özləri iki təbəqəyə, maaflara və nökərlərə bölünürdülər (89, 150). Maaf rütbəsini əvvəllər xan satırdı. Maaflar xan ordusunun əsas hissəsini təşkil edirdi, onlar, hər hansı bir vergi verirdi, üstəlik xandan hədiyyələr – at, silah alırdılar. 1805-ci ildə Mustafa xan Xançobanı mahalına daxil olan Padar obasında Kərim Abdulla oğluna və Allahverdi Feyzulla oğluna, 1813-cü ildə isə Dəmir Mustafa oğluna maaf rütbəsini vermişdir (4, siy. 1, sən. 335, 11).

Maafların vergi və mükəlləfiyyətdən tam azad olması üçün xan "təliqə" deyilən sənəd verirdi (118, 70). Hesab edirik ki, maafların vergi və mükəlləfiyyətlərdən azad olması heç də onların feodal təbəqəsinə mənsub olmasını göstərmir. Çünki xan bunun əvəzinə onları hərbi xidmətə səfərbər edirdi.

F. Ağamalı göstərir ki, Şamaxı xanlığında da kəndlilər 2 təbəqəyə: rəiyyət və rəncbərə bölünürdü. Rəiyyətlər kəndlilərin çox hissəsini təşkil edirdilər. Rəiyyətlərin feodalın təhkimlisi olub – olmaması barədə tarixşünaslıqda müxtəlif fikirlər mövcuddur. Həmin fikirlərdən biri bundan ibarətdir ki, xanlıqlar yarana qədər sahibkar rəiyyəti öz istədiyi kimi bir yerdən başqa bir yerə köçürə bilməzdi. Xanlıqlar dövründə isə sahibkarın arzusu ilə bu iş görülə bilərdi. Verilən məlumatı Mustafa xanın vaxtilə Qarabağdan Şamaxıya qaçıb özünə sığınacaq tapan rəiyyət ailələrinin yenidən Qarabağa qayıtması barədə verdiyi fərmanı (2, 136) bir daha təsdiq edir.

Mənbələrin verdiyi məlumata görə rəncbərlərin heç nəyi yox idi, onlar heç bir vergi ödəmir və mükəlləfiyyət daşımırdılar. Bu təbəqə ya dövlət, ya da xan torpaqlarında çalışırdı (118, 71). Şamaxı xanlığının Musabəyli kəndində Cəfər bəyin 8 rəncbər ailəsi olmuşdur. Onlar ipəkçiliklə məşğul olur, gördükləri işin müqabilində əldə etdikləri məhsulunun yarısını alırdılar (5, 42). Xanlığın Salyan mahalında isə 38 rəncbər ailəsi var idi (25, 53). Rəncbərlər xanın verdiyi təliqə əsasında feodalın təsərrüfatına təhkim edilirdi.

Digər xanlıqlarda olduğu kimi, Şamaxı xanlığında da divan – dövlət torpaqları, xassə, mülk, tiyul, vəqf və camaat torpaq mülkiyyəti formaları mövcud olmuşdur. Həmin dövrdə xanlıqda ən iri torpaq sahibi xan və xan nəslinin nümayəndələri idilər. Xana və xan ailəsinə məxsus olan torpaqlar xas adlanırdı. Təkcə Salyan mahalında Mustafa xana məxsus olan 25 mülk var idi ki, bu mülklərdə 1400 ailə yaşayırdı (25, 57).

Ümumiyyətlə, xanlıqlar dövründə divan torpaqları ilə xas torpaqları arasındakı sədd getdikcə aradan qalxmış və hamısı xan torpaqları adlanmışdı (2, 176).

Şamaxı xanlığında torpaq mülkiyyətinin digər geniş yayılmış formalarından biri də mülk idi. Mülk xüsusi xidmət müqabilində xan tərəfindən bəylərə və digər şəxslərə verilən torpaq mülkiyyət forması idi. Xanlığın ərazisində olan mülkədarların və onların mülklərinin sayı haqqında dəqiq məlumat olmasa da, XIX yüzilliyin əvvəllərində tərtib olunmuş “Şirvan əyalətinin təsviri”ndən verilən məlumatlar əsasında müəyyən təsəvvür yaratmaq olur. Həmin mənbəyə əsaslanan M. Gülmalıyev qeyd edir ki, xanlıqda Qasım bəy adlı mülkədarın 314 rəiyyət və 91 rəncbər ailəsini özündə birləşdirən 15 kəndi var idi. Bundan başqa, Qasım bəyin 70 tut bağı, 31 meyvə və üzüm bağı, 680 tağarlıq çəltik əkin yeri, 2 dəyirmanı var idi (25, 57). Mülk sahibliyi irsi idi. Belə ki, girişdə qeyd etdiyimiz kimi, Nadir şahın dövründə xeyli torpaq mülkünün sahibi olan Allahverdi bəyin mülkiyyətinə onun vəsiyyətinə əsasən, oğlu Məhəmmədsəid irsi olaraq sahib olmuşdur.

Ümumiyyətlə, xanlıqlar dövründə Azərbaycan ərazisində vahid siyasi hakimiyyətin olmaması üzündən vahid torpaq fondunun olmadığı bir şəraitdə dövlət torpaqları üzərində ali mülkiyyətçilik bütün ölkənin əvəzinə ayrı – ayrı xanlıqların hüdudları çərçivəsində məhdudlaşmırdı.

Xanlıqların əhali yaşayan və yaşamayan torpaqlarının böyük hissəsi taxıl, çəltik və pambıq əkinlərindən ibarət iri təsərrüfatları, tut, meyvə və üzüm bağları, yay və qış otlaqları, təsərrüfat tikililəri, əkinçilik və bağçılıq alətləri, iri malqara və qoyun sürüləri, at ilxıları, xəzinə təsərrüfatından götürülən və vergi kimi yığılan müxtəlif növ kənd təsərrüfatı məhsulları xanın daşınmaz və daşına bilən mülkiyyətini təşkil edirdi (1, 27 -28). 1820-ci il siyahıyaalma materiallarına əsasən Şamaxı xanlığında 198 kənd və 148 köçdə, 10578 oturaq kəndli və maldar ailəsi qeydə alınmışdı. Həmin 198 kənddən 137-si və yaxud 69,2% -i feodal torpaq sahibliyinin payına düşürdü ki, bu kəndlərdə bütün kəndli ailələrinin 57,5% -i və yaxud 6090 ailə (4489-u vergi ödəyən, 1601-i vergi ödəməyən) yaşayırdı. Həmin kəndlərin sakinləri xan xəzinəsinə natural və pul vergiləri ödəyir və bir sıra mükəlləfiyyət yerinə yetirirdilər (4 siy.1, iş 84, 1-129; 1, 36).

Şamaxı xanlığında xan xəzinəsinə məxsus sayılan 67 kənddə (bütün kəndlərin 30,8%-i) bütün kənd ailələrinin 4488-i, yaxud 42,5%-i cəmlənmişdi. Beləliklə, Şamaxı xanlığında xəzinəyə məxsus torpaq fondunun xüsusi çəkisi feodal torpaq sahibliyinə nisbətən aşağı idi. Qeydə alınan 148 köçün (bəzi qaynaqlarda elat) 44-ü və ya 30%-ə yaxını feodalların sahibliyində, 104-ü və ya 70%-dən çoxu isə xan xəzinəsinin ixtiyarında idi (4, 24; 1, 37).

XVIII yüzilliyin II yarısında, demək olar ki, bütün torpaqlar yerli – feodalların - xanların əlinə keçir. E. Poxomovun qeyd etdiyinə görə XVIII yüzilliyin sonuna yaxın əhalinin sayının artmasına görə torpaq azlığı hiss olunurdu (115, 4).

Qonşu Quba və Şəki xanlıqlarında xan xəzinəsinin torpaq fondu üstünlük təçkil etmişdisə, onlardan fərqli olaraq, Şamaxı xanlığında xüsusi feodal torpaq sahibliyi üstünlük təşkil etmişdi.

Feodal pərakəndəliyi, daxili çəkişmələr, çoxsaylı gömrük rüsumları, hər bir xanlığın özünün pul vahidinin olması, ölçü, çəki sisteminin müxtəlifliyi, vergi və rüsumların toplanmasının tez – tez iltizama verilməsi kimi faktorlar xanlıqlarda sənətkarlıq və ticarətin, bütövlükdə iqtisadiyyatın inkişafına xeyli ziyan vurmuşdur. XVIII Yüzilliyin II yarısında, demək olar ki, bütün Azərbaycan xanlıqları, o cümlədən Şamaxı xanlığında da daxili çəkişmələr, hakimiyyət dəyişikliyi, xarici təcavüzə qarşı hərbi toqquşmalar nəticədə həm əhalinin sayına, həm də iqtisadi inkişafa öz mənfi təsirini göstərmişdir (107, 28). Hətta xanlığın mərkəzi Şamaxı şəhərinin iqtisadi cəhətdən tənəzzülü hələ XVIII yüzilliyin 30-cu illərindən - Nadir xanın şəhəri dağıtmasından başlamışdı. Şəhər iki dəfə - 1734 və 1743-cü illərdə Nadir şah tərəfindən dağıdılmışdı. Nadir şahın qoşunları o qədər dağıntılar törətmişdi ki, özləri belə azuqəsiz qalmışdı (23, 37). Bütün bu dağıntılara baxmayaraq, tədqiqata cəlb etdiyimiz mənbə və ədəbiyyatlar əsasında deyə bilərik ki, XVIII yüzilliyin II yarısında Şamaxı şəhəri yenidən dirçəlmiş, onun təsərrüfat həyatında həmişə müəyyən canlanma müşahidə olunmuşdur.

Şamaxı xanlığında kənd əhalisinin başlıca məşğuliyyəti əkinçilik olub, əsasən buğda, arpa və çəltik əkirdilər (96, 103).

Kəndlilərin ödədiyi vergilər: Şamaxı xanlığının xeyrinə 20-yə yaxın müxtəlif adda vergi toplanılırdı. Bunlar əsasən aşağıdakılar idi:

1) töycü – pul vergisi olub, 6 min çevron həcmində alınırdı,
2) xərac – torpaq vergisi olub, pulla ödənilirdi
3) cüt başı – pul vergisi idi, hər xışa görə adambaşına 60 qəp. dəyərində ödənilirdi.
4) malcəhət – 1/10 vergi növü idi, məhsula görə alınırdı.
5) qulluq - xanın mirzəsi üçün yığılan pul vergisi idi.
6) darğalıq – darğalar üçün gah pul, gah da natura şəklində yığılan vergi növü idi.

Bundan əlavə, xanın xeyrinə 6 min çevron miqdarında töycü ödənilirdi. Köçəri tayfalardan yağ, pendir, xalça və s. şəklində alınan natural vergi, ipək məmulatına görə adam başına 60 qəp. miqdarında alınan vergi, malcəhət toplayanlar üçün də 60 qəp. məbləğində vergi toplanırdı. Mustafa xanın dövründə Kür çayından tutulan balığa görə isə ildə 700 rubl ödəyirdilər (69, 287).

Şamaxı şəhərində 1000 ailə yaşayırdı. Hər ailə ildə 100 rubl xana vergi ödəyirdi. Subaylar 1 rubl 20 qəp. vergi ödəyir, yeniyetmə gənclərdən isə heç bir vergi alınmırdı. Bu vergiləri xanın qərarı ilə mirzələr yığırdı (79, 96).

Daha sonra kəndlilər xanın xeyrinə müxtəlif mükəlləfiyyətlər də yerinə yetirirdilər. İlin müəyyən olunmuş günlərində 3 gün müddətinə xanın torpağında kəndli işləməli, həmçinin kanalların çəkilişində də işləməli idi (118, c. I, II hissə, 30-31).

Şəhər əhalisi də kəndlilər kimi vergi verməli idi. Şəhər əhalisindən vergi pul və məhsulla toplanırdı. Şəhər vergiləri özünün ağırlığı ilə heç də kənd təsərrüfatı vergilərindən geridə qalmırdı. Yeni Şamaxının əhalisindən ildə xanın xeyrinə 15.510 manat vergi toplanırdı (23, s.29).

Digər xanlıqlar kimi Şamaxı xanlığının da iqtisadi həyatı siyasi hadisələrlə sıx bağlı olmuşdur. Xanlığın iqtisadi həyatında ipəkçilik xüsusi yer tuturdu. Mustafa xanın qardaşı İsmayıl bəyin idarə etdiyi Əlvənddə ipək daha çox olurdu (120, 519).Şamaxı xanlığının Bərgüşad, Qarasaçlı, Şıxəmir, Şəkili, Qaziyan, Bığı, Çaxırlı və s. kəndlərində də əhalinin xeyli hissəsi ipəkçiliklə məşğul olurdu (2, 39).

Xanlığın aran torpaqlarında, həmçinin Şamaxı şəhərində və Salyanda ipəkçiliklə - barama istehsalı ilə və tütünçülüklə məşğul olurdular. Xanlıqda 70-ə qədər tut bağı olan bəylər var idi. Qasım bəyə məxsus olan həmin bağlar xanlığın Sərdərin mahalında yerləşirdi (25, 21).

Nadir şah Şamaxı şəhərini dağıtdıqdan sonra bir müddət ipək istehsalı tənəzzül edir, lakin əsrin ortalarında yenidən canlanma müşahidə olunur. Bu dövrdə Şamaxıda 1500 toxucu dəzgahı olmuşdur (101, 53). C. Mustafayev isə bir rus zabitinin məlumatına istinadən göstərir ki, Şamaxıda 1000 toxucu dəzgahı var

idi (36, 39). Şamaxının Basqal və Mücü kəndləri ipək parça istehsalı mərkəzi idi. Təsadüfi deyil ki, Şamaxı xanlığının gəliri daha çox ipək istehsalından olmuşdur. Şamaxıdan ipəyi İrana, Türkiyəyə, Rusiyaya ixrac edirdilər. S. Qmelin qeyd edirdi ki, Məhəmmədsəid xanın dövründə ipək ticarəti çiçəklənmə dövrü keçirirdi, lakin Fətəli xanın dövründə Şamaxı şəhərində bir neçə rus və hind tacirindən başqa bir nəfər də olsun əcnəbi tacir yox idi (79, 101).

Şamaxıda pambıq parça istehsalı da müəyyən yer tutur, ipəkçiliklə əlaqədar olaraq boyaqçılıq, xüsusilə fərqlənirdi. Şamaxıdan Salyan vasitəsilə İrana marena boyaq bitkisi aparılırdı (79, III c., II h., 696). Xanlığın aran yerlərində az da olsa pambıqçılıqla məşğul olurdular (70, 27). Xanlığın aran hissəsi dağ çayları ilə suvarılırdı. Ümumiyyətlə, aran yerlərində süni suvarma sistemindən geniş istifadə olunurdu. Şamaxı yaxınlığında Pirsaat çayından suvarma məqsədilə üç arx çəkilmişdi. Belə arxlardan Xanarxı, Qoşqar arxını xüsusilə qeyd etmək olar (2, 223).

Xanlığın aran yerlərində tut bağları ilə yanaşı, meyvə bağları salınmış, burada bağçılıq və üzümçülüklə məşğul olurdular. Xanlığın Xozayurt və Sərdərin mahallarında meyvəçilik, Gürcüvan və Mədrəsə kəndlərində isə üzümçülük daha çox inkişaf etmişdi (111, 135).

Şamaxı xanlığında, xüsusən də onun dağlıq hissəsində geniş surətdə maldarlıqla da məşğul olurdular. Dağlıq hissədən fərqli olaraq, onu düzənlik yerlərində qoyunçuluqla çox az məşğul olur, əsasən iribuynuzlu heyvan saxlayırdılar. Cüzi də olsa burada dəvəçilik də inkişaf etmişdi (25, 21).

Bununla belə, daxili çəkişmələr nəticəsində təsərrüfat həyatı əvvəlki əsrlərlə müqayisədə XVIII yüzilliyin sonunda tənəzzül keçirirdi. Ancaq bu dövrdə iqtisadi inkişafın heç olmadığını demək düzgün deyil.

**Şəhərlər, sənətkarlıq və ticarət:** Xanlıqlar dövründə də şəhərlər sənətkarlığın əsas mərkəzi olmuşdur. Müstəqil xanlıqların meydana gəlməsi ilə əlaqədar olaraq, ayrı – ayrı xanların iqamətgahlarına çevrilən şəhərlərin hərbi cəhətdən müdafiəsinə diqqət verilirdi. Xanların, bəylərin və digər iri torpaq sahiblərinin iqamətgahları, adətən belə şəhərlərdə yerləşirdi (36, 20).

İkihakimiyyətlilik əsasında yaranan Şamaxı xanlığının da inzibati mərkəzləri olan həm Köhnə Şamaxının, həm də Yeni Şamaxının sənətkarlıq mərkəzi kimi əhəmiyyəti haqqında mənbə və tarixşünaslıqda müəyyən qədər məlumat verilmişdir. Həmin məlumatları ümumiləşdirərək xanlığın ərazisində sənətkarlığın inkişafı haqqında ümumi təsəvvür yaratmaq məqsədəuyğun olardı.

Əsərlərin təhlili nəticəsində Şamaxı xanlığının şəhərlərinin mərkəz kimi təsnifatını vermiş olsaq, Məhəmmədsəid xanın dövründə daha çox Köhnə Şamaxının çiçəklənmə dövrünü yaşaması qənaətinə gəlmək olar (36, 33). Şəhərlərin inzibati cəhətdən idarəsini asanlaşdırmaq üçün xanlar şəhərləri məhəllələrə bölmüşdülər. Hər bir məhəllənin kəndxuda və ya şəhərbəyi simasında başçısı olurdu. Onlar vergi toplayır, naiblərin və xanların sərəncamlarını icra

edirdilər (23, 57). Köhnə Şamaxı S. Qmelinin verdiyi məlumata görə doqquz məhəlləyə bölünürdü. Bunlar 1 – Yuxarı qala; 2 – Sarıtorpaq; 3 – Qala – Bazar; 4 – Yəhudi məhəlləsi; 5 – İmam məhəlləsi; 6 – Meydan məhəlləsi; 7 – Şahpəri məhəlləsi; 8 – Gilan dibli məhəlləsi; 9- Nar ağacı məhəlləsindən ibarət olmuşdur (79, III c., 95).

Belə ki, mənbələrə istinad edən C. Mustafayevin qeyd etdiyinə görə ticarət və sənətkarlığa himayədarlıq edən Məhəmmədsəid xan ipəkçiliyin inkişafına xüsusi qayğı göstərirdi. Onun dövründə şəhərdə 9 məhəllə və min ev var idi (36, 33).

Qeyd etməliyik ki, Şamaxı xanlığının inzibati mərkəzlərinin sənətkarlıq baxımından inkişaf dərəcəsi ayrı – ayrı dövrlərdə şəhərlərin dağıntılara məruz qalması ilə, əhalinin köçürülməsi ilə bağlı olmuşdur. Həmin dağıntılar həm siyasi hadisələrlə, həm də təbii fəlakətlə bağlı olmuşdur. Belə ki, 1734-cü ildə Köhnə Şamaxı şəhərinin əhalisinin Nadir Əfşar tərəfindən, xanlıqlar dövründə isə qubalı Fətəli xan tərəfindən əvvəl Yeni Şamaxıdan Köhnə Şamaxıya, sonra Köhnə Şamaxıdan yenidən Ağsu şəhərinə köçürülməsi həmin şəhərlərdə sənətkarlığın müntəzəm inkişafına öz mənfi təsirini göstərmişdi. Bu zaman çoxlu sənətkar və tacirlər həmin köçürmədən kənarda qalmamışdı.

1796-cı ildə burada olmuş M. Biberşteyn isə dəhşətli zəlzələ nəticəsində şəhərin tamamilə dağılmasını xəbər verərək Şamaxını əhalinin yaşamadığı bir şəhər kimi təsvir edir (36, 34).

1792-ci ildə Mustafa xan hakimiyyətə gələrkən Köhnə Şamaxı şəhəri dağıdıldığı üçün xan paytaxt şəhər kimi Yeni Şamaxını seçmişdir.

1795-ci ildə Ağa Məhəmməd xan Qacar Şamaxı xanlığına yürüş edərkən məhz Yeni Şamaxıya yürüş etmiş və böyük dağıntılar törətmişdi. Şəhərdə həmin dövrdə 4-5 min nəfər əhali yaşayırdı (70, 22).

Əsərlərin təhlilindən məlum olur ki, Şamaxı xanlığı Quba xanlığının tərkibində olarkən xanlığın mərkəzi şəhər rolunu daha çox Yeni Şamaxı oynamışdısa, Mustafa xanın hakimiyyəti dövründən isə inzibati mərkəz rolunu Fitdağ qalası oynamışdı. Belə ki, bir tərəfdən İran, digər tərəfdən isə rus ordusunun hücumu nəticəsində Yeni Şamaxının müdafiəsinin mümkünsüz olduğunu başa düşən Mustafa xan xanlığın paytaxtını Fitdağ qalasına köçürür (123, 124-125; 36, 37). Bir neçə məhəllədən ibarət olan Fitdağ orta əsr şəhərlərinə məxsus olan bütün atributlara malik idi. Şəhərdə çoxlu sənətkar emalatxanaları tikilmişdi, 10 min nəfərdən çox əhali yaşayırdı (36, 38).

Böyük dağıntı və fəlakətlərə, köçürmələrə baxmayaraq Şamaxıda yaşayan əhalinin əsas məşğuliyyəti sənətkarlıq idi. Başqa şəhərlərdə olduğu kimi, Şamaxıda da sənətkarların cəmləşdiyi əsas mərkəz bazar və karvansaralar idi. XIX yüzilliyin əvvəllərində Şamaxı bazarlarında və karvansaralarında sənətkar emalatxanalarının sayı 500-ə çatırdı (36, 39).

Bu dövrdə kənd sənətkarlığı da mövcud idi. Xanlıqlar dövründə kənd sənətkarlarının iri sənətkarlıq mərkəzlərinə - şəhərlərə axını getdikcə güclənirdi. Yaşadıqları yerdə istehsal etdikləri məhsullara müştəri tapmaqda çətinlik çəkən kənd sənətkarları daha çox şəhərlərdə işləməyə üstünlük verirdilər. Belə ki, Şamaxı xanlığının Elat mahalında yerləşən Bozavand kəndində qeydə alınmış 19 nəfər toxucunun hamısı Şamaxı şəhərində yaşayırdı. Həmin sənətkarların Şamaxı şəhərinə köçməsi 1760-cı ildən başlanmış, Mustafa xanın hakimiyyəti dövründə isə daha geniş miqyas almışdı (36, 67).

Həmin dövrdə sənətkarlığın ən geniş yayılmış növü toxuculuq idi. Xanlığın Qarasaçlı, Şıxəmir, Qazıyan, Bərgüşad və s. kəndlərində çoxlu ipəksarıyan dəzgahlar fəaliyyət göstərirdi. Şamaxı ipəyi özünün keyfiyyətinə görə digər xanlıqlarda istehsal edilən ipəkdən üstün idi (36, 70). Qeyd edək ki, toxucu dəzgahları xanlıqların özündə hazırlanırdı. Məsələn, Şamaxı xanlığının Mücü kəndində müxtəlif parçalar və ipək mallar toxumaq üçün dəzgahlar düzəldilirdi. İpək toxuculuğu ilə Basqal kəndi xüsusilə fərqlənirdi (2, 82 - 83).

Boyaq bitkilərinin zənginliyi və toxuculuğun yüksək dərəcədə inkişafı xanlığın ərazisində boyaqçılıq sənətinin geniş yayılması üçün əlverişli şərait yaradırdı. Digər xanlıqlardan fərqli olaraq, boyaqxanalar Şamaxı xanlığının bütün ərazisində yayılmışdı. Xanlığın Qalaqayın kəndindəki boyaqxana Mustafa xanın özünə məxsus olmuşdu (36, 102).

Şamaxı xanlığında pambıq parça toxumaqla da məşğul olurdular. Burada paltar, köynək, yorğan üzü və s. üçün bez və pambıq parçalar toxuyurdular (111, 117).

Xanlıqlar dövründə sənətkarlıq istehsalının aparıcı sahələrindən biri xalçaçılıq idi. Həmin dövrdə xalçaçılıq tədricən ev sənəti səviyyəsində daha çox sifariş əsasında işləyən sənət sahəsinə çevrilməyə başlanmışdı. Digər xanlıqlarda olduğu kimi Şamaxı xanlığında da xan bir çox vergiləri xalça və palazla toplayırdı. Belə ki, Mustafa xanın hakimiyyəti dövründə Şamaxı xanlığının Xançobanı mahalının, demək olar ki, bütün kəndlərindən, xüsusilə Axtaçı, Padar, Kulam, Məlik, Çobani, İlxıçı, Kürd və s. hər il sursat vergisi əvəzində bir və ya iki xalça, palaz toplanılırdı. Həmçinin Elat mahalının bir çox kəndlərində, Qəbiristan mahalının bəzi kəndlərində də sursata vergisi əvəzinə xalça və palaz toplanırdı. Qəbiristan mahalının Qaracaüzlü Təklə, Mirzə Baba, Mərəzəli kəndlərində isə ildə 4-5 xalça və palaz toplanırdı (4, siy. 1. Iş 84, 49 - 108).

Xanlığın ərazisində geniş yayılmış sənət sahələrindən biri də gön – dəri emalı – dabbaqlıq idi. İri sənətkarlıq mərkəzləri olan Lahıcda 20, Basqalda 6 dabbaq fəaliyyət göstərirdi (36, 105).

Sənətkarlıq mərkəzi kimi Şamaxıda isə 64 gön – dəri ustası – dabbax var idi. Dabbaxlar qoyun, keçi, inək, at dərisini aşılayırdılar (2, 84), 61 başmaqçı fəaliyyət göstərirdi (4, siy.1, iş 349). Düzdür, verdiyimiz məlumat 1831-ci il siyahıyaalmaya əsaslanır. Həmin sənətkarların yaşını nəzərdən keçirərkən onların

30-50 yaş arasında olduğunu müəyyənləşdirmək olar ki, həmin sənətkarların sayını elə xanlıq dövrünə də aid edə bilərik.

Xanlıqlar dövründə sənətkarlığın mühüm mərhələlərindən birini metal emalı təşkil edirdi. Bu sahədə dəmirçilik, misgərlik və silah istehsalı, xüsusilə fərqlənirdi. Şamaxı xanlığında silahqayırma başlıca olaraq üç mərkəzdə - Şamaxıda, Ağsuda və Lahıcda mərkəzləşmişdi. Ağsu, xüsusilə, soyuq silahlar istehsalı və müxtəlif növ silahların təmiri üzrə ixtisaslaşmışdı. İri sənətkarlıq mərkəzi olan Lahıcdan Mustafa xan və oğlu Cəfərqulu ağa hər il vergi əvəzinə ya pulsuz, ya da çox ucuz qiymətə 100-ə qədər tüfəng və tapança alırdılar (36, 114).

Şamaxı xanlığının təsərrüfat həyatının inkişafı, eyni zamanda ticarətin inkişafını şərtləndirirdi. Xanlığın paytaxtı Şamaxı şəhəri sənətkarlıq mərkəzi olmaqla yanaşı, həm də böyük ticarət mərkəzi idi. S. Solovyovun təbirincə desək Şamaxı əhalisi sanki ticarət üçün yaranmışlar (121, 171). Burada gəlmə tacirlərin gecələməsi üçün doqquz karvansara var idi. **Monoqrafiyada** Şamaxı xanlığında ticarətin inkişafını qonşu dövlətlərlə ticarət əlaqələri kontekstində təqdim etməyə çalışmışıq. Şamaxıda həm daxili ticarətin, həm də xarici ticarətin inkişaf etdiyini arxiv materialları təsdiq edir və göstərilir ki, yerli tacirlərin çoxunun xeyli kapitalı var idi (82, 179).

F. Ağamalı arxiv sənədlərinə istinad edərək qeyd edir ki, Şamaxı şəhərində ətraf yerlərdən və qonşu torpaqlardan gətirilmiş mallar alınır, müxtəlif ipək və pambıq parçalar hazırlanır, düyü və qızıl boya ilə birlikdə dəvə karvanlarına, atlara və öküzlərə yüklənib Bakıya aparılırdı (2, 105).

Qeyd etdiyimiz kimi, Şamaxı xanlığının İranla, Rusiya ilə geniş ticarət əlaqələri var idi. Hələ XVIII yüzilliyin əvvəllərindən rus tacirləri Şamaxıda intensiv olaraq ticarət edir, özləri ilə gətirilən mallara dəyişirdilər (62, 59). Köhnə Şamaxıda ticarət xüsusən genişlənmişdi.İpək ticarəti zamanı rəhdar və digər daxili gömrük haqqı alınırdı. Altı pud ipək üçün alınan gömrük haqqı 4 rubl 75 qəp. təşkil edirdi (111, I c., 126 - 127). Həştərxan ilə ticarət quru yol ilə aparılırdı. Şamaxı ipəyinin 1 pudu 25 çevron olmuşdur (111, II c., 70). Quba ipəyi keyfiyyətinə görə Şamaxı ipəyindən aşağı idi. İpək parça istehsalı ən çox Köhnə Şamaxıda idi. Burada ipəkçiliyin inkişafı digər xanlıqlarda ipək istehsalının həcminin azalmasına səbəb olmuşdur. Bir metr eni, on metr uzunu olan ipək parçanın qiyməti 4 rubl 50 qəpik olmuşdur (111, II c., 398). C. Bel Şamaxıda tacirlərin, əsasən xam ipəklə və pambıqla ticarət etdiyini göstərirdi. Tülkü dərisi bu sahədə daha məşhur idi. Bu barədə fransız missionerləri yazmışlar: "Ev heyvanlarından başqa meşələrdə çoxlu vəhşi donuz, maral, tülkü, canavar vardı. Şamaxıda xeyli tülkü dərisi satılırdı. Bu dərilər alınıb Həştərxana və Ərzuruma aparılırdı"(32, 93).

Xanlıqlar dövründə qızıl pulların buraxılması haqqında mənbələrdə heç bir məlumat yoxdur. Dövriyyədə olan qızıl pullar isə, əsasən Rusiya, Türkiyə, İran və Hollandiya mənşəli idilər (36, 128). Bununla belə, Şamaxı, Gəncə, Şəki abbasiləri də dövriyyədə olmuşdur (107, 41). M. Abdullayevin Azərbaycan xanlıqlarının

aqrar münasibətlərinə dair tədqiqatında isə 1 manat 60 qəpik Şamaxı pulunun 1 rus gümüş manatına bərabər tutulduğu qeyd olunur (1, 36).

Şamaxı xanlığında pul sistemindəki müxtəliflikdən istifadə edərək, bəzən saxta pullar meydana gəlirdi. Yəqin ki, elə buna görə də tacirlər Şamaxıya gətirdikləri malları çox zaman pula satmayıb, digər məhsula dəyişirdilər. Müasirlərdən birinin yazdığına görə "bir xanlıqdan digərinə nə qədər tez çatsan, gətirilən pulun nöqsanı bir o qədər tez üzə çıxardı" (36, 128).

Rusiyadan İrana və Hindistana, yaxud əks istiqamətdə mal aparan tacirlər çox zaman Bakı və Niyazabad limanları vasitəsilə Şamaxıya gəlir, burada mal mübadiləsi aparırdılar. Bakıdan Tiflisə gedən yol Şamaxıdan keçdiyi üçün Şamaxının ticarət dövriyyəsində oynadığı misilsiz rol inkaredilməzdir (89, I hissə, 67). S. Zevakin Şamaxının hələ XVI – XVII yüzilliklərdə Rusiyanın İranla ticarət əlaqəsinin mərkəzi olduğunu göstərirdi (87, 4). 1721-ci ildə isə Fransa sarayına xarici və rus ticarətində Şamaxı ipəyinin əsas rol oynadığı haqqında məlumatlar çatırdı (106, 70).

Şamaxı ticarəti öz əhəmiyyətini XVIII yüzilliyin II yarısında da saxlayırdı. Xanlıqlararası daxili çəkişmələr təsərrüfata böyük ziyan vursa da, Şamaxı xanlığının ticarət əlaqələrinə, xüsusən Rusiya ilə ticarət əlaqələrinə ciddi zərbə vurmamışdır. Həmin dövrdə Şamaxıda çoxsaylı manufakturalar olmuşdu.

Şamaxı tacirləri Ərdəbil, Rəşt, Ənzəli və İsfahanda da ticarət edirdilər. Şamaxıya İsfahandan və Kaşandan pambıq və ipək parçalar – zərbaf, kaşani, şilə və s. gətirilirdi (2, 105). Şamaxıdan isə Həştərxana ipək göndərilirdi. C. Forsterin 1780-ci illərə aid məlumatından aydın olur ki, Şirvandan gündəlik 400 ton ipək Həştərxana göndərilirdi (124, 7). Təbii ki, Şirvandan göndərilən ipəyin çox hissəsi Şamaxı xanlığının payına düşürdü. Şamaxı və Dərbənddən keçən karvan 8 – 10 gündən sonra Həştərxana çatırdı. Şamaxı xanlığı, həmçinin Dərbəndi də müxtəlif çeşidli ipək parçalarla təmin edirdi. Dərbənddən isə buraya mahud parça, (65, c. II, 690) zəfəran gətirilirdi. S. Qmelinə görə yığım vaxtı zəfəranın bir pudu 100 rubla satılırdı (79, 21). Şamaxı xanlığının Bakı xanlığı ilə daha sıx ticarət əlaqəsi olmuşdur. Şamaxının əlverişli coğrafi mövqeyi Azərbaycanın Şimal – Şərq hissəsində ticarət mərkəzi kimi müxtəlif tacirlərlə geniş ticarət aparmaq imkanı verirdi. Şamaxıdan Bakıya quru yol ilə çox sayda məhsul – ipək parçalar, meyvə qurusu, üzüm şərabı, düyü, oradan isə Həştərxana və digər liman şəhərlərinə aparılırdı (92, 63).

XVIII yüzilliyin 70-ci illərində Şamaxı xanlığının Osmanlı dövləti ilə ticarət əlaqələri, demək olar ki, qırılmışdı. Təbii ki, bu 1768 – 1774-cü illərdə baş vermiş Rusiya – Osmanlı müharibəsində ikincinin məğlubiyyəti ilə əlaqədar olaraq, onun Cənubi Qafqaz siyasətinin zəifləməsi ilə bağlı olmuşdur.

Siyasi çəkişmələr Şamaxı xanlığının nə daxili, nə xarici ticarətinə artıq dərəcədə mənfi təsir göstərməmişdir. Belə ki, xam ipək mərkəzi olan Şamaxı şəhəri nə qədər dağıntılara məruz qalsa da xam ipək, əsasən kəndlərdə hazır

edildiyindən ipək ticarəti tənəzzülə uğramamışdı. Şamaxı xanlığında ipək o qədər çox olmuşdur ki, onun çox hissəsinin ölkənin müxtəlif şəhərlərində fəaliyyət göstərən fabriklər tərəfindən alınmasına baxmayaraq hər il 2000 puddan çoxu Rusiyaya ixrac edilirdi (36, 118).

Şamaxı xanlığında daxili ticarətin inkişafını bilavasitə, "Şirvan əyalətinin təsviri"ndə (112, 9-12) də izləmək mümkündür. Bu sənədə görə Şamaxı xanlığında daxili ticarətdə Şamaxı xanlarının xeyrinə ödənilən vergi növləri aşağıdakılardır:

1. Rəhdarı – bazara mal gətirən tacirlərdən alınırdı.
2. Mizan - mal bazarda mizan tərəzisində ölçüldükdən sonra onun ağırlığından asılı olaraq ticarətdən alınan vergi idi.
3. Darğalıq – bazar darğasının xeyrinə hər növ tacirdən alınan vergi idi (112, 9 - 16).
4. Damğa pulu - bazarda satılan bütün malların satışını qanuniləşdirmək üçün malların möhürlənməsinə görə tacirlərin ödədiyi məbləğ idi.
5. Biyan pulu – biyan mənfəətli ticarət məhsulu olduğu üçün müştərisi çox olurdu, müştərisi çox olduğuna görə onu satanlar biyan pulunu ödəyirdilər.
6. Gülfətti – pambıqdan bez toxuyan sənətkarlardan alınan vergi idi (112, 16). Parça toxuyan dəzgaha görə 20 qəp., bu vergini toplayan üçün isə əlavə olaraq 10 qəp. pul toplanırdı (36, 206). Sənətkarlardan alınan vergilər haqqında C. Mustafayevin adı çəkilən əsərində xeyli məlumat verilmişdir. Həmin vergilərdən daha çox diqqəti cəlb edən sənətkar və tacirlərdən toplanan, mənası hələlik tam aydın olmayan "kulek" adlı vergi idi (36, 208).
7. Sərnar – mal – qara satanlardan ildə 2500 man. dəyərində alınırdı.

Zərdab, Cavad və Əlvənd kəndlərindən keçərək Şamaxıya mal aparan tacirlərdən də xüsusi vergi alınırdı. Bundan başqa, nalbəndlərdən ildə 250 man, Şamaxı şəhərindəki dükanlardan 50 man., tənbəki satanlardan ildə 1000 man. vergi alınırdı.

# II FƏSİL

# ŞAMAXI XANLIĞININ QONŞU XANLIQLARLA VƏ DAĞISTAN HAKİMLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ

## 2.1. Şamaxı xanlığının qonşu xanlıqlarla münasibətləri

Nadir şah Əfşarın yaratdığı imperiyanın dağılmasından sonra yaranan siyasi gərginlik bütün Azərbaycan xanlıqlarına, o cümlədən Şamaxı xanlığına da öz təsirini göstərirdi. Azərbaycan torpaqlarının vahid dövlətdə birləşməməsi, feodal pərakəndəliyi, natural təsərrüfatın üstünlüyü, Azərbaycan xanlıqları arasında baş verən daxili çəkişmələr onların mədəni, iqtisadi və siyasi inkişafına mane olurdu. Azərbaycan xanlıqlarının bir – biri ilə qarşılıqlı siyasi əlaqələri gərginliklə, ziddiyyətlərlə, çox vaxt isə qanlı müharibələrlə, bəzi xanlıqların isə bir – biri ilə münasibətləri, bəzən dostluq, müttəfiqliklə müşayiət olunurdu.

Keçmiş Şirvanşahlar dövlətinin mərkəzi hissəsini əhatə edən Şamaxı xanlığı mühüm iqtisadi rayonları əhatə etməklə xeyli maddi ehtiyyata və strateji əhəmiyyətə malik idi. Bunun isə tarixi kökləri var idi. Belə ki, uzun müddət minillik tarixə malik Şirvanşahlar dövlətinin paytaxtı, daha sonra Şirvan bəylərbəyliyinin mərkəzi olmuş Şamaxı şəhəri göstərilən dövrdə də həm ticarət, həm də iqtisadi baxımdan özünün üstünlüyünü qoruyub saxlaya bilmişdi. Hətta Nadir şah tərəfindən dağıdıldıqdan sonra belə, Şamaxı Azərbaycanın ən mühüm iqtisadi mərkəzlərindən biri idi.

Köhnə Şamaxının Nadir şah tərəfindən dağıdılmasının subyektiv səbəbi I fəsildə təqdim edilmişdir. Şəhərin 1734-cü ildə dağıdılmasının tarixşünaslıqda məlum olan obyektiv səbəblərindən biri belə izah edilir ki, şəhər düşmən üçün çox açıq idi (81, 49), buna görə də yeni bir şəhərin salınması – Köhnə Şamaxıdan 20 verst aralıda Yeni Şamaxının əsasının qoyulması vacib idi. Şamaxı uzun müddət Şirvanda baş verən üsyanların mərkəzi olduğu üçün və həmin dövrdə də Nadir şaha qarşı əhalisi müqavimət göstərdiyi üçün şəhər yerlə – yeksan edilir, əhalisi isə Ağsuya köçürülür. Bu məsələ ikinci obyektiv səbəb kimi tarixşünaslıqda öz əksini tapmışdı.

Şamaxı şəhərinin dağılmasının digər səbəbi fransız dilindən tərcümə olunmuş mənbədə belə izah edilir ki, Surxay xan Nadirqulu xanın Kürü keçməsinə mane olmaq istəyir, lakin Surxay xanın dəstəsi onun hücumuna tab gətirmir. Daha sonra müəllif qeyd edir ki, bu zaman Şamaxı şəhərinin müdafisəi çox zəif idi. Qala divarlarının bir hissəsi keçən əsrdə baş verən zəlzələ nəticəsində dağılmışdı (94, 238 - 239). Şübhəsiz ki, Nadirqulu xan şəhəri dağıdaraq əhalini Yeni Şamaxıya köçürərkən məhz Şamaxının müdafiə mövqeyinin zəif olmasını nəzərə almış və

eyni zamanda burada ona qarşı çıxa biləcək qüvvələrin yenidən fəallaşmasına şərait yaratmamaq üçün müqavimət göstərməyən əhalini Yeni Şamaxıya köçürmüşdü.

Həmin mənbəyə istinad edərək daha bir açıqlama verməyi vacib hesab edirik. Belə ki, həmin mənbədə osmanlıların 1732-ci ildə Şamaxını tutması haqqında məlumat var (94, 232). 1733-cü ildə imzalanmış Bağdad sülhünə görə osmanlılar heç də işğal etdikləri əraziləri tərk etmirlər. V. Leviatovun verdiyi məlumata görə Nadirqulu xan 1733-cü ildə Araz çayı sahilinə gələrək qışı orada keçirir. Lakin müəllif həmin məlumatı verərkən heç bir mənbəyə istinad etmir. 1734-cü ilin avqustunda Şamaxıya yürüş edir və şəhəri dağıdır (101, 101). Buradan belə nəticəyə gəlmək olar ki, Nadirqulu xan Şamaxıdan Surxay xanı qovmaqla, əslində onun dəstək aldığı osmanlıları qovaraq şəhəri dağıdır. Dağıdılmış şəhəri yenidən bərpa etməyi vacib hesab etməyən Nadirqulu xan yeni şəhər salmaqla kifayətlənir.

S.R.Kişmişevin məlumatına görə Nadirqulu xan Türkiyə ilə müharibə aparanda Şamaxı əhalisi Surxay xana tabe idi və o, Nadirqulu xan ilə düşmən idi. Qışın gəlişi ilə əlaqədar Surxay xan Dağıstana gedir və Nadirqulu xan onu cəzalandıra bilmədiyi üçün qisasını Şamaxıdan alır, şəhərdə daşı – daş üstə qoymayan xan şəhərin əhalisini Mərkəzi Asiyada və İranda qul kimi satır, özü isə 1735-ci ilin dekabrında Muğana çəkilir. Müəllif şəhərin dağıdılmasını 1734-cü ildə yox, 1735-ci ildə göstərir (98, 95).

İ. Lerx göstərir ki, yeni şəhər hündür qala divarları ilə əhatə olunmuşdur, ancaq xanın evi daşdan tikilmişdir, qalan tikililər gildən inşa edilmişdir. Şəhərdə üç karvansara (102, II hissə, 61), 6000 nəfər əhali, ipək istehsal edən müəssisə (89, I hissə, 95), şimal, qərb və cənubdan qapıları var idi (82, 164). Bu şəhər də 1743-cü ildə eyni səbəbdən alt – üst edilir. İstər Köhnə, istərsə də Yeni Şamaxı şəhərləri dəfələrlə dağıdıcı basqınlara məruz qalmışdı. F. Əliyev öz gözəl abidələri, binaları, bazar və dükanları ilə bütün Yaxın Şərqdə şöhrət tapmış Köhnə Şamaxının XVIII yüzilliyin II yarısında gözəllik etibarilə özünün keçmiş şöhrətini itirməsinin səbəbini məhz bu dağıntılarda olduğunu göstərirdi (23, 37). Xarabazarlığa çevrilməsinə baxmayaraq, XVIII yüzilliyin II yarısında əvvəlki həyatını bərpa edən şəhər yenidən səyyahların diqqətini cəlb edir. Çox maraqlıdır ki, səyyahlar hansı Şamaxının - Köhnə, yoxsa Yeni Şamaxının inkişaf etdiyini ayrıca göstərmirlər. Mənbələrdə Məhəmmədsəid xanın dövründə - XVIII yüzilliyin 60-cı illərində Şamaxının (Köhnə - N. B.) iqtisadi həyatında, xüsusilə ipəkçilikdə yenidən canlanma baş verdiyi göstərilir. Heç şübhəsiz ki, qubalı Fətəli xan da 1769-cu ildə Köhnə Şamaxının daha çox iqtisadi və ticarət əhəmiyyətli olduğunu nəzərə alaraq Ağsu əhalisini Köhnə Şamaxıya köçürmüşdü.

Digər xanlıqlardan fərqli olaraq, ikihakimiyyətlilik əsasında yaranan Şamaxı xanlığının qonşu xanlıqlarla münasibətlərinin əsas istiqamətlərini nəzərdən keçirdikdə onun siyasi fəaliyyətinin əsasını öz müstəqilliyini qoruyub

saxlamaq uğrunda mübarizə təşkil edir. Xanlığın qonşu xanlıqlarla münasibətlərini təxminən iki dövrə bölmək olar:

- Şamaxı xanlığının yaranmasından 1792-ci ildə Mustafa xanın hakimiyyətə gəlməsinə kimi;
- XVIII yüzilliyin sonundan 1820-ci ildə Şamaxı xanlığının Rusiya tərəfindən tamamilə ləğv edilməsinə kimi.

XIX yüzilliyin əvvəllərində Azərbaycan xanlıqları arasındakı münasibətlərdə Rusiyanın fəallığı daha da artdığı üçün həmin dövrdə Şamaxı xanlığının qonşu xanlıqlarla münasibətini, həmçinin növbəti – III fəsildə xanlığın Rusiya ilə münasibəti kontekstində verməyi də münasib hesab etdik.

Şamaxı xanlığında ikihakimiyyətliliyin yaranmasının ilkin şərtlərinin təhlilinə birinci fəsildə toxunduğumuz üçün bu məsələnin üzərində bir daha dayanmayacağıq. Yalnız onu demək kifayətdir ki, əlverişli coğrafi mövqeyinə, ticarət və sənətkarlığın inkişaf etməsinə baxmayaraq, Şamaxı xanlığı ilk dövrlərdə hərbi cəhətdən qüvvələrini lazımi səviyyədə birləşdirə bilməmişdi. Buna səbəb xanlıqda ikihakimiyyətliliyin mövcud olması və feodal ara müharibələri olmuşdu.

Şamaxı xanlığının hərbi – siyasi vəziyyətinə dair tədqiqatçılar müxtəlif maraqlı məlumatlar vermişlər. Mənbələrə istinad edən E. Məmmədova göstərir ki, Azərbaycan xanlıqları arasında böyük əhəmiyyətə malik olan Şamaxı xanlığı çox güclü hərbi qüvvəyə malik idi və 10 min, bəzən isə 12 min nəfərlik qoşun toplaya bilirdi (105, 133). Məhz hərbi cəhətdən güclü olmasının nəticəsi idi ki, xanlıq səkkiz il Quba xanlığının birləşdirmə siyasətinə qarşı mübarizə aparmışdı. Qubalı Fətəli xan bu məqsədlə dəfələrlə Şamaxı xanlığı üzərinə hərbi yürüşə keçmiş, lakin hər dəfə itki verərək geri çəkilmişdir (18, 35).

Bununla bağlı olaraq, N. Dubrovin haqlı olaraq göstərir ki, xanlıqların bir – birinə münasibəti dəyişkən xarakter daşıyırdı. Bunu isə yeganə səbəbi xanlıqların yarandığı ilk illərdə hər hansı bir ərazi üstündə mənafe toqquşmaları idi (85, IV cild c., 13). Yeri gəlmişkən qeyd edək ki, tarixin sonrakı gedişi göstərir ki, bu münasibətlər beynəlxalq şəraitdən də asılı olaraq tez – tez istiqamətini dəyişirdi.

Xanlığın yaranmasının ilk illərində - 1749-cu ildə şahsevənli Əhməd xan Köhnə Şamaxıya yürüş edir. Bu barədə "Gülüstani –İrəm"də qeyd olunur: "Ağa Rəzi bəy üz – üzə döyüşdə onun (Əhməd xanın – N.B.) qardaşı Məhəmmədrza xanı öldürdü. Əhməd xan özü intiqam almaq üçün meydana atıldısa da, Ağa Rəzi bəy tərəfindən bərk yaralandı, məğlub olub geri qayıtdı və şəhərin yarımağaclığında vəfat etdi" (16, 163). Lakin ikihakimiyyətlilik şəraitinə baxmayaraq, Köhnə Şamaxıda xanlığın kiçik bir dəstəsi Əhməd xanın qüvvələrinin qarşısını ala bilmişdir.

Bundan əlavə, XVIII yüzilliyin 40-cı illərinin sonlarına yaxın güclü siyasi qüvvəyə çevrilən Şəki xanlığı Kartli – Kaxeti çarı II İraklinin Azərbaycana xanlarına qarşı törətdiyi məlum Qızılqaya xəyanətinə cavab olaraq "1752-ci ildə II İrakli üzərinə yürüş edərkən Ağa Rəzi bəylə ittifaq bağlayır" (16, 163). Hacı Çələbi

kimi nüfüzlu bir xanın Sərkərlərin hakimiyyətdə olan nümayəndələri Məhəmmədsəid və Ağası qardaşları ilə deyil, yaşca kiçik olan və hakimiyyətdə olmayan Ağa Rəzi bəylə ittifaqa girməsində iki məqsəd ola bilərdi. Birincisi, mənəblərdə göstərildiyi kimi Ağa Rəzi bəyin şücaətli, döyüşkən, qabiliyyətli sərkərdəlik məharətinə malik olması və Hacı Çələbinin düşmənə qarşı onun bu qabiliyyətindən istifadə etmək niyyəti ola bilərdi. İkincisi, bütün Şirvan torpaqlarını öz hakimiyyəti altında birləşdirmək arzusunda olan Hacı Çələbi xanın Sərkərlərin kiçik qardaşını öz tərəfinə çəkmək və ondan böyük qardaşlarına qarşı istifadə etmək niyyəti ola bilərdi. Bu məqsədlərdən ikincisi tarixi reallığa daha yaxındır və hadisələrin sonrakı gedişi də bu fikri təsdiq edir. Həmçinin bu cür diplomatik təsir vasitəsi feodal ara müharibələri dövründə xarakterik olduğu üçün əksər Azərbaycan xanlıqlarında, o cümlədən Şamaxı xanlığında özünü qabarıq şəkildə göstərirdi.

P. Butkov da Şamaxı xanlığının qonşu xanlıqlarla münasibətinə dair daha bir məlumat verərək göstərir ki, 1749-cu ildə şamaxılı Hacı Məhəmmədəli xan şəkili Hacı Çələbi xan, qarabağlı Pənahəli xan, gəncəli Şahverdi xan ilə birlikdə Gürcüstana hücum etmək üçün razılığa gəlirlər. Lakin İrəvan xanının xəbərdarlığı ilə baş verə biləcək hadisəyə qarşı İraklinin hazırlığı bu ittifaqın pozulması ilə nəticələnir (74, 237).

Nadir şahın ölümündən sonra İran ərazisində baş qaldıran hakimiyyət uğrunda gedən mübarizə nəticəsində Təbrizdə möhkəmlənmiş şahın əmisi oğlu Əmir Aslan xan Adil şaha qarşı mübarizədə qərara gəlir ki, İrandan asılı olmayan müstəqil Azərbaycan dövlətini yaratsın. O bütün Azərbaycan feodal hakimlərindən tələb edir ki, Adil şahın hakimiyyətini tanımasın. 1748-ci ildə doğma qardaşı Adil şahın gözlərinə mil çəkdirən (37, 152) İbrahim Mirzə özünü şah elan edir və Əmir Aslan xana qalib gəlir.

İbrahim şah 1749-cu ildə Azərbaycan xanlarından hərbi xidmət üçün 10 min nəfər tələb edir. Quba, Şəki və Salyan hakimləri bu tələbi rədd edəndə Yeni Şamaxıda hakimiyyətdə olan Hacı Məhəmmədəli xan İbrahim şahın tələbinə müsbət cavab verir. Buna görə də Quba, Şəki və Salyan hakimləri Yeni Şamaxıya qoşun yeridir. Bu zaman İbrahim şah Hacı Məhəmmədəli xana yardım göstərir. Növbəti yürüşdə Bakı xanı, Qarabağ xanı Pənahəli xan da bu ittifaqa qoşulur və Hacı Məhəmmədəli məğlub olur. Ağsuda Hacı Çələbinin 100 nəfərlik hərbi dəstəsi saxlanılır (92, 93-94). Təbii ki, bu ittifaqın da ömrü uzun olmur. Göründüyü kimi, İbrahim şahın tələbinə münasibətdə adları çəkilən Şimali Azərbaycan xanlarının Şamaxı xanı ilə münasibətləri gərgin olur.

İlk illər Şamaxı xanlığı ilə müttəfiq olan Hacı Çələbi xan yuxarıda göstərilən ittifaqda iştirak etdikdən sonra Şamaxı xanlığına qarşı çox böyük qoşunla yürüş edir. Hacı Məhəmmədəli xan əvvəlki münasibətsizliyi unudub kömək üçün Quba xanı Hüseynəli xana müracət edir. Hüseynəli xan 3000 nəfərlik qoşunla köməyə gəlir, birləşmiş qüvvələr Hacı Çələbini məğlub edirlər (16, 164).

Şəki xanının məğlub edilməsində Hacı Məhəmmədəliyə yardım etdiyinə görə Hüseynəli xan Salyana qoşun yeritməkdən çəkinmir. Çünki Şamaxı xanlığının Salyana olan iddiasından Hüseynəli xan xəbərdar idi. Ona görə də 1756-cı ildə Hüseynəli xan oğlu Fətəli ağanı Salyana göndərir və qohumu rudbarlı İbrahim xandan oranı alır. Qeyd edək ki, Salyan hələ 1711-ci ildən Qubanın təsirindən çıxmış və 1756-cı ilə kimi əldən - ələ keçmişdir. Belə ki, 1724-cü ilə kimi Salyanı Şirvan bəylərbəyi Həsən bəy idarə edir. Həmin ildə Həsən bəy qaçır və Salyan Osmanlı dövlətinin təsiri altına düşür. Daha sonra Salyan bir müddət rus komendatları tərəfindən idarə olunur. 1732-ci ildə rusiyameyilli Əliqulu xan tərəfindən idarə olunan Salyan 1735-ci il Gəncə müqaviləsinə görə Azərbaycanın Xəzərsahili əraziləri ilə birlikdə Səfəvilərin, sonra isə Nadirin hakimiyyəti altında olur. Nadir Salyana Məhəmməd xanı hakim təyin edir. Nadir şahın ölümündən sonra XVIII yüzilliyin ortalarında Salyan müstəqil xanlığa çevrilmiş, əvvəl Əhməd xan adlı birisi (38, 14), sonra isə yerli feodal olan İbrahim özünü Salyanın müstəqil hakimi elan edir (59, 115).

H. Abdullayevin verdiyi məlumata görə İbrahim xanın hakimiyyətindən narazı qalan yerli feodallar Hüseynəli xandan İbrahimin başqası ilə əvəz edilməsini xahiş edirlər (59, 115). Görünür, Hüseynəli xan həmin müraciətdən bir bəhanə kimi istifadə edərək, Şamaxı xanlığının da ona etdiyi köməyin müqabilində mane olmayacağını zənn edib, Salyanı ələ keçirir və Salyan yenidən Qubaya birləşdirilir. Rusiyanın Gürcüstandakı diplomatı Y. Reyneqs Şamaxı xanlığı ilə Quba xanlığının münasibətləri haqqında məlumat verərək göstərir ki, Quba xanı Salyanı ələ keçirərkən Şamaxıya da hücum edir, hakimlərini də öldürür (132, 126 - 127). Müəllifin verdiyi həmin məlumatı heç bir mənbə təsdiq etmədiyinə görə yanlış hesab edirik. Salyanı birləşdirməklə Quba xanları Həsənabad, Rudbar, Səfixan və Salyan limanı kimi mühüm iqtisadi əhəmiyyətli məntəqələrə yiyələnmiş oldular. Quba xanı tərəfindən təyin edilən Salyan hakimi Kəlbalı xan (32, 103) isə oranı sultan titulu ilə idarə etməyə başlayır. Bununla da, Quba xanlığı Şamaxı və Bakı xanlıqlarının arxasına çıxış və onlara təzyiq göstərmək imkanı əldə edir (38, 15). Ümumiyyətlə, Salyan xanlıqlar dövrünün sonrakı mərhələlərində Quba, Şamaxı və Lənkəran xanlıqları arasında mübarizə obyekti olmuşdur.

1758-ci ildə Hüseynəli xan vəfat etdikdən sonra oğlu 22 yaşlı Fətəli xan onu hakimiyyətdə əvəz edir. Bu hadisədən istifadə edən Şamaxı xanı Məhəmmədsəid xanın qardaşı Ağa Rəzi bəy sərhəddə olan Qubanın Bərmək (Beşbarmaq – N.B.) mahalına hücum edir və 200-ə yaxın ailəni Şamaxıya köçürü (38, 164). Bu barədə İ. Hacinski yazırdı: “Atasının dəfni ilə məşğul olan Fətəli xan bu hadisədən atasının vəfatının yeddinci günü xəbər tutdu. O xanlıq taxtına çıxmaq mərasimini yüngülcə keçirib, qubalılardan mümkün olan qədər qoşun toplayaraq Şirvana (Şamaxıya – N.B.) hərəkət etdi... Məhəmmədsəid xan Fətəli xanı sərhəddə qarşılamaq üçün tədarük gördü, onunla döyüşə girərək bu qanlı toqquşmanın

səbəbkarı olan ... Ağa Rəzi bəyi bu vuruşmada itirdi və tamamilə məğlub oldu" (26, 9).

A.Bakıxanov isə əvvəlki fəsildə, qeyd etdiyimiz kimi, bu döyüşdə Məhəmmədsəid xanın adını çəkmir. Müəllif Ağa Rəzi bəyin öldürülməsindən sonra şəhərin Fətəli xan tərəfindən bir neçə ay mühasirədə qaldığını da göstərir. Çox güman ki, mühasirəni yaran Fətəli xan Ağa Rəzi bəy tərəfindən əsir götürülən elatını azad edir və bundan əlavə, 400 şamaxılı ailəni əsir götürüb geri qayıdır. Göründüyü kimi, əsas mübarizəni Köhnə Şamaxıya – Sərkərlərə yönəldən Quba xanlığı həmin dövrdə Şamaxı xanlığını tam tabe edə biləcək hərbi qüvvəyə malik olmamışdı. Halbuki ikihakimiyyətlilik şəraitində bunu həyata keçirmək daha asan olardı. Yeni Şamaxıda hakim olan Hacı Məhəmmədəli xan baş verən hadisələrə münasibətdə əvvəl bitərəf mövqe tutsa da, sonra Fətəli xanın müttəfiqinə çevrilir (59, 214).

Şamaxı xanlığı ilə Quba arasında mübarizə Quba xanının Dərbəndi ələ keçirməsi ilə daha da kəskinləşir. Belə ki, fransız tədqiqatçısı A. Berne göstərir ki, hələ Nadir şah dövründə Dərbənddə Məhəmmədsəid xan (Məhəmmədhüseyn xan – N.B.) hakim idi. O, əhali ilə çox qəddarcasına rəftar edirdi (127, 194). Məhz bu səbəbdən Nadir şahın ölümündən sonra əhali Məhəmmədhüseyn xanın zülmündən xilas olmaq üçün qubalı Fətəli xana müraciət edir. 1759-cu ildə dərbəndlilərin xahişini nəzərə alan Fətəli xan Dərbəndə hərbi yürüş edir. Dərbəndlilərin özlərinin köməyi ilə şəhər Fətəli xanın əlinə keşir (13, 9).

İ. Hacinskinin bu hadisə ilə əlaqədar verdiyi məlumatlar isə məsələyə bir qədər də aydınlıq gətirir. O yazırdı: "Fətəli xan Məhəmmədhəsən (Məhəmmədhüseyn xan – N.B.) xandan narazı olan Dərbənd bəyləri ilə gizli əlaqəyə girdi, onlara o qədər bəxşişlər verdi, nəvaziş göstərdi ki, onların bəziləri Qubaya köşdülər. Fətəli xan onların vasitəsilə də Dərbəndin özündə çoxlu tərəfdarlar əldə etdi... və şəhəri ələ keçirdi" (26, 9).

Məhəmmədhüseyn xan isə əsir kimi Bakıya gətirilir və 1768-ci ildə burada vəfat edir. Göstərdiyimiz tarixi faktla bağlı belə bir mülahizə də söyləmək olar ki, bəlkə də, Fətəli xan şimal sərhədlərini möhkəmləndirmək üçün ilk əvvəl Şamaxının yox, daha çox Dərbəndin ələ keçirilməsinə üstünlük vermişdir. Bununla belə, qubalı Fətəli xan Şamaxı xanlığına sahib olmağın əhəmiyyətini də çox gözəl bilirdi. Belə ki, Şamaxı xanlığı həm bütün Azərbaycanda, həm Qarabağ və Şəki xanlığı arasında, həm də Quba xanlığı ilə Azərbaycanın cənub xanlıqları arasında böyük strateji əhəmiyyətə malik olmuşdur. Məhz buna görə də Fətəli xan Şamaxı xanlığının da tezliklə ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. T. Mustafazadə bu haqda yazır: "Şamaxı xanlığı strateji cəhətdən xeyli güclü xanlıq idi və buna görə də onu ələ keçirməyin yüngül olmayacağı aydın idi. Buna görə də Fətəli xan əvvəlcə zəngin, lakin hərbi cəhətdən Şamaxıdan çox zəif olan Bakı xanlığını tabe etmək və bununla da Şamaxı xanlığı ilə həlledici mübarizə üçün qüdrətini artırmaq qərarına gəldi" (38, 102).

Lakin XVIII yüzilliyin 60-cı illərinin əvvəllərində şəkili Hüseyn xan ilə Məhəmmədsəid xanın bir ittifaqda olması Fətəli xanı müvəqqəti olaraq bu fikirdən çəkindirsə də, o, geniş əraziyə malik Şamaxı xanlığının işğalından əl çəkməmişdir. Qubalı Fətəli xan bununla Şamaxı xanlığının əlverişli strateji mövqeyindən istifadə edərək, Şəki və Qarabağ xanlıqlarını ələ keçirmək,v sonra isə Cənubi Azərbaycana doğru hərəkət etməyi planlaşdırırdı. Bunun üçün əlverişli imkan yaranmışdı.

Belə ki, qubalı Fətəli xanın Sərkərlərdən 10 min rubl tələb etməsi bu iki xanlıq arasında münasibətlərin gərginləşməsinə və onun Şamaxı xanlığına yürüş etməsinə bəhanə oldu. Bunun səbəbi isə ondan ibarət olur ki, Cənubi Dağıstan feodalları Fətəli xandan Şamaxı xanlığına getmək üçün Quba xanlığının ərazisindən keçməyə icazə verməsini tələb edirlər. Bu isə Fətəli xan tərəfindən qəbul edilmir və Dağıstan hakimlərinə qarşı hərbi qüvvə toplamaq məqsədi ilə o, Şamaxı xanlığından yuxarıda qeyd edilən məbləği tələb edir (74, 253). Lakin bu dövrdə Şamaxıda yoluxucu taun xəstəliyi baş verdiyindən, gündə 15 – 20 nəfər xəstəliyin qurbanı olurdu. Öz hakimiyyətini bir qədər möhkəmləndirən Məhəmmədsəid xan xəstəliyin geniş yayıldığına görə əhalidən vergini yığıb ödəyə bilməyəcəyini bildirir və tələbi rədd edir (104, 94). Həmin tələbin rədd edilməsi bu iki xanlıq arasında münasibətlərin kəskinləşməsinə səbəb olur və qubalı Fətəli xanın Şamaxı xanlığına hərbi yürüşü ilə nəticələnir.

Fətəli xanın Şamaxı xanlığını işğal etmək istəyi Qarabağ xanlığını vadar edir ki, Şamaxı xanlığını müdafiə etsin. Lakin Qarabağ xanlığının Şamaxı xanlığı barədə öz iddiaları var idi. Bu bir tərəfdən Quba xanının Qarabağ xanlığı üzərinə hücuma keçəcəyi haqqında xəbərlərin geniş yayılması ilə bağlı idisə, digər tərəfdən isə heç şübhəsiz ki, İbrahimxəlil xanın da birləşdirmə siyasəti ilə əlaqədar olaraq Şamaxı xanlığına olan marağı ilə bağlı idi. S. Bronevskiyə görə, qarabağlı İbrahimxəlil xan Fətəli xanın dövründə Şamaxı xanlığını ondan almaq və öz oğlanlarını Şamaxı xanlığında hakim etmək niyyətində idi (71, 429).

Fətəli xan Dərbənd və Bakı xanlıqlarını qan tökülmədən Quba xanlığına birləşdirdiyi kimi, Şamaxı xanlığını da müharibəsiz əldə etməyi qərara alır. O, bu barədə Məhəmmədsəid xan və Ağası xanla uzun – uzadı danışıqlar apardıqdan sonra razılıq əldə edilir ki, Quba xanlığı Şamaxı xanlığını hər hansı bir təcavüzdən qoruyucaq və bunun müqabilində Məhəmmədsəid xan hər il Quba xanlığının xəzinəsinə müəyyən miqdarda ödənc verəcəkdir. Lakin çox keçmir ki, Şamaxı xanlığı müstəqilliyə can atan Şəki xanlığı ilə olan ittifaqına arxalanaraq Quba xanlığına xərac verməkdən imtina edir (13, III hissə, 422). Həmin tələbin rədd edilməsi ilə də bu iki xanlıq arasında münasibətlər daha da gərginləşir.

Fətəli xanın Şamaxı xanlığını tamamilə tabe etməkdə bir çox çətinliklərlə üzləşməsinin digər bir səbəbi də, 1761-ci ildə Şamaxıda ikihakimiyyətliliyə son qoyulması olmuşdur. Təkhakimiyyətlilik şəraitində Şamaxı xanlığının hərbi – siyasi gücü bir qədər də artır ki, Fətəli xan Şamaxı xanlığına qarşı şəkili Hüseyn ilə ittifaq bağlamaq məcburiyyətində qalır. Bunun nəticəsidir ki, 1764-cü ildə şəkili

Hüseyn xan ilə qubalı Fətəli xan Şamaxı xanlığına ilk hərbi yürüş edirlər. Şamaxı xanı ilk yürüşdə müqavimət göstərməyin mənasız olduğunu görərək, münaqişəni danışıqlar yolu ilə həll etməyə üstünlük verir və Quba və Şəki xanlığına vergi ödəyəcəyinə söz verir.

Lakin Şamaxı xanı verdiyi vədi yerinə yetirməyə heç də tələsmir, əksinə, hərbi qüvvə toplamağa başlayır. Buna cavab olaraq 1767-ci ildə Quba xanlığı ilə müharibəyə başlamaq üçün hərbi qüvvə toplamağa başlayır. Buna cavab olaraq, 1767-ci ildə Fətəli xan Salyan, Dərbənd və Bakıdan topladığı 12 minlik qoşunla Şamaxıya yürüş edir (10, 72). H. Abdullayevin məlumatına görə, Şamaxı xanlığının 25 min nəfərlik qoşunu olmasına baxmayaraq, Məhəmmədsəid xan əhalinin Fətəli xana meyil etməsindən çox ehtiyat edirdi. Ona görə də əsas mövqelərin – Mücü qalasının ələ keçirilməsini də nəzərə alan Məhəmmədsəid xan danışıqlara başlamağı qərara alır, nəticədə Quba xanlığına ödəyəcəyi vergini verməyə razılıq verir. Əvəzində isə ələ keçirilən hərbi qənimətlə birlikdə Mücü qalasının (arxiv sənədlərinə əsaslanan H. Abdullayevə görə Mücü qalası Şamaxı xanlığının ərazisində dağlar arasında yerləşirdi – (60, 48) da Şamaxı xanlığına geri qaytarılması barədə razılıq əldə edilir (60, 47).

Eyni zamanda Quba xanlığı ilə əldə olunan razılığa əsasən, Şamaxı tacirləri Bakı limanından maneəsiz keçərək ticarət edə bilmək hüququ əldə etdilər (60, 47). Qeyd etmək lazımdır ki, istər Quba xanlığının, istərsə də digər Azərbaycan xanlıqlarının bir – biri ilə apardığı mübarizə Azərbaycanın daxili ticarətinə böyük zərbə vururdu. M. İsgəndərovanın arxiv sənədlərinə istinadən verdiyi bir məlumatda Quba xanlığından nominal asılılıqda olan Bakı xanı Şamaxı tacirlərinə Bakıya gəlməyi qadağan etmişdir (92, 103). Göründüyü kimi, qubalı Fətəli xanla əldə olunan razılaşmaya əsasən bu maneə aradan qaldırılmışdı.

Şamaxı və Quba xanlıqları arasında əldə edilən bu növbəti razılaşmanın da ömrü uzun olmadı. Bu zaman Quba xanlığının güclənməsini istəməyən Qarabağ xanlığı avarlı Nutsal xan ilə birlikdə Şamaxı xanlığını müdafiə edirdilər. Şəkili Hüseyn xan da Şəkinin tabe ediləcəyindən ehtiyat edərək Quba xanı ilə ittifaqdan imtina etmişdi. Lakin Fətəli xan Şamaxı xanlığının gəlirini Şəki xanlığı ilə bölüşdürəcəyi vədi ilə Hüseyn xanı Şamaxı xanlığına qarşı yenidən yürüşə çıxmağa razı sala bildi və 1768-ci ildə güclü qoşunla Fətəli xan Şamaxıya yürüş etdi.

İ. Hacinski bu haqda qeyd edir ki, Məhəmmədsəid xan və Ağası xan müqavimət göstərsə də, məğlub oldu (26, 10), digər mənbələr isə Köhnə Şamaxının döyüşsüz ələ keçirildiyini döstərir (60, 47). Ağası xan kor edilir, Məhəmmədsəid xan isə Dərbəndə göndərilərək əsir saxlanılır. Şamaxı xanlığının 2 mahalının Sərdərin və Həsən mahalının ərazisi şəkili Hüseyn xana verilir, xanlığın qalan ərazisinə isə qubalı Fətəli xan sahib olur (59, 50). Əslində Yeni Şamaxıya hakimlik Şəki xanlığının naibi, hakimiyyətdən devrilmiş Hacı Məhəmmədəlinin Şəkidə sığınacaq tapan oğlu Manaf bəyə, Köhnə Şamaxıda isə Fətəli xanın qardaşı

Abdulla bəyə tapşırılır. Az müddət keçəndən sonra Abdulla bəy Qazıqumuqlu Eldar bəy ilə əvəz olunur (59, 217).

Beləliklə, Quba xanlığı Dərbənd, Bakı və Şəki xanlığının birləşmiş qüvvələrinin köməyi ilə Şamaxı xanlığı üzərində qələbə çalır. Xanlığın məğlubiyyəti yalnız Quba xanlığının hərbi gücü hesabına deyil, eyni zamanda Şamaxı xanlığındakı daxili çəkişmələrlə sıx bağlı idi. Belə ki, bir tərəfdən Şamaxı xanlığının Quba xanlığına hərbi yolla birləşdirilməsinin əleyhinə çıxan qüvvələr mübarizənin dayandırılmasını istəyirdilər, digər tərəfdən isə xanlığın işğalından sonra Sərkərlər sülaləsinə tərəfdar olan əyanlar imtiyazlarının itirilməsi ilə barışmaq istəmirdilər. H. Abdullayev daha sonra Şamaxı feodallarının Quba xanlığı ilə gizli əlaqələrindən də bəhs edir (59, 218).

Şamaxı xanlığının işğalından sonra 1768-ci ilin avqustunda Yeni Şamaxıda Quba xanlığına qarşı gizli danışıqlar başlayır. Danışıqlar Manaf bəy başda olmaqla digər Şamaxı feodalları və şəkili Hüseyn xan arasında aparılır. Danışıqların şərtinə görə, Şamaxı xanlığı tamamilə Quba xanlığının asılılığından çıxarılmalı və xanlığın gəliri Şəki xanlığı ilə bölüşdürülməli idi. Hüseyn xanın qoşunlarının Köhnə Şamaxıya daxil olmasına qədər Manaf bəy və tərəfdarları Yeni Şamaxıda hakimiyyəti ələ keçirilməli idilər. Manaf bəyin Yeni Şamaxıdan Quba xanlığının nümayəndəsini çıxarmağa hazırlaşmasından xəbər tutan qubalı Fətəli xan onu Yeni Şamaxıdan qovur və Dərbəndə göndərir. Fətəli xan separatçılığa yol verməsin deyə Yeni Şamaxıda Məhəmmədsəidə hakimlik təklif edir (13, III hissə, 422). Lakin Sərkərlər sülaləsinin yenidən bərpa edilməsi ilə bağlı Məhəmmədsəid xanın gizli danışıqlarından hali olan Fətəli xan onu 26 nəfər hacı ilə birlikdə Dərbəndə göndərir. Beləliklə, 1769-cu ildən Şamaxı xanlığı Quba xanlığına tamamilə tabe edilir. Fətəli xan Dərbənd, Quba və Salyandan Köhnə Şamaxıya 1000 ailə köçürür (59, 218). 1769-cu ilin iyulunda Yeni Şamaxı dağıdılır və əhalisi Köhnə Şamaxıya köçürülür. Bu işin icrası üçün Fətəli xan 6000 nəfər ayırmışdı. Yeni Şamaxı şəhərinin dağıdılmasının səbəbi ilə bağlı tarixşümaslıqda müxtəlif fikirlər mövcuddur. S. Qmelin bunu şəhərin sağlam iqlim şəraitinin olmaması, suyun çatışmaması və əhalinin təhlükəsizliyinin təminatının aşağı səviyyədə olması ilə izah edir (79, III hissə, 94).

H. Abdullayevin fikrinə görə, Yeni Şamaxı şəhərinin dağıdılmasının iki səbəbi vardı. Birincisi, burada qiyamçı dəstələrin olması ilə bağlı idi. Digər səbəb isə Yeni Şamaxının Quba xanlığının rəqibi – Şəki xanlığı ilə həmsərhəd olmasında idi (59, 262).

XIX əsr rus müəlliflərindən olan İ.Zeydlisə əsaslanan H.Abdullayev göstərir ki, Fətəli xan Quba, Bakı, Şamaxı və Salyanı öz hakimiyyətinə tabe etmək yolu ilə keçmiş Şirvanşahlar dövlətinin sərhədlərini bərpa etmək istəyirdi (88, 23-24; 59, 512). Lakin əvvəlki fəsildə qeyd etdiyimiz kimi, Şirvan torpaqlarında yerləşən xanlıqların heç biri keçmiş Şirvanşahlar dövlətini bərpa etmək niyyətində

olmamışdı. Hətta qubalı Fətəli xanın Qarabağ xanlığına və Azərbaycanın Arazdan cənubda yerləşən xanlıqlarına olan yürüşü bunun əksini söyləməyə imkan verir.

1769-cu ildən 1774-cü ilə kimi Sərkərlərin Şamaxı xanlığında hakimiyyətdən tamamilə məhrum edilməsinə baxmayaraq, onlar Fətəli xana qarşı mübarizəni davam etdirirdilər. S.Qmelinin ölümünü bəhanə edərək general De Medemin başçılığı ilə Dağıstana doğru hərəkət edən rus qoşunlarını məlum hadisəyə görə Fətəli xan dəstəkləmişdi. Bu zaman Ağası xan Fətəli xana qarşı çıxmaq məqsədilə Şəki xanı ilə birlikdə, hətta Gilan xanı Hidayət xan ilə də əlaqə saxlamışdı (59, 532). Fətəli xanın güclənərək Azərbaycanın digər xanlarını özünə tabe etmək siyasəti ilə yalnız Sərkərlərin nümayəndəsi deyil, Qarabağ xanı İbrahimxəlil xan da barışmaq istəmirdi.

Məhz bu səbəbdən 1773-cü ilin sonlarında öz müttəfiqləri ilə birlikdə Şamaxı xanlığına hücum edən qarabağlı İbrahimxəlil xan tezliklə xanlığın paytaxtı Şamaxı şəhərini mühasirəyə aldı və Fətəli xanın qüvvələri az olduğu üçün şəhər ələ keçirildi (3, 68).

Lakin 1774-cü ilin əvvəlində şəhər yenidən Fətəli xan tərəfindən ələ keçirildi. Göründüyü kimi, İbrahimxəlil xanın şamaxılı Ağası və Məhəmmədsəid xan qardaşlarına yardım göstərməsi onun yalnız Şamaxı xanlığına olan iddiasından irəli gəlirdi.

1774-cü ilin iyulunda baş verən məlum Gavduşan döyüşündən sonra Ağası xan qısa müddətdə olsa da, Şamaxıda hakimiyyətini bərpa etdi. O, bu zaman şəkili Hüseyn xan ilə birlikdə avar hakimi Novsəl xan, Qaytaq usmisi Əmir Həmzə ilə ittifaq bağlamışdı. Məhz həmin dövrdə Fətəli xan əsas rəqib hesab etdiyi Sərkərlərə və onların müttəfiqlərinə qarşı mübarizəni gücləndirmək məqsədilə Rusiyadan kömək almaq üçün Peterburqa xüsusi elçi göndərmişdi. Lakin məlumdur ki, bu elçilik uğurlu olmamışdır. Fətəli xan yenidən Şamaxı xanına qarşı diplomatik manevr etmək qərarına gəldi. 1775-ci ildə Dərbənddə 7 ildən bəri dustaq saxlanılan Məhəmmədsəid xan azad edildi. Yaranmış şəraitdən istifadə edən Məhəmmədsəid xan Fətəli xanın bacısı Fatma xanımı oğlu Məmmədrza üçün istədikdə xan buna razılıq verdi. Göründüyü kimi, bir tərəfdən Fətəli xan nigah diplomatiyası yolu ilə Məhəmmədsəid xanı öz hakimiyyətinə qarşı zərərsizləşdirməyə çalışmış, digər tərəfdən isə bu addımı atmaqla qardaşlar arasında qarşıdurma yaratmaqla onların xanlıqdakı mövqeyini daha da zəiflətmək məqsədi güdmüşdü. Bu barədə Q. Drenyakin yazırdı ki, Ağası xan Fətəli xan ilə Məhəmmədsəidin qohum olduğunu və Şamaxıda hakimliyin Məmmədrzaya verildiyini eşitdikdə təcili Əlvənddən (Kotevan Qarabağ və Şamaxı xanlığı arasında yerləşən Əlvəndə daxil olan yer – Kür çayı sahilində - N.B.) Şamaxıya gəldi və böyük qardaşından hakimiyyəti tələb etdi (82, 186). Məmmədrzanın Fətəli xan tərəfindən Şamaxıya hakim təyin edildiyini digər mənbələr də təsdiq edir (11, 711). Məhəmmədsəid xanın Fətəli xan ilə qohum olması Ağası xanı heç də qane etmir və bu, onlar arasında ixtilafa səbəb olur.

Sonralar Fətəli xan yenidən Şamaxıya hücum edərkən qardaşlar öz aralarındakı ixtilafı unudub Quba xanına qarşı çıxırlar. Lakin nəticədə məğlub olan qardaşlardan Məhəmmədsəid xan şəkili Məhəmmədhəsən xanın yanına, Ağası xan isə Əlvəndə çəkildi. Qardaçların sonrakı taleyi haqda mənbələrdə müxtəlif fikirlər vardır. Belə ki, P. Butkovun məlumatına görə, məğlub olan qardaşlar Fətəli xana hədiyyələr göndərməkdə davam edirdilər. Daha sonra müəllif qeyd edir ki, Əlvənddə sığınacaq tapan Ağası xan çox keçmir ki, Qarabağ xanı İbrahimxəlil xan tərəfindən qardaşı Mehrəli bəyin öldürülməsinə cavab olaraq qətlə yetirilir. Məhəmmədsəid xan isə 1789-cu ildə Fətəli xan tərəfindən Salyanda qətlə yetirilir (74, II hissə, 27).

H. Alkadarinin məlumatına görə, bu iki qardaş Avar hakimi Ümmə xana kömək etdikləri üçün Fətəli xan onları həbs edərək Bakıya göndərdi və orada onları qətlə yetirdi (64, 87). Fətəli xan kürəkəni Məmmədrzanı isə hələ 1788-ci ildə Qubaya göndərərək Şamaxıdan uzaqlaşdırmış və orada öldürtmüşdü (64, 272).

1789-cu ildə Fətəli xanın ölümündən sonra hakimiyyətə oğlu Əhməd xan gəldi və onun Şamaxıda hakimliyi çox çəkmədi. Şəkili Məhəmmədhəsən xan Manaf bəyi yenidən Şamaxıya hakim təyin etmək üçün Şamaxı xanlığına qoşunla hərəkət edən zaman Əhməd xan Şamaxı şəhərini tərk etdi. Lakin Manaf bəyin hakimiyyəti 15 gün davam etdi. Belə ki, Şamaxı xanlığında Məhəmmədsəid və Ağası xanın övladları arasında hakimiyyət uğrunda gedən mübarizə nəticəsində Məhəmmədsəid xanın böyük oğlu Əsgər qalib gəldi və Manaf bəyi hakimiyyətdən uzaqlaşdırdı. Ümumiyyətlə, 1789-cu il qubalı Fətəli xanın ölümündən 1792-ci il şamaxılı Mustafa xanın hakimiyyətə gəlməsinə qədər Şamaxı xanlığında hakimiyyət uğrunda qanlı mübarizə və varislərin haradan gəlməsi haqqında dövrün mənbələrində müxtəlif məlumatlar mövcuddur.

A.Bakıxanovun yazdığına görə isə qubalı Əhməd xan Şamaxını idarə etməkdə acizlik göstərdiyinə görə şəkili Məhəmmədhəsən xan onu hakimiyyətdən devirmək istədi. Buna görə də o, Osmanlı ölkəsindən Qarabağa gəlmiş Əsgər bəy, Qasım bəy və Ağası xanın oğlu Mustafa bəyi yanına çağırıb, Hacı Məhəmmədəlinin oğlu Manaf bəyi də onlara qoşaraq Şamaxı üzərinə hərəkət etdi (17, 200).

Daha sonra müəllif yazır ki, Əsgər xanın hökmranlığından 6 ay keçdikdən sonra Qasım bəy Şamaxı əyanları ilə ittifaq bağlayıb Əsgər xanı hakimiyyətdən devirir. Bu zaman qasım xan hakimiyyətə sahib olmaq üçün, Əsgər xanla, hətta Əlvənddə olan Mustafa bəyin üzərinə də hücuma keçmiş, lakin məğlub olub geri qayıtmışdı. Qasım xan hakimiyyətə sahib olmaq üçün eyni zamanda Dağıstan hakimi Məhəmməd Şamxalın oğlu Şahbaz bəyin köməyindən də istifadə etmişdi (17, 202).

A.Serebrova görə Əsgər xan ilə qardaşı Qasım xan arasında hakimiyyət uğrunda aparılan mübarizədən Ağası xanın Əlvənddə olan oğlu Mustafa bəy istifadə edərək hakimiyyəti ələ keçirdi (120, 179). A.Fituni göstərir ki, hakimiyyətə

sahib olmaq üçün dağıstanlılarla sız əlaqə saxlayan Qasım xan əhali arasında öz qəddarlığı ilə ad çıxarmışdı. Buna görə də 1792-ci ildə əhali onu devirib, Mustafa bəyi Əlvənddən Şamaxıya dəvət etdi (1124). Göründüyü kimi Mustafa xanın hakimiyyətə gəlməsində əlverişli şəraitlə bərabər, Qasım xanın qəddar rəftarından cana doymuş sadə əhalinin də böyük rolu olmuşdu.

Beləliklə, 1789-cu ildən 1792-ci ilə kimi Şamaxı xanlığında hakimiyyət uğrunda gedən mübarizədə Mustafa xan qalib gəlir. Bu zaman Mustafa xanla hakimiyyət uğrunda aralarında rəqabət olan Qasım xan Şəki xanlığına qaçır, bu isə hakimiyyətə gələn Mustafa xanın Şəki xanlığı ilə münasibətlərində düşmənçiliyə gətirib çıxarır. Şamaxı xanlığında yaranan belə bir vəziyyət nə qubalı Şeyxəli xanı, nə də şəkili Məhəmmədhəsən xanı qane etmirdi. Buna görə də onlar Şamaxı xanlığında hakimiyyətə sahiblik iddiasını Qasım xanın əli ilə həyata keçirməyə cəhd göstərirdilər. Mustafa xan Şəki xanlığını tabe etmək üçün 1793-cü ildə Qazıqumuq hakimi Surxay xan və Ərəs sultanı Şahabəddinlə ittifaq yaradaraq birgə üç tərəfdən Şəki xanlığına hücum etsələr də, onların bu cəhdi baş tutmamışdı (74, 280).

Qasım xan Şəki və Dərbənd hakimləri ilə birləşərək 1795-ci ilin yazında Yeni Şamaxıya yürüş edir. Şeyxəli xan da Quba və Dərbənddən 12 min nəfərlik hərbi dəstə toplayır. C. Mustafayev göstərir ki, bu yürüşdə Şeyxəli xan ilə birlikdə şəkili Məhəmmədhəsən xan da iştirak edirdi (109, 32). Hər iki tərəf Şamaxını ələ keçirməyə cəhd göstərirdi. Qüvvələrin qeyri – bərabər olmasına baxmayaraq, şamaxılılar Məhəmmədhəsən xanın düşərgəsinə hücum edərək 400 nəfəri əsir götürür, sonra isə Şeyxəli xanın qoşunlarını məğlub edirlər (109, 32). Mustafa xanın rəqib tərəfin qüvvələrini məğlub etməsinə baxmayaraq, 1795-ci ilin mayında tərəflər arasında 25 günlük mühasirədən sonra sülh imzalanır. Əldə edilən razılaşmaya əsasən, Şamaxı xanlığı Fətəli xana ödənilən əvvəlki məbləği – ildə 10 min rubl verməyi yenidən öhdəsinə götürür (74, 297).

Lakin Ağa Məhəmməd xan Qacarın Azərbaycana yürüşü hadisələri nisbətən başqa səmtə yönəldir.

Şamaxı xanlığının qonşu xanlıqlarla münasibətlərində olan gərginlik, hakimiyyət uğrunda mübarizə nəticəsində yaranmış düşmənçilik atributları Ağa Məhəmməd Qacarın (1795, 1797-ci illər) və general V. Zubovun başçılığı altında rus qoşunlarının Cənubi Qafqaza, o cümlədən Azərbaycana yürüşü (1796-cı il) zamanı nisbətən ara vermişdi.

Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqazı ələ keçirmək niyyətində olduğunu bilən Mustafa xan onun tabe olmaq haqqında tələbini rədd edib, Fitdağ qalasına çəkilərkən Şəki və Quba xanları yenidən Mustafa xanı hakimiyyətdən devirmək və Qasım xanı hakimiyyətə gətirmək üçün razılığa gəlirlər.

Şamaxı xanlığının Mustafa xanın dövründə (1792-1820) Quba, Şəki, Lənkəran və Qarabağ xanlıqları ilə münasibətləri təəssüflə etiraf etməliyik ki, çox vaxt düşmənçilik xarakteri daşımışdı. Belə ki, 1796-cı ildə özünü şah elan etmiş

Ağa Məhəmməd Qacarın öldürülməsindən sonra Mustafa xan öz ərazisini genişləndirmək uğrunda mübarizəyə başladı. Qacar tərəfindən gözləri çıxarılan Məhəmmədhəsən xan şahın ölümündən sonra Şəkidə öz hakimiyyətini yenidən bərpa etməyə çalışır. Buna görə də o, əvvəl düşmənçilik etdiyi Mustafa xana müraciət edir. Bu barədə mənbədə qeyd olunur ki, Mustafa xan Məhəmmədhəsən xanı Muğandan özü ilə götürüb Şirvana (Şamaxıya – N.B.) gəldi. Bir neçə gün burada qaldıqdan sonra onlar Məhəmmədhəsən xanın Şəkidə hakimiyyətini bərpa etmək məqsədilə birlikdə Şəkiyə daxil oldular. Bu xəbəri eşidən Səlim xan taxt – tacını qoyub qaçdı. Məhəmmədhəsən xan yenidən hakimiyyətə gəldi. Mustafa xan ilə dostluq münasibətində olan Məhəmmədhəsən xan səkkiz il xanlıq elədi (31, 19). Bu köməyin əvəzində isə Məhəmmədhəsən xan qızını Mustafa xana verəcəyinə söz verir. Yaranmış vəziyyət Mustafa xana Şəki xanlığının daxili işlərinə qarışmağa imkan yaradır. Mustafa xan çoxsaylı qoşunla Şəkiyə doğru hərəkət edəndə Səlim xan qohumu İbrahimxəlil xanın yanına qaçır və daim onu – Mustafa xanı hakimiyyətdən devirməyə tələsdirir.

Şəkidə Mustafa xanın köməyi ilə hakimiyyətə sahib olan Məhəmmədhəsən xan yenidən Şamaxı xanlığından asılı vəziyyətə düşür. XIX yüzilliyin əvvəlində isə onlar arasında yenidən münaqişə güclənir. Buna səbəb şəkili Səlim xanın Mustafa xan tərəfindən Şəkidə hakimiyyətə gətiriləcəyi haqqında xəbərin yayılması idi (109, 34).

Şamaxı xanlığının qonşu xanlıqlarla Salyan uğrunda mübarizəsi daha çox diqqəti cəlb edir. Ona görə ki, Salyan mahalında Mustafa xanın 1400 ailə yaşayan 25 mülkü var idi (2, 176). 1789-cu ildə Qubalı Fətəli xanın ölümündən sonra Mustafa xan Salyana sahib olur. 1799-cu ildə xanlığın ərazisini, xüsusilə Ağsu şəhərini dəhşətli taun xəstəliyi bürüyür. Yaranmış vəziyyətdən qubalı Şeyxəli xan istifadə edərək Salyanı ələ keçirir (17, 213). Qeyd etmək lazımdır ki, çar I pavel Şeyxəli xanın "könlünü almaq üçün" 1799-cu il sentyabrın 1-də verdiyi fərman (38, 190) ilə onu bəzi ərazilərlə birlikdə Salyanın da hakimi elan etmişdir. Lakin Şeyxəli xan Dərbəndə qayıdan kimi Salyan hakimləri və yerli əhalinin təklifi ilə Mustafa xan yenidən Salyana sahib olur (61, III c., 539). F.Əsədov Rusiya – İran müharibəsi zamanı yaranmış vəziyyətdən istifadə edərək Mustafa xan yenidən Salyanı Lənkəran xanı Mir Mustafa xandan almağa cəhd göstərir (24, 66). Mustafa xan Lənkəran xanlığı və onun müttəfiqləri ilə mübarizə apararkən fikirləşirdi ki, rusların köməyi ilə Salyanda hökmranlığı ələ keçirə bilər, həm də güc vasitəsilə bəzi tayfaları geri qaytarar və özünə tabe edə bilər (128, 288).

Mənbədə də göstərilir ki, Rusiyanın köməyi ilə Mustafa xan Salyanı Mir Mustafa xanın qardaşı Mir Bağır bəydən alır (69, siy. 8, sənəd 4570, 56). Lakin müəlliflərdən heç biri Salyanın nə vaxt Lənkəran xanlığı tərəfindən ələ keçirilməsi haqqında məlumat vermirlər. Çar məmuru general Lazarevin general Knorrinqə yazdığı raportdan isə aydın olur ki, 1801-ci ildə Salyan Mustafa xanın tabeliyində olmuşdur (69, I c., sən. 972).

Mənbələrin araşdırılması göstərir ki, Salyan 1799-cu ildən 1806-cı ilə kimi Şamaxı və Lənkəran xanlıqları arasında mübahisəli əraziyə çevrilmişdir. Mustafa xan qraf Qudoviçə yazdığı 1806-cı il 24 iyul tarixli məktubunda bildirirdi ki, İran vəliəhdi Abbas Mirzənin göndərdiyi qasid ona ruslara qarşı birlikdə hərəkət etməyi təklif edir, əvəzində isə talışları Salyandan qovaraq, oranı Mustafa xanın idarəsinə verəcəyini vəd edirdi (61, IIIc., 531). Qraf Qudoviç 1806-cı il 21 noyabrda general – mayor Quryevə yazırdı ki, Mustafa xan ilə bağlanan traktatın şərtlərinə sadiq qaldığı üçün Salyan əbədi və irsi olaraq onun idarəsinə verilir (61,III c., 539).

Salyanın hansı xanlığın tərkibində olması tarixşünaslıqda hesab edirik ki, problem kimi qəbul edilməməlidir. Məsələ ilə əlaqədar ən önəmli olan budur ki, Qacarlar dövləti və Rusiya öz mənafeyinə uyğun olaraq XIX yüzilliyin əvvəlində Salyanın Şamaxı, Quba və Lənkəran xanlıqları arasında mübarizə obyekti olmasında maraqlı olub onlar arasında qarşıdurmanı daha da dərinləşdirirdilər.

XVIII yüzilliyin 90-cı illərində Bakı xanlığında hakimiyyət uğrunda mübarizə kəskinləşən zaman Mustafa xan yaranmış vəziyyətdən yararlanaraq Bakı xanlığının gəlirlərindən faydalanmaq üçün qubalı Şeyxəli xanla ciddi münaqişəyə girmiş və II Mirzə Məhəmməd xanın hakimiyyətdə möhkəmlənməsinə imkan verməmişdi. Həmçinin 1792-ci ildə Mustafa xan Hüseynqulu xanın II Mirzə Məhəmməd xana qarşı mübarizəsində onu himayə edərək qubalı Şeyxəli xanla Bakı xanı arasındakı münasibətləri nizama salmaq və onları barışdırmağa çalışmışdı (66, 292).

XVIII – XIX yüzilliyin qovuşağında Şamaxı xanlığının nüfuzu güclənmiş və qonşu xanlıqları öz təsiri altına almağa çalışmışdı. Hətta Bakı xanı Hüseynqulu xan Mustafa xana ildə illik gəlirindən 120000 rubl dəyərində məhsul və pul ödəyirdi. Yaranmış vəziyyətdə Şeyxəli xan Mustafa xana zərbə vurmaq məqsədilə yenidən bakılı Hüseynqulu xanı özündən asılı vəziyyətə salmaq və həmin gəlirin yarısını əldə etməyə çalışırdı (92, 141). Şeyxəli xan Mustafa xanın Bakı və Salyan üzərindəki nüfuz üstünlüyü ilə razılaşmaq istəmirdi. Bu məqsədlə Şeyxəli xan Qazıqumuq xanını və Şamaxı xanlığından uzaqlaşdırılan Qasım xanı öz tərəfinə çəkməklə Salyanda möhkəmlənmək niyyətində idi.

Qeyd olunan dövrdə Şamaxı xanlığının Qarabağ xanlığı ilə münasibətləri çox vaxt gərgin olmuşdu. Bu münasibətlərin kəskinləşməsində şəkili Səlim xan az rol oynamamışdı. Məhəmmədhəsən xan tərəfindən hakimiyyətdən uzaqlaşdırılan Səlim xan öz yeznəsi İbrahimxəlil xanı Mustafa xana qarşı müharibəyə təhrik etmişdi (84, 66). İbrahimxəlil xanın öz qızını Mustafa xana deyil, İran şahı Fətəli şah Qacara verməsi də Mustafa xanı İbrahimxəlil xana düşmən etmişdi (61, I c., sən. 972). Bu iki xanlıq arasındakı münasibətlər İbrahimxəlil xanın Şəkiyə pənah aparan qardaşı oğlu Məhəmməd bəyin Mustafa xan tərəfindən öldürülməsi ilə daha da kəskinləşdi. Bu barədə Mirzə Camal yazırdı: “Mustafa xan İbrahimxəlil xanın qardaşı oğlunu öldürdüyündən yenidən Qarabağ xanı ilə düşmənçiliyə başladı” (34, 130).

Beləliklə, XVIII yüzilliyin 90-cı illərinə kimi Şamaxı xanlığı qonşu xanlıqlarla münasibətlərində yalnız öz müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizə aparmışdı.

XVIII yüzilliyin sonu və XIX yüzilliyin əvvəlində isə Azərbaycanın ən güclü xanlıqlarından birinə çevrilən Şamaxı xanlığı öz hakimiyyətini digər qonşu xanlıqlar üzərində yaymağa çalışmışdı.

## 2.2. Şamaxı xanlığının Dağıstan hakimləri ilə münasibətləri

Şamaxı xanlığının qonşu dövlətlərlə siyasi münasibətləri müəyyən qədər tədqiq olunsa da, Dağıstan hakimləri ilə münasibətləri ilk dəfədir tədqiqata cəlb olunur.

Qeyd edək ki, xanlıqlar dövründə Dağıstan hakimlərinin Azərbaycan ilə bağlı yeritdikləri siyasət Səfəvilər dövləti və Nadir şah imperiyası dövründə yeritdikləri siyasətdən çox fərqli olmuşdur. Belə ki, hələ 1719 – 1721-ci illərdə Şirvan bölgəsində Hacı Davudun üsyanı yatırıldıqdan sonra burada Dağıstan hakimi Surxay xan fəaliyyət göstərmişdir (13, 371). Nadirqulu xan 1733-cu ildə Səfəvilərin adından Osmanlı sultanı ilə Bağdad sülhünü imzalayarkən Surxay xan Şamaxıda idi və o, Türkiyənin formal himayəsi altında özünü sərbəst hakim kimi aparırdı (101, 101). 1734-cü ildə Nadirqulu xan Osmanlı sultanının sülhün şərtlərinə əməl etmədiyini nəzərə alaraq Şamaxıya yürüş edərək, Surxay xanı buradan qovur və Şamaxını dağıdaraq, əhalini Yeni Şamaxı şəhərinə köçürür (94, 238 - 239). Düzdür, Türkiyə tarixçiləri bu məsələ ilə əlaqədar göstərirlər ki, Nadir 1734-cü ildə Osmanlı qoşunlarının fəth etdiyi digər yerlər kimi Şamaxını da zorla onlardan geri almışdır (52, 11 c. 572). Lakin göründüyü kimi, Surxay xan Səfəvilər dövlətinin zəifləməsindən istifadə edərək Şirvan bölgəsinə hakimlik etmək niyyətində olmuş və ona görə də öz dəstələri ilə yaranmış vəziyyətdən istifadə edərək Şamaxıya gəlmişdir. Lakin Osmanlı dövlətinin Cənubi Qafqaza olan maraqlarını nəzərə alan Surxay xan Sultanın formal himayəsini qəbul etmişdir. Nadirqulu xan da Şamaxını dağıdarkən Surxay xanı buradan qovmaqla həm də Osmanlı dövlətinin mənafeyinə zərbə vurmuşdur.

XVIII yüzilliyin ikinci yarısında müstəqil xanlıqların yaranması ilə əlaqədar olaraq, Dağıstan hakimlərinin Azərbaycan xanlıqları ilə, o cümlədən Şamaxı xanlığı ilə münasibətlərində yeni mərhələyaranır.

Şamaxı xanlığının Dağıstan hakimləri ilə münasibətləri xeyli maraq doğurur. Xronoloji baxımdan bu münasibətlərin tarixini 2 mərhələyə ayırmaq mümkündür:

1. Xanlığın yaranmasından qubalı Fətəli xanın ölümünə qədər olan dövr; bu dövrdə xanlıq əsasən qubalı Fətəli xan tərəfindən Quba xanlığının tərkibinə birləşdirildiyi üçün Dağıstan hakimləri ilə olan münasibətlər Fətəli xanın birləşdirmə siyasətinə qarşı olmuşdu, yəni həmin hakimlər ilə Şamaxı xanları əlbir olmuşlar.

2. Şamaxı xanı Mustafa xanın hakimiyyəti dövründə yaranan mərhələ. Bu dövrdə Şamaxı xanlığının Dağıstan hakimləri ilə münasibətləri müstəqil olmuşdu.

Qeyd etdiyimiz kimi, birinci mərhələdə Dağıstan hakimlərinin bir çoxunun Şamaxı xanlığı ilə ittifaq yaratması qubalı Fətəli xanın birləşdirmə siyasətinə qarşı çevrilmişdir. Həmin dövrdə bu ittifaqın yaranması isə təbii idi. Çünki 1757-ci ildə Dərbəndin Quba xanlığı tərəfindən ələ keçirilməsi Dağıstan hakimlərini narahat etməyə bilməzdi.

Qubalı Fətəli xan Azərbaycan torpaqlarını birləşdirən zaman ən güclü rəqiblərindən biri Şamaxı xanlığı olmuşdur. Fətəli xan 1768-ci ildə Şamaxı xanlığını tabe edir və Şamaxı xanlığında hakimiyyətdə olan Sərkərlər sülaləsi 1774-cü ilə kimi xanlıqda hakimiyyətdən tamamilə məhrum edilirlər. Lakin sülalə üzvləri Fətəli xana qarşı mübarizələrini davam etdirirlər. Bu mübarizədə Dağıstanın bəzi hakimləri ilə birlikdə Qarabağ xanı İbrahimxəlil xan da iştirak edirdi. Çünki Fətəli xan Şamaxı xanlığının əlverişli strateji mövqeyindən istifadə edərək Şəki və Qarabağ xanlıqlarını da öz hakimiyyəti altına salmağa hazırlaşırdı (60, 48). Birgə mübarizənin nəticəsi kimi baş verən məlum Gavduşan döyüşündə Fətəli xan məğlub olur. Həmin döyüşdən sonra Ağası xan (1735 - 1758) Şamaxıda qısa müddətdə hakimiyyətini bərpa edir. Məğlubiyyətdən sonra Fətəli xanın Şamaxı xanlığına qarşı mübarizəni gücləndirdiyi həmin dövrdə Şamaxı xanı Ağası xan şəkili Hüseyn xan həm də Dağıstan hakimləri Nutsal xan, Qaytaq usmisi Əmir Həmzə ilə ittifaq bağlayır (82, 186). Fətəli xan bu ittifaqa qarşı çıxaraq, əks – hücuma keçir və müttəfiqlər üzərində qələbə çalaraq, Şamaxını yenidən öz hakimiyyəti altına keçirir. Döyüş zamanı isə Ağası xanın müttəfiqlərindən olan Avar hakimi Nutsal xan öldürülür (82, 185).

Şamaxı xanlığının Dağıstan hakimləri ilə münasibətlərini Qarabağ xanlığına qarşı ittifaqda da izləmək mümkündür. Şamaxı xanlığının Qarabağ xanlığı ilə də münasibətləri dövrün xarakterinə uyğun olaraq, dəyişkən olmuşdur. Məhz Dağıstan hakimləri Qarabağ xanlığı ilə Quba xanlığı arasında Şamaxı xanlığı uğrunda gedən mübarizədə gah bu, gah da digər tərəfin mövqeyindən çıxış edirdilər. Belə ki, Dağıstan hakimlərindən olan Şirin ağa Ağası xan və Şəki hakimi Məhəmmədhəsən xanla görüşərək Qarabağ xanlığı üzərinə birgə hücum etmək haqda razılığa gəlmişlər. Azərbaycan xanları öz öhdələrinə götürmüşdülər ki, Qarabağa təşkil edilən həmin yürüşdə əldə ediləcək qənimət dağıstanlılara veriləcək, bundan əlavə isə döyüşçülərdən hər birinə müəyyən məbləğdə pul ödəniləcəkdir. Daha sonra həmin məsələ ilə əlaqədar digər bir məlumatdan aydın olur ki, Şəki xanı Məhəmməhəsən xan və Ağası xan Tarku Şamxalı Xaspoladla görüşmüş və razılığa

gəlmişdilər ki, dağıstanlı Surxay xanın qardaşını da cəlb etməklə Qarabağ üzərinə yürüş təşkil etsinlər (3, 74).

Şamaxı xanı Mustafa xanın dövründə (1792 - 1820) Dağıstan hakimləri ilə yeni münasibətlər diqqəti cəlb edir. Əvvəlki dövrdən fərqli olaraq, Mustafa xanın dövründə yadelli hücumları ilə əlaqədar xan Dağıstanın hakimləri ilə müəyyən münasibətlər qurmağa çalışmışdır. Əvvəl qeyd etdiyimiz kimi, 1796-cı ildə V. Zubovun Cənubi Qafqaza yürüşü zamanı şamaxılı Mustafa xanın və qarabağlı İbrahimxəlil xanın, avar və Qazıqumuq hakimləri ilə birlikdə V. Zubova qarşı qəsdi hazırlanmışdı. Lakin məlumdur ki, həmin qəsd baş tutmur.

Çar məmurlarından olan general Lazarevin general Knorrinqə 1801-ci ilin aprelində yazdığı raportundan məlum olur ki, qarabağlı İbrahimxəlil xan ilə şamaxılı Mustafa xan ittifaq bağlayanda şəkili Məhəmmədhəsən xan, qubalı Şeyxəli xan və Qazıqumuq hakimi Xanbutay xan qüvvələrini birləşdirib Mustafa xanın üzərinə hücum edirlər. İbrahim xan isə 2000 nəfərlik dəstəni oğlunun rəhbərliyi ilə Mustafa xanın köməyinə göndərir (61, III c., sən. 972).

Göründüyü kimi, Şamaxı xanlığının Dağıstan hakimləri ilə qarşılıqlı münasibətləri müxtəlif istiqamətli olmuşdur. Bu istiqamətlərdən biri də Rusiyanın Qafqazı işğal siyasəti ilə bağlı olnuşdur. Belə ki, 1805-ci il dekabrın 27-də çar Rusiyası tərəfindən Şamaxı xanlığının siyasi müstəqilliyinə son qoyulur. Türkiyə tarixçisi İ. Yükselin yazdığına görə, Şamaxı xanlığı Rusiya tərəfindən işğal edilsə də, Mustafa xan bir müddət Rusiyanın təsirindən xilas ola bilmişdir. Bu zaman o, Dağıstan hakimlərindən olan Putay xanla Rusiyaya qarşı ittifaqa girmişdi (51; 52, 43).

Şamaxılı Mustafa xanın Dağıstan hakimləri ilə qohumluq əlaqəsi də olmuşdur. Belə ki, Avar hakimi Surxay xan Mustafa xanın qızı ilə evlənmişdir. Surxay xan Avar xanlığından qaçarkən Mustafa xanın yanında sığınacaq tapmışdı. Mustafa xan çar məmuru general Yermolovun xəbərdarlığına baxmayaraq, onun Şamaxı xanlıığının ərazisindən keçərək İrana getməsinə şərait yaratmışdır (90, 80).

Beləliklə, istər Azərbaycan xanlıqlarının bir – biri ilə apardığı mübarizədə, istərsə də yadelli işğallarına qarşı mübarizədə Şamaxı xanlığı ilə Dağıstan hakimlərinin hamısı olamasa da, əksəriyyəti sıx əlaqəda olmuşdur.

# III FƏSİL

# ŞAMAXI XANLIĞININ QONŞU DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİ

## 3.1. Şamaxı xanlığının İranla münasibətləri

Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində özünün dövlətçilik ənənələrini çətinliklə də olsa, qoruyub saxlaya bilmişdir. XVIII yüzillik Azərbaycan tarixi dövrü özünün mürəkkəb və ziddiyyətli cəhətləri ilə fərqlənir. XVIII yüzilliyin ortalarında Azərbaycan ərazisində yaranmış xanlıqlar, o cümlədən Şamaxı xanlığı ərazi cəhətdən kiçik olmalarına baxmayaraq, öz müstəqilliklərini qoruyub saxlamaq, qonşu dövlətlərlə qarşılıqlı münasibətlərini tənzim etmək üçün özünəməxsus xarici siyasət yeritmişlər. Şamaxı xanlığının xarici siyasət xəttinin obyektiv şəkildə təhlili həmin dövrün beynəlxalq vəziyyətini və onun bu prosesə göstərdiyi təsirin vacibliyini üzə çıxarır. Lakin göstərilən dövrdə Şamaxı xanlığının daxili-siyasi vəziyyətini də nəzərdən qaçırmaq olmaz. Xanlığın daxili-siyasi vəziyyəti də birbaşa onun xarici siyasət xəttini müəyyən edirdi.

Belə ki, Şamaxı xanlığının geosiyasi mövqeyi onun qonşu dövlətlər arasında vacib yer tutmasına səbəb olmuşdu. Şamaxı xanlığının xarici siyasətində xan tərəfindən taxt-tacda öz hakimiyyətini möhkəmləndirmək, onu qorumaq, xarici iqtisadi əlaqələrini təmin etmək başlıca yerlərdən birini tuturdu. Lakin xanlıqlararası daxili çəkişmələr onun bu siyasətinə böyük zərbə vururdu. Şamaxı xanlığının xarici siyasətinə nəzər saldıqda burada, ilk növbədə qonşu dövlətlərlə olan münasibətlər diqqəti cəlb edir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- İranla münasibətlər;
- Osmanlı dövləti ilə münasibətlər;
- Rusiya ilə münasibətlər;

Şamaxı xanlığının qonşu İran ilə ilk münasibətləri XVIII yüzilliyin ikinci yarısından, yəni xanlığın yarandığı dövr - ikihakimiyyətlik illərindən başlamışdır.

Nadir şahın ölümündən sonra onun yaratdığı imperiyada şah taxt-tacı uğrunda baş verən qanlı müharibələrin güclənməsi Azərbaycanın digər xanlıqları kimi Şamaxı xanlığına da təsirsiz qalmamışdı.

Bu zaman Azərbaycanda və İranda 20-yə yaxın nüfuzlu sərkərdə şah hakimiyyəti uğrunda mübarizə aparırdı (19, 20). Hakimiyyət uğrunda mübarizədə Əmiraslan xan və Adil şah qarşıdurması (1748-ci il - N.B.) zamanı Azərbaycanın şimalında yerləşən xanlıqlar Əmiraslan xanın ali hakimiyyətini tanımaqdan qəti şəkildə imtina etdilər. Qeyd olunan vaxt Şamaxı xanlığını da silah gücünə tabe etmək cəhdi uğursuz oldu (37, 152). Lakin əvvəldə qeyd etdiyimiz kimi, Əmiraslan

xan ilə mübarizədə ona qalib gələn İbrahim Mirzə (Nadir şah Əfşarın qardaşı idi - N.B.) şamaxılı Hacı Məhəmmədəli xandan hərbi dəstə istəməsinə müsbət cavab verir. Şamaxı xanının bu hərəkətindən razı qalmayan Quba, Şəki və Salyan hakimləri Yeni Şamaxıya qoşun yeridəndə şah Hacı Məhəmmədəli xanın köməyinə gəlir.

İranda taxt-tac uğrunda Qacarlarla Zəndilər arasında baş verən qarşıdurma zamanı Şamaxıda ikihakimiyyətlilik dövrü idi. Bu zaman Hacı Məhəmmədəli xan Qacarlara qarşı idisə, Zəndilər isə güman edirik ki, Qacarların Azərbaycanın Şimal torpaqlarına olan iddiası ilə əlaqədar olaraq, əks tərəflə - yəni Köhnə Şamaxıda Sərkərlərlə ittifaqa üstünlük verə bilərdilər. Düzdür, mənbələrdə Zəndilərin Sərkərlərlə ittifaqına dair və yaxud onların Şamaxı xanlığına yürüş etməsinə aid heç bir məlumata rast gəlinmir.

XVIII yüzilliyin 50-ci illərində İranın şimalında hakimiyyətini möhkəmləndirən, sonra isə bütün keçmiş Nadir şah imperiyasına sahib olmaq istəyən Məhəmmədhəsən xan Qacar belə hesab edirdi ki, urmiyalı Fətəli xan Əfşar Azərbaycanın cənub xanlıqlarını özünə tabe etdikdən sonra onun Arazdan şimalda yerləşən xanlıqları da birləşdirmək niyyəti, sözsüz ki, həmin xanların etirazına səbəb olacaqdır. Odur ki, Məhəmmədhəsən xan Qarabağ, Şəki, Quba və Bakı xanları ilə bərabər, Şamaxı xanı Hacı Məhəmmədəli xana da Fətəli xan Əfşara qarşı ittifaq bağlamağı təklif edir. Yardım göstərməkdən imtina edən həmin xanlardan intiqam almaq üçün Məhəmmədhəsən xan Azərbaycanın Arazdan şimalda yerləşən torpaqlarına yürüş edir.

Yaranmış təhlükə qarşısında Azərbaycan xanlarından bir neçəsi aralarında olan narazılığı unudub ümumi düşmənə qarşı qüvvələrini müvəqqəti də olsa, birləşdirə bilirlər. Yaranmış vəziyyətdən istifadə edən Hacı Məhəmmədəli xan və qarabağlı Pənahəli xan birlikdə Şəki hakimi Səfərəli bəyi özlərinə tabe etdilər (104, 89; 67, 26). Həmin hadisələrlə bağlı G.Məmmədova rus konsulu Çekalevskiyə istinad edərək indiyə kimi tarixşünaslıqda qeyd olunmayan bir faktı ön plana çəkir və göstərir ki, Məhəmmədhəsən xanın yürüşü zamanı Şamaxı xanı bütün Ağsu əhalisini Fitdağ qalasına köçürmüşdü (104, 89). Yeri gəlmişkən qeyd edək ki, indiyə kimi tarixşünaslıqda yaranmış hər hansı bir təhlükə ilə əlaqədar əhalinin yalnız Mustafa xanın dövründə Fitdağ qalasına köçürülməsi göstərilirdi.

Ümumiyyətlə, 1761-ci ilə qədər davam edən ikihakimiyyətlilik şəraitində Şamaxı xanlığının İran və Türkiyə ilə münasibətləri xeyli ziddiyyətli olmuşdur.

1759-cu ildə Məhəmmədhəsən Qacara qalib gələn Kərim xan Zənd Mərkəzi İranda öz hakimiyyətini xeyli möhkəmləndirdikdən sonra urmiyalı Fətəli xan Əfşarı məğlub etməklə Azərbaycanın cənub xanlıqlarını da özünə tabe edir.Əsərlərin təhlilindən məlum olur ki, həmin dövrdə Azərbaycanın Arazdan şimalda yerləşən xanlıqlarının heç biri Kərim xan Zəndin hakimiyyətini qəbul etməmiş və müstəqil mövqe tutmuşlar. Lakin qeyd olunan dövrdə Rusiya hakimiyyət dairələrinə Qarabağ, İrəvan xanlıqları ilə bərabər, Şamaxı xanlığının da

İran hakimiyyətini qəbul etməsi haqda şayiələr çatdırılırdı (3, 57). O.P.Markovanın verdiyi məlumata əsasən isə şamaxılılar Kərim xan Zəndin ona tabe olmaq tələbini rədd etdiyinə görə, 1764-cü ildə o, Şamaxı xanlığı üzərinə yürüşə hazırlaşırdı. Lakin Kərim xanın qardaşı ilə olan mübarizəsi buna mane oldu (106, 142). Buna baxmayaraq, Kərim xan yenə də Şamaxıya olan iddiasından əl çəkmirdi. Qışı Təbrizdə keçirməyi planlaşdıran Kərim xan Zənd şamaxılı Məhəmmədsəid xana tabe olmayacağı təqdirdə yazda Şamaxıya yürüş edəcəyini bildirmiş və yenə də Məhəmmədsəid xandan rədd cavabı almışdı (78, 57).

Kərim xan Zəndin vəfatından sonra İranda hakimiyyət uğrunda mübarizədə Qacarların nümayəndəsi Ağa Məhəmməd xan qalib gəlir. O, on səkkiz yaşından İran taxt-tacı uğrunda mübarizəyə qoşulmuşdu (77, I c, 233). “Tarixi-Safi”də göstərilir ki, Ağa Məhəmməd Qacar 1785-ci ildə Tehranda şahlıq taxtında oturur, oranı ölkənin paytaxtı elan edir, adını da Dar-ül xülafə adlandırır (35, 52). Lakin tarixi ədəbiyyatdan məlumdur ki, Ağa Məhəmməd xan 1796-cı ildə şahlıq titulunu qəbul etmişdir. Əhməd Zəki Vəlidi Toqanın qeyd etdiyinə görə, Qacarlar bütün xalqın qəbul etdiyi hökmdar sülaləsi deyildir (44[a],71). Onun İranda möhkəmlənməsi və siyasi təsirini Azərbaycanın cənub xanlıqlarına yayması Azərbaycanın Arazdan şimalda yerləşən xanlıqları üçün də ciddi təhlükə törədirdi.

Keçmiş Səfəvilər dövlətinin sərhədləri hüdudlarında öz imperiyasını yaratmağa çalışan Ağa Məhəmməd xan Azəroaycanın bütün torpaqlarını və Gürcüstanı da ələ keçirməyə çalışırdı. Bunun üçün təbii ki, bəhanə lazım idi. Əslində Qacarın Azərbaycana və Gürcüstana yürüşü birbaşa Cənubi Qafqaz uğrunda Rusiya-İran qarşıdurması idi.

1787-1791-ci il Rusiya-Osmanlı müharibəsində Rusiyanın qələbəsi onun Qafqaz siyasətinin daha da fəallaşmasına şərait yaratmış, Türkiyənin isə əl-qolunu bağlamışdı. Tarixşünaslıqda belə bir fikir var ki, Osmanlı dövləti Rusiyanın Qafqaz siyasətinə zərbə vurmaq üçün Qacarın Azərbaycana və Gürcüstana yürüşünə göz yumur və bu yürüş haqqında xəbər Türkiyədə alqışlarla qarşılanır. Rusiyanın xarici siyasət arxivindəki sənədlərə istinad edən H.Sadıqov (40, 63; 41, 38) və F.Əliyev (21, 81) qeyd edirlər ki, 1774-cü il Kiçik Qaynarca və 1791-ci il Yassı müqaviləsi əsasında rəsmi surətdə Zaqafqaziyadan (Cənubi Qafqaz - N.B.) əlini çəkməli olan Türkiyə bu zaman bir növ düşməni “başqasının əli ilə vurmaq” siyasətini yürüdərək rusların buraya edilə biləcək təcavüzünün qarşısını almaq məqsədilə İrana kömək etmək qərarına gəlir. Daha sonra arxiv sənədlərinə istinad edən H.Sadıqov göstərir ki, Gürcüstan və İrəvan xanlığı sərhədlərində Osmanlı dövlətinin Anadolu və Axalsıxda külli miqdarda qoşun toplaması barədə məlumat vardı. Həmin dövrdə Türkiyə ərazisindən keçib Azərbaycana qayıdan tacirlər xəbər vermişdilər ki, türk əsgərləri Bəyaziddə, Vanda, Qarsda və Ərzurumda toplaşıb... Ağa Məhəmməd xana kömək etmək fikrindədirlər” (40, 63).

Bu sənədlərin Rusiyanın xarici siyasət arxivinə daxil olduğu dövrü və bu zaman Rusiya ilə Osmanlı dövlətinin münasibətini yada salsaq, adlarını çəkdiyimiz

müəlliflərin həmin mənbəyə istinad edərək verdiyi məlumatlar həqiqətdən kənar deyil, yəni Osmanlı dövlətinin Qacara yardım etməsi təbii görünə bilər. T.Mustafazadə isə bu barədə qeyd edir ki, şah İstanbula müraciətində bildirirdi ki, Rusiyaya qarşı müharibəyə hazırlaşır və yazda yürüşə çıxacaq. Bunun üçün 150 min nəfərlik qoşun toplayacaq. Türkiyə bu işdə ona kömək etməli, II İrakliyə qarşı qoşun göndərməlidir. Osmanlı hökuməti bu təkliflə razılaşmayaraq bildirmişdi ki, Rusiya ilə Türkiyə arasında mövcud olan müqaviləyə zidd olduğu üçün o, II İrakliyə qarşı qoşun göndərə bilməz (37, 247) .

Türkiyə tarixçilərinin bir çoxu, o cümlədən C.Gökce isə Qacarın Cənubi Qafqaza yürüşü zamanı Osmanlı dövlətinin durumunu, Qacara yardım etməsi fikrini aşağıda göstərilən məlumatla təkzib edir. Müəllif göstərir ki, Türkiyə Qacarın yürüşünə, göz yumur, əksinə, 1787-ci ildə Osmanlı dövlətinin Avstriya və Rusiya ilə apardığı müharibə dövründə İranın bitərəf qalmasına cavab olaraq Türkiyə Rusiyaya qarşı hər hansı bir ittifaq və ya hərbi yardım və müdaxilədən vaz keçir (50, 182).

Deyilənlərə onu da əlavə etmək istərdik ki, Qacar Cənubi Qafqaza yürüşü zamanı Napoleon Fransasından da dəstək almışdı. Belə ki, 1796-cı ildə İran ilə Fransa hökuməti arasında Rusiya ilə müharibə aparmaq üçün danışıqlar aparılır (93, 225). Bu danışıqların isə kökü var idi: XVIII yüzilliyin sonunda İngiltərə və Fransanın müstəmləkə siyasəti güclənir. İranın Yaxın və Orta Şərqdə işğalçılıq siyasətinə qarışmaq üçün fürsət lazım idi. Hindistana quru yol ilə getmək üçün isə İran ərazisindən keçib getmək axtarılan sualın cavabı ola bilərdi.

Ağa Məhəmməd xan Qacar Azərbaycanın cənub xanlıqlarını tabe etdikdən sonra Arazdan şimalda yerləşən Azərbaycan xanlıqlarının da ona tabe olmasını tələb edir. Qacarın Azərbaycana hücumu ilə xanlararası müharibələr dayanır (15, 17). Qarabağ, Lənkəran xanları kimi şamaxılı Mustafa xan da onun tələbini rədd edir. Q.P.Butkov göstərir ki, Ağa Məhəmməd xanın 1795-ci il yürüşü zamanı Mustafa xan ona tebe olmaqdan imtina edərək Rusiyadan kömək almaq üçün yollar axtarmışdır (74,11 hissə, 332). Əslində isə o, Fitdağ qalasında möhkəmlənməyə hazırlaşırdı. İbrahim Yüksel isə göstərir ki, Azərbaycanın şimal xanlıqlarının bəziləri Ağa Məhəmməd Qacara qarşı Osmanlı dövlətindən yardım istəmişdir (51, 30). Həmin məlumat Türkiyə Respublikasının Baş Bakanlıq Arxivinin “Xətti-Humayun” fondundan əldə etdiyimiz bir sənədlə təsdiqlənir. Bu barədə növbəli bölmədə ətraflı məlumat veriləcəkdir. Şamaxılı Mustafa xanın, eyni zamanda həm Rusiyaya, həm də Osmanlı dövlətinə müraciət etməsi onun öz xanlığının müstəqilliyini qorumaq üçün manevr etdiyini bir daha sübut edir.

Tarixi ədəbiyyatdan məlumdur ki, Azərbaycanın şimal xanlıqlarından rədd cavabı alan Ağa Məhəmməd xan Qacar 1795-ci ilin iyununda böyük miqdarda qoşunla üç istiqamətdə Azərbaycana hücum etmişdi. Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüşü üçün nəzərdə tutulmuş ordusunun sayı və tərkibi haqqında müxtəlif məlumatlar vardır. C.Malkolm (130, 104) bu ordunun sayının

60 min nəfər, P.Zubov (90, 60) 60-80 min nəfər, P.Q.Butkov (74, 331) isə daha çox 50-100 min arasında olduğunu göstərir.

Üç istiqamətdə hərəkət edən Qacar qoşununun digər istiqamətlərdəki fəaliyyəti birbaşa mövzumuzla bağlı olmadığından onlar haqqında məlumat verməyə ehtiyac görmürük. Birbaşa Şamaxı xanlığının ərazisi ilə bağlı olan sağ cinahla hərəkət etməli olan hissəsinin fəaliyyəti haqqında məlumatlar olduqca azdır. C.Malkolm yazır ki, ordunun bu hissəsi qarşısında Muğan, Şirvan və Dağıstanı ələ keçirmək vəzifəsi qoyulmuşdu (130, 105). Qacar ordusunun bu hissəsinin Şamaxı və Şəki xanlıqlarının ərazisinə daxil olması və yerli əhalinin ona hansı münasibət bəsləməsi haqqında məlumatlar çox azdır və ziddiyyətlidir.

Təəssüflə qeyd etməliyik ki, XVIII yüzilliyin ikinci yarısı xanlıqlar dövrü tarixi hadisələrini diqqətlə izləyəndə, əksər Azərbaycan xanlarının çox vaxt bir-biri ilə düşmən münasibətində olduğunu, xarici təcavüzə qarşı birləşmək iqtidarında olmadıqlarını müşahidə etmək mümkündür. Məsələn, rus tarixçisi N.Dubrovin göstərir ki, Ağa Məhəmməd Qacarın Azərbaycanın şimalına yürüşü ərəfəsində Şəki, Şamaxı və Bakı xanlıqları tərəddüd edirdilər. Onlar son nəticədə öz mülklərini İran ordusunun talanlarından xilas etmək naminə Qacardan vassal asılılığını qəbul etdiklərini bildirirdilər. Qubalı Şeyxəli xan da Ağa Məhəmməd xanın hakimiyyətini tanıdığını bildirdi. Bunun səbəbi Ağa Məhəmməd xanın bütün Şirvanın hakimliyini ona tapşıracağı haqda vəd verməsi idi (83, 10).

Lakin F.Dubrovinin fikrinin əksinə olaraq, XVIII yüzilliyin sonlarında Ağa Məhəmməd xan Qacarın Azərbaycanın Arazdan şimaldakı torpaqlarına yürüşə hazırlaşması zamanı bu təhlükəyə qarşı Azərbaycanın şimal xanlıqlarının, o cümlədən Şamaxı xanlığının birləşmək təşəbbüsünü görürük. Bu təşəbbüslər istər Rusiya, istərsə də Osmanlı mənbələrində öz əksini tapmışdır. Qeyd etdiyimiz kimi, məhz, “Ağa Məhəmməd xanın yürüşü ərəfəsində Qarabağ, Gəncə və Şamaxı xanları digər hakimlərlə bir ittifaqa gələ bilmişlər” (48, s. 6748; 55, 45, 140). Bu zaman (1795-ci ilin yayı - N.B.) Ağa Məhəmməd xandan ona tabe olması tələbini alan İrəvan xanı da adları çəkilən xanlıqlarla ittifaq bağlayıb Qacara qarşı müqavimət göstərmək qərarına gəlmişdi (37, 234). İbrahimxəlil xan və Məhəmməd xan tərəfindən türk sultanına göndərilən ittifaq haqqında məktubları Seyid Abdulla Çələbi və Hacı Zeynal ağa təqdim etmişdilər (55, 141-142).

Ənənəyə görə, şah tacını qoymaq istəyən şəxs keçmiş imperiyanın sərhədlərini bütövlükdə bərpa etməli, tac qoyma mərasimi isə Ərdəbildə keçirilməli idi (37, 228). Digər bir müəllifə görə isə şahlığa iddiaçılar bütün Cənubi Qafqazı və İranı öz hakimiyyətlərinə tabe etdikdən sonra Muğanda tac qoyardılar. Ağa Məhəmməd xan da bu məqsədlə Muğana gəlir (43, 11). Əslində isə məqsəd Azərbaycanın Şimal xanlıqlarını, ilk növbədə Şamaxı xanlığını tabe etmək idi.

Şamaxılı Mustafa xan Qacara tabe olmaqdan açıq şəkildə imtina etmişdi. Arxiv sənədindən bəlli olur ki, Ağa Məhəmməd Qacarın Gürcüstandan Azərbaycana qayıtmasını eşidən Şamaxı xanı xanlığın mərkəzi Ağsu şəhərini tərk

edərək, Fitdağ qalasına çəkilmişdi (8, 57). Bu hadisəni təsdiq edən M.Biberşteyn yazır: "Fitdağ qalasına çəkilən Mustafa xan burada 1796-cı ilin fevralınadək gözləməli olur" (70, 22), Hadisələrin sonrakı gedişi göstərir ki, Mustafa xanın gördüyü bu tədbir heç də əbəs deyildir. Tezliklə Ağa Məhəmməd xan özünün iki sərkərdəsini - Süleyman xanı və Mustafa xan Dəvəlini Şirvan torpaqlarına göndərmişdi (116, 117-118).

Şamaxı xanlığı üzərinə göndərilən qoşunların miqdarı haqqında da müxtəlif fikirlər mövcuddur. Q.P.Butkovun məlumatına görə, 1795-ci ilin noyabrında Ağa Məhəmməd xanın sərkərdəsi Süleyman xan 20 min nəfərdən ibarət qoşunla tabe olmaq istəməyən şamaxılı Mustafa xanın üzərinə hücum edir (74, 354). Bu zaman şəkili Məhəmmədhəsən xan Qarabağ və Şamaxı xanı kimi Ağa Məhəmməd xana müqavimət göstərmək əvəzinə, Şamaxı xanlığının ərazisinə hücum edən Qacar qoşunlarına qoşulmuşdu (64, 92). Digər bir əsərdə onun bu hərəkəti haqqında yazılır: "Şəki xanı öz mənsəbi və mənafeyi xatirinə, düşmənçilik etdiyi bəzi xanlardan intiqam almaq məqsədilə Qacarın tərəfinə keçdi və Ağa Məhəmməd xanın Şirvanı ələ keçirmək üçün göndərdiyi dəstəyə qoşuldu" (29, 42). Məhəmmədhəsən xanın Qacar ordusuna qoşulmasından istifadə edən qardaşı Səlim xan uzun müddət gizləndiyi Car-Balakən camaatından kömək alaraq Şəkiyə hücum etdi və hakimiyyəti ələ keçirdi. Göynük kəndi yaxınlığında baş vermiş döyüşdə qardaşı üzərində qələbə çalan Səlim xan (31, 27) Qacar qoşunlarına qarşı mübarizədə Şamaxı xanı Mustafa xanla müttəfiq olmuşdu.

Ə.Tahirzadə isə Ağa Məhəmməd Qacara həsr etdiyi əsərində göstərir ki, Qacar öz sərkərdəsi Məhəmmədhəsən xan Qacarı (şəkili Məhəmmədhəsən xan nəzərdə tutulur. Burada müəllif yanlış olaraq Çələbi nəslindən olan şəkili Məhəmmədhəsən xanı qacarlar nəslinin nümayəndəsi kimi göstərmişdir - N.B.) ağır toplarla Şamaxı qalasını alaraq, Şirvanı (Şamaxı xanlığının ərazisi nəzərdə tutulur - N.B.) tutmağa, Mustafa xanı itaətə gətirməyə göndərir. Mühasirənin 12-ci günü şəhər qalası top atəşlərindən dağıdılır. Müharibə qanunlarına görə, şah müqavimət göstərən Şamaxı əhalisini cəzalandırmalı idi. Lakin şah Şamaxıda, qarət fərmanı vermir, bac almır, hətta əsgərlərə çatası qənimətin xərcini özü ödəyir (44, 36).

Lakin Ə.Tahirzadənin verdiyi məlumatları dövrün mənbələri təsdiq etmir. Belə ki, Mustafa xan Dəvəlinin əhaliyə qarşı qəddarlığı onun əhali tərəfindən qətlə yetirilməsi ilə nəticələnir. Bu barədə "Tarixi Qacariyyə" (131, 47-48) də göstərilir ki, Qacar Tiflisdən qayıdarkən Mustafa xanın ona tabe olmaması haqqında məktubuna rədd cavabı verdiyi üçün öz sərkərdəsi Mustafa xan Dəvəlini 12 minlik qoşunla Şirvana (Şamaxıya - N.B.) göndərdi. Mustafa xan Dəvəliyə bu işdə şəkili Məhəmmədhəsən xanın yardım etdiyini qeyd etdiyimiz həmin əsərin müəllifi də təsdiq edir. Qacar ordusu müdafiəsiz qalan Ağsu şəhərinə daxil olaraq, onu amansız şəkildə dağıtmışdı. Bundan bir az sonra Ağsuda olmuş M.Biberşteyn yazır ki, "bu şəhəri acınacaqlı bir vəziyyətdə, əhalini isə yarımuçuq daxmalarda yaşayan gördük" (70,18).

Ağa Məhəmməd xanın ordusunun törətdiyi vəhşiliklərə qarşı Şamaxı və Şəki xanlıqlarının əhalisinin azadlıq mübarizəsinə qalxmasını dövrün mənbələri təsdiqləyir. Mustafa xanın özünün rəhbərlik etdiyi Şirvan əhalisi silaha sarılaraq Qacar qoşunlarına ağır zərbə vururdu. Döyüşlərin birində şamaxılılar qəflətən hücuma keçərək Ağa Məhəmməd xanın düşərgəsinə getmək istəyən Mustafa xan Dəvəlini öldürmüş və onun bütün mühafizə dəstəsini məhv etmişlər (64, 93) Bundan sonra başsız qalan Qacar ordusu tələsik Şirvan torpaqlarını tərk etməyə məcbur olmuşdu.

Mustafa xan Dəvəlinin yerli əhali tərəfindən öldürülməsi xəbərini eşidən Ağa Məhəmməd xan Qacar çox məyus olur və onun yerinə sərkərdəsi Əliqulu xan Qacarı təyin edərək Şamaxıya qoşun göndərir. "Tarixi Qacariyyə"də müəllif Əliqulu xan Qacarın Fitdağ qalasını mühasirəyə almasından və bir müddətdən sonra Mustafa xanın xərac verməyə razı olmasından bəhs edir (131, 47-48). Əslində isə Mustafa xan Qacara heç bir xərac verməmiş, əksinə, Mustafa xan Qacar qoşunlarının Dərbənd istiqamətində hərəkətinə mane olmuşdur. Hadisələri diqqətlə izləsək görərik ki, şamaxılı Mustafa xan Ağa Məhəmməd xan Qacarın Dərbənd istiqamətində hərəkətinə mane olmaqla, əslində Rusiyanın bu istiqamətdə yürüşə hazırlaşmasını asanlaşdırmışdı. Toqquşma zamanı şamaxılılar 3000 İran sərbazını öldürdükləri halda, özləri 100 döyüşçü itirirlər. Mustafa xan həmçinin Qacar Tiflisi qarət edən zaman ələ keçirilən 4 topu qənimət kimi götürür. Qacar istədiyinə nail ola bilməyib, İrana qayıdarkən, Mustafa xan Səlim xan ilə Şamaxı yaxınlığında görünürlər (74, 354). Qacar Mustafa xan ilə bir ittifaqda olan Səlim xanı qardaşı Məhəmmədhəsən xanın "əli ilə vurmağa" çalışırdı. Qacar sərkərdəsi Süleyman xanın qoşunları ilə birlikdə şəkili Məhəmmədhəsən xanın qoşunlarının da bu yürüşdə iştirak etməsinə baxmayaraq, Ağa Məhəmməd xan Qacar istədiyinə nail ola bilmədi və şəkili Məhəmmədhəsən xanın gözlərini çıxartdırıb Təbrizə göndərdi (101, 173). Müəllif daha sonra göstərir ki, yerli əyanlardan Hacı Səid və Hacı Nəbi Məhəmmədhəsən xanın Mustafa xan Dəvəliyə xəyanət etdiyini bildirirlər. Bundan bir müddət sonra Dəvəli Məhəmmədhəsən xanın yerinə qardaşı Səlim xanı təyin edir. Bu addımı atmaqla Mustafa xan Dəvəli, əslində Səlim xanın Mustafa xan ilə ittifaqını pozmağa çalışırdı.

Beləliklə, Ağa Məhəmməd Qacarın Cənubi Qafqaza I yürüşü Azərbaycan xanlarının, o cümlədən Şamaxı xanı Mustafa xanın itaətsizliyi səbəbindən uğursuzluqla nəticələnir və o, bu ərazini tərk etmək məcburiyyətində qalır. Hadisələrin xronoloji çərçivəsində xeyli dolaşıqlığa yol verməsinə baxmayaraq, R.İsmayılov da öz əsərində (30, 76) Ağa Məhəmməd Qacarın Azərbaycanın şimal torpaqlarını tərk etməsi məsələsinə toxunmuş və "azuqənin azlığı və süvari qoşun atlarının qırılması"nı Qacarın İrana qayıtması səbəblərindən biri kimi göstərmişdi.

1797-ci ilin baharında rus qoşunlarının Azərbaycana məlum yürüşü başa çatdıqdan sonra Ağa Məhəmməd xanın Cənubi Qafqaza olan iddialarını gerçəkləşdirmək üçün yenidən əlinə fürsət düşür. Lütfəli xanın müqavimətini

qırandan sonra İranda öz mövqeyini möhkəmləndirən Ağa Məhəmməd Qacar 1796-cı ilin martında şah tacını başına qoyur. Qacar ikinci yürüşə başlamazdan əvvəl Azərbaycanın şimal xanlarına, o cümlədən Şamaxı xanına hədələyici məktublar göndərir. Mustafa xandan rədd cavabı aldığı üçün Qacar ondan intiqam almağı qətiləşdirir. V.Leviatov göstərir ki, Şuşanın ələ keçirilməsindən sonra ehtiyat edən Mustafa xan Səlim xan ilə birlikdə elçiləri vasitəsilə Qacara tabe olduğunu bildirir [101, 191]. Bu isə həmişə ikili siyasət aparan şamaxılı Mustafa xanın növbəti diplomatik manevrlərindən biri idi. Çünki Mustafa xan bu zaman yenə də Fitdağ qalasında xanlığın müdafiəsinə hazırlaşırdı. Mustafa xan Fitdağ qalasında olarkən özünü xan elan edən xanın əmisi oğlu Qasım xan qeyri-səmimi olsa da, şaha tabeliyini bildirir. Lakin tezliklə o, Mustafa xan tərəfindən devrilir və hakimiyyətdə qalmaq naminə Qacarın sarayına pənah aparır (13,437).

1797-ci ildə Qacarın Şuşada qətlə yetirilməsi ilə hesab etmək olardı ki, Şamaxı xanlığı İranın təqiblərindən xilas olacaq. Qacarın ölümündən sonra İranda hakimiyyətə onun qardaşı oğlu, mənbələrdə çox vaxt Baba xan adlandırılan Fətəli şah (1797-1834) gəlir. Qacar Şimali Azərbaycana ikinci yürüşə çıxarkən vəsiyyət edibmiş ki, başına bir qəza gələrsə, vəliəhdi Fətəli xan Şirazdan gəlib çıxana kimi Tehranın qapıları heç kimə açılmasın (37, 249). Onun hakimiyyətə gəlməsi ilə İranı yenidən hakimiyyət uğrunda feodal hərc-mərcliyi bürüyür. Bu mübarizə 1798-ci ilə kimi davam edir və Fətəli xan Hacı İbrahimin köməyi ilə rəqiblərinə qalib gələrək şahlıq taxtına sahib çıxır (100, 15). Bir müddət daxilən zəif olan İran Cənubi Qafqazın işlərinə qarışa bilmədi. Bu üzdən Fətəli şah hakimiyyətinin ilk dövründə Azərbaycanın Şimal xanlıqlarına qarşı mübarizəni davam etdirə bilmədi. Qarabağ, Gəncə, Şəki və Quba xanlıqlarından fərqli olaraq, Şamaxı xanı Mustafa xan Fətəli şahın tabe olmaq haqqında tələbini rədd etdi və "şah qələmi elə mənim özümdə də var", - deyə şahın hakimiyyətini tanımaq istəmədiyini bildirdi (101, 193).

Beləliklə, Şamaxı xanlığının İran hakimləri və ya Qacar dövləti ilə çox zaman çətin və ziddiyyətli münasibətlərini izlədikdə, bu münasibətlərin, əsasən Şamaxı xanlarının öz müstəqilliklərini qorumaq uğrunda apardığı mübarizə zəmnində qurulduğunu söyləmək mümkündür.

## 3.2. Şamaxı xanlığının Osmanlı dövləti ilə münasibətləri

Strateji mövqeyinə görə digər xanlıqlardan fərqlənən Şamaxı xanlığı daim şimal qonşusunun diqqət mərkəzində olmuşdur. Məhz bu səbəbdəndir ki, xanlıq yarandığı vaxtdan etibarən Rusiya təcavüzündən qorunmaq məqsədilə Osmanlı dövləti ilə siyasi əlaqələr yaratmağa cəhd göstərmişdir. "Nadir şah Əfşarın ölümündən sonra Azərbaycanın şimal torpaqlarında yerləşən Şəki, Bakı, İlisu sultanlığı, Quba, Şirvan (Şamaxı - N.B.), Gəncə və Talış (Lənkəran - N.B.) xanlıqları öz müstəqilliklərini elan edən kimi dərhal Osmanlı dövləti ilə siyasi əlaqələr qurmağa can atmışdılar. Bunun əsas səbəbi şimaldan Rusiyanın, cənubdan İranın təhlükəsindən qorunmaq idi" (57, 6).

Azərbaycan xanlıqlarının bir çoxu yarandığı ilk illərdən Türkiyə ilə sıx münasibətlər yaratmağa, onun dəstəyini qazanmağa çalışırdı (37, 249). Azərbaycan tarixşünaslığında xanlıqların, o cümlədən Şamaxı xanlığının Osmanlı dövləti ilə əlaqələrini prof. T.Mustafazadə və G.Nəcəfli araşdırmışdır. Tədqiqat zamanı hər iki müəllif xeyli türkdilli mənbə və ədəbiyyatları tədqiqata cəlb etmişlər. G.Nəcəfli Türkiyə tarixçiləri C.Gökçə və İ.Yükselə əsaslanaraq yazır: "1760-cı il tarixində Şirvan xanı Məhəmməd xan Çıldır valisi Süleyman paşaya yazdığı məktubunda onun diqqətinə gürcü çarı Teymurazın "Moskvayla anlaşmasını" - yəni ittifaqını çatdırırdı". Sonra müəllif həmin məktubu şərh edərək yazır: "Buradan aydın olur ki, Şirvan xanı (Şamaxı xanı - N.B) bu ittifaqdan bərk narahat olaraq baş verə biləcək təhlükənin qarşısını almaq üçün Çıldır valisi Süleyman paşa vasitəsilə Osmanlı dövlətinə müraciət etmişdir" (39, 34).

Türkiyə tarixçisi C.Gökçe əvvəldə adını çəkdiyimiz əsərini yazarkən Baş Bakanlıq Osmanlı Arxivində saxlanan "Xətti-Humayun" fondundakı sənədlərə istinad etmişdir. Azərbaycan xanlıqlarının şəcərəsi Türkiyə tarixçilərinə bəlli olmadığı üçün bu xanın Şamaxı və yaxud Şəki xanı olmasının fərqinə varmamışlar. (Osmanlı mənbə və ədəbiyyatlarında Şamaxı və Şəki xanları hər ikisi Şirvan xanı adlandırılmışdı) Bizim üçün isə bu məsələ çox önəmli olduğundan həmin sənədin sonunda hansı xanın (Şamaxı və yaxud Şəki) imzasının olmasını dəqiqləşdirmək üçün İstanbul Baş Bakanlıq arxivində sənədin orginal nüsxəsini araşdırmalı olduq. Hicri 1174-cü ildə (miladi 1759-1760-cı ilə təsadüf edir - N.B.) Çıldır valisi Süleyman paşaya göndərilmiş bu məktubun sonunda yazılmışdır: "Şirvan hanı Mehmed bin..." (48, sənəd, 225). Məktubun kodlaşdırılmış variantında isə məktubu yazan şəxsin adı "Şirvan hanlarından Mehmed bin Şeki handan" kimi göstərilmişdir. Halbuki ərəbcə yazılmış həmin məktubun sonunda xanın kimin oğlu olduğunu oxumaq mümkün olmamışdır. Məsələni qəlizləşdirən də məhz Məhəmməd xanın kimin oğlu olmasının oxunaqlı olmamasındadır. Əgər Şəki xanlarının türk sultanına "Şirvan xanı" imzasıyla məktub göndərməsini nəzərə alsaq, 1760-cı ildə Şəkidə Hüseyn xan hakimiyyətdə olmuşdur. Həmin dövrdə Şamaxı xanlığında isə Məhəmmədsəid xanın hakimiyyətdə olduğunu nəzərə alsaq,

məktubun Şəki xanı tərəfindən yox, Şamaxı xanı Məhəmmədsəid xan tərəfindən göndərildiyini bir daha təsdiq etmiş olarıq.

Şamaxı xanlığının Osmanlı dövləti ilə əlaqələrinin olması haqqında əsas məlumatları əsasən, əvvəldə qeyd etdiyimiz kimi rus mənbələri verir. Belə ki, Rusiya Xarici Siyasət Arxivinin məlumatlarına əsaslanan professor T.Mustafazadə yazır ki, Sərkərlər nəslindən olan Şamaxı xanları və xanlıq əhalisinin əksəriyyəti qəti surətdə Osmanlı imperiyasına meyil edirdi. Mənbəyə əsaslanan müəllif daha sonra qeyd edir: "Sünnü məzhəbli şamaxılı Ağası xan nümayəndəsini bizim yüksək saraya qarşı (Rusiyaya) yardım istəmək üçün həmetiqadı türklərin yanına göndərmək qərarına gəlmişdir" (37, 165). Qeyd olunan dövrdə Sərkərlər nəslinin digər nümayəndəsinin - Məhəmmədsəid xanın da Osmanlı dövləti ilə sıx əlaqəsinin olmasını izləmək mümkündür. Belə ki, gürcü çarı II İrakli Şamaxı xanı Məhəmmədsəidə Rusiya himayəsini qəbul etməsini təklif etdikdə Şamaxı xanı, razı olmur, hətta bu təklifə görə ondan inciyir (37, 165; 39, 37). Dövrün rusdilli sənədləri içərisində, hətta şamaxılı Ağası xanın Rusiyaya qarşı mübarizədə hərbi yardım xahişi ilə Türkiyə sultanına məktub göndərməsi haqda məlumat verilir (8, 12; 39, 37).

Qeyd olunan dövrdə şamaxılı Ağası xanın kömək üçün Osmanlı sultanına müraciət etməsi, əslində birbaşa Rusiyaya qarşı yox, Azərbaycan torpaqlarının birləşdirilməsində Rusiyadan dəstək alacağına ümid edən qubalı Fətəli xana qarşı çevrilmişdir. Çünki Ağası xan Dərbənd və Bakı xanlıqlarını tabe edən qubalı Fətəli xanın Şamaxı xanlığı üçün nə qədər ciddi təhlükə olduğunu bilirdi. Hətta Şamaxı xanları 1768-ci ildə Fətəli xan tərəfindən hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra belə, onlar yaranmış vəziyyətlə barışmaq istəmirlər. S.Hacıyevanın verdiyi məlumata görə də Ağası xan və Məhəmmədsəid xan Fətəli xana qarşı mübarizədə tez-tez Türkiyəyə müraciət edirdilər (78, 99).

Lakin 80-ci illərdə vəziyyət tamamilə dəyişmişdi. Bu baxımdan Rusiya konsulu İvan Vasilyeviç Tumakovskiyə Karl Latinsovun göndərdiyi "raport" daha maraqlıdır. Latinsev göndərdiyi raportunda yazırdı: "Bakıda mənə sadiq olan ermənilərdən öyrəndim ki, 1780-ci ilin avqust ayında Türkiyə sultanı tərəfindən şamaxılı Məhəmmədsəid xanın yanına elçilər (çaparlar) gəlibdir. Onların gətirdiyi məktubda nə yazıldığını öyrənmək mümkün olmayıb. Amma öyrəniblər ki, Şamaxı xanından türk sultanına göndərilən cavab məktubunda Rusiyanın bu yaxınlarda İrana dəniz eskadrası çıxaracağı haqqında olan məlumata (Bu məlumat bir il sonra özünü doğrultdu. 1781-ci ilin iyununda Rusiya imperiyası qraf Voynoviçin komandanlığı ilə Həştərxandan Astrabada hərbi eskadra göndərmişdi - 39, 41) əsasən xəbərdarlıq edilir. Bundan başqa, Şamaxı xanı Türkiyə sultanından özünü-müdafiə üçün pulla və ya qoşunla kömək göndərilməsini xahiş edirdi (39, 41). Göründüyü kimi, Şamaxı xanlarının 60-cı illərdə kömək üçün Osmanlı sultanına müraciət etməsi, əslində birbaşa Rusiyaya qarşı yox, Azərbaycan torpaqlarının birləşdirilməsində Rusiyadan dəstək alacağına ümid edən qubalı Fətəli xana qarşı

idisə, artıq 80-ci illərdə konkret olaraq Rusiya təcavüzündən qorunmağa yönəlmişdi.

Şamaxı xanlığının Osmanlı dövləti ilə münasibətləri haqqında qeyd etdiyimiz kimi daha çox rus mənbələri məlumat verir. Bu isə təbii ki, dövrün beynəlxalq vəziyyəti ilə əlaqədar idi. 1768-1774-cü illərdə Rusiya-Türkiyə müharibəsinin gedişində hər iki imperiya Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməyə çalışmışdı (əlavə məlumat üçün bax: 39, 36-38). Buna görə də Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətləri haqqında məlumat toplamaq üçün xanlıqların ərazisində Rusiya məxfi xidmət idarəsinin nümayəndələrinin və Azərbaycan ərazisində özlərinə "xristian dövləti" yaratmaq xülyasında olan ermənilərin Rusiya məxfi xidmət idarəsinə göndərdiyi "xəbərlər" mühüm yer tuturdu.

Həmin sənədlərdə Osmanlı sultanının Azərbaycan xanlarına müraciəti və xanların sultana yazdığı cavab məktubu haqqında çar sarayına daxil olan məlumatlar öz əksini tapır. Rusiya hakimiyyət orqanlarına məlumatların göndərilməsində daha çox canfəşanlıq göstərənlər içərisində Azərbaycan ərazisində ticarətlə məşğul olan ermənilər də var idi. Onların göndərdikləri məlumatların əksəriyyəti şayiə xarakterli idi. Belə ki, knyaz Qriqori ermənilərin 1783-cü il 6 aprel tarixli məktubu haqqında Potyomkinə yazaraq bildirirdi ki, Fətəli xan, Məhəmmədsəid xan və Ağası xan qardaşları, həmçinin Məhəmmədhəsən xan ermənilərə qarşı hücum edir, əsir götürür və s. (91, 223). Azərbaycan torpaqlarında özləri üçün dövlət yaratmaq arzusunda olan ermənilərin bu şayiələri göndərməkdə əsas məqsədi Rusiya imperiyasını bu əraziyə yürüş etməyə şirnikləndirmək və həmin yürüşü tezləşdirmək idi.

Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycan xanlıqlarına qarşı münasibətində Rusiya və İrandan fərqli olaraq, Osmanlı imperiyasının təcavüzkarlıq niyyəti olmamışdı. Əksinə, Rusiyanın təcavüzkarlıq siyasətinə qarşı Osmanlı sarayı Azərbaycan xanlıqları ilə, o cümlədən Şamaxı xanlığı ilə ittifaqa üstünlük verirdi. Lakin xanlıqlararası qarşıdurmalar onların Osmanlı imperiyası ilə əlaqələrinə zərbə vururdu. Bu mənada Osmanlı sultanı xanların birliyinə daha çox maraqlı idi. Dövləti Aliyyə (türk sultanı - N.B.) xanlar arasındakı anlaşılmazlıqların aradan qalxmasını istəyirdi. Onun başlıca məqsədi Rusiyanın bu vəziyyətdən istifadə edərək hücuma keçməsindən yaranacaq təhlükəni xanlara anlatmaq idi (50, 109-110).

XVIII yüzilliyin II yarısında Osmanlı dövləti çox böyük əraziləri əhatə etməsinə baxmayaraq, hərbi və iqtisadi cəhətdən xeyli zəifləmişdi ki, bu da ona Cənubi Qafqazda fəal siyasət yeritməyə imkan vermirdi. Avropa dövlətləri isə Türkiyəni müxtəlif yollarla hərbi ittifaqa cəlb etməklə onu daha da zəiflətmək təşəbbüsündə idilər.

Təsadüfi deyil ki, 1768-1774-cü illərdə Rusiya ilə Türkiyə arasında müharibə getdiyi zaman Avropa dövlətləri bu iki dövlətin qarşı-qarşıya durması ilə

onların Qafqaz siyasətinin zəifləyəcəyini güman edirdilər. Türkiyə tarixçisi A.N.Kurat da bu fikri təsdiq edərək yazır ki, Rusiya ilə ticarətdən böyük mənfəət güdən İngiltərə Türkiyənin bu müharibəyə hazırlıqsız girdiyini nəzərə alaraq, Rusiyaya 12 ingilis gəmisi kirayəyə vermişdir (54, 26).

Rusiyanın cənuba doğru irəliləməsi, Rusiya-Gürcüstan hərbi blokunun yaranması Azərbaycan xanlıqları üçün ciddi təhlükə yaradır, eyni zamanda Osmanlı imperiyasını da çox narahat edirdi. Bu haqda bir arxiv sənədində yazılır: "Azərbaycan xanlıqlarını Rusiya, Gürcüstan blokunun təcavüzündən qorumaq məsələsi Osmanlı dövlətini həmişə narahat edirdi. Çıldır valisi Süleyman paşa Bəyazit hakimi İsaq paşa ilə əlaqə saxlayıb Osmanlı dövləti adından 1784-cü ildə Şirvan xanına məktub göndərmişdi" (55, 90; 39, 64).

XVIII yüzilliyin II yarısında baş vermiş Rusiya-Osmanlı müharibələrinin (1768-1774; 1787-1791) Rusiyanın qələbəsi ilə qurtarması və Osmanlı dövlətinin Cənubi Qafqazda fəal siyasət yeritməkdən məhrum olması sultanı vadar edir ki, Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməklə Rusiyanın Qafqaz siyasətinə zərbə vursun. Bu dövrdə Osmanlı sultanının fərmanları Gəncə, Təbriz, Dərbənd və İrəvan xanlarına göndərildiyi kimi Şamaxı xanlarının xanlıqda hakimiyyətdə olmadıqlarına baxmayaraq, mənbələrin verdiyi məlumata görə Sərkər sülalə üzvlərindən Məhəmmədsəid xana və Ağası xana da belə fərmanlar göndərilmişdi. Lakin Rusiya hökuməti hər vasitə ilə Azərbaycan xanlarının Osmanlı dövləti ilə münasibətlərinin qarşısını almağa çalışırdı və bəzi vaxtlarda buna nail olurdu.

Mustafa xanın dövründə isə Şamaxı xanlığının Türkiyə ilə münasibətlərinə dair məlumatlar, əsasən Ağa Məhəmməd şah Qacarın və V.Zubovun Azərbaycana olan yürüşləri ilə bağlı olmuşdur.

İbrahim Yüksel göstərir ki, Azərbaycanın şimal xanlıqlarının bəziləri Ağa Məhəmməd Qacara qarşı Osmanlı dövlətindən yardım istəmişdir (51,30). Həmin məlumat Türkiyə Respublikasının Baş Bakanlıq Arxivinin "Xətti-Humayun" fondundan əldə etdiyimiz bir sənədlə təsdiqlənir. Bu sənəd Ağa Məhəmməd xan Qacarın hücum təhlükəsi ilə bağlı qarabağlı İbrahimxəlil xanın nümayəndəsi Seyid Abdulla Çələbi vasitəsilə Osmanlı sultanına göndərilmiş məktubdan ibarətdir. Burada İbrahimxəlil xan gəncəli Cavad xanın, şəkili Məhəmmədhəsən xanın, dağıstanlı Ümmə xanın, Kartli-Kaxeti çarı II İraklinin, o cümlədən şamaxılı Mustafa xanın adından türk sultanına müraciəti öz əksini tapmışdır (48, sənəd, 6748).

1796-cı ildə V.Zubovun başçılığı altında rus qoşunlarının Azərbaycana daxil olaraq bir çox şəhər və əyalətləri tutması xəbəri sultan III Səlimi (1789-1807) xeyli narahat etmişdi. Osmanlı dövləti bütün vasitələrlə rus qoşunlarının Cənubi Qafqazdakı əməliyyatlarına mane olmağa çalışırdı. Bu məqsədlə Türkiyənin hərbi dairələri rus ordusunun hərəkət istiqamətləri və cəmləşdiyi yerləri dəqiqləşdirmək üçün Azərbaycana xüsusi xəfiyyələr göndərirdi (86, 134). Rus qoşunlarının

hərəkətinə mane olmaq üçün, hətta Axalsık paşası Şamaxı və Şəki xanlıqlarına öz adamlarını göndərmişdi (86, 127).

Ümumiyyətlə, Osmanlı imperiyası Azərbaycan xanlıqları ilə siyasi əlaqəsini çar Rusiyası ilə imzaladığı müqavilələrə (Kiçik Qaynarca və Yassı) əsasən qurur və Rusiyanın Azərbaycan xanlıqlarına qarşı cızdığı planı silah gücü ilə alt-üst edə bilmədiyindən diplomatik vasitələrlə hadisələrə müdaxilə etməyə çalışırdı. Bu işi həyata keçirmək üçün Azərbaycana yaxın olan Osmanlı əyalətlərinin valiləri xanlıqlarda baş verən hadisələri izləyir və əldə etdikləri məlumatları Sultan sarayına göndərirdilər. Bu yolla Osmanlı hakimiyyət dairələrində Azərbaycan xanlıqlarının ərazisində baş verən hadisələrdən xəbər tuturdular (33, 44). Lakin bütün bunlara baxmayaraq, Osmanlı imperiyasının Rusiya ilə apardığı müharibələrdə məğlub olaraq zəifləməsi onun Cənubi Qafqazda fəal siyasətinə zərbə vurdu. Beynəlxalq şəraitlə razılaşan Osmanlı dövləti artıq Azərbaycan xanlıqlarını, o cümlədən Şamaxı xanlığını Rusiya təcavüzündən müdafiə edə bilmədi.

Ümumiyyətlə, XVIII yüzilliyin sonlarında Qərbi Avropada siyasi vəziyyətin dəyişməsi iri dövlətlərin Cənubi Qafqaza olan marağını bir qədər zəiflətdi. Bu həmin dövlətlərin diqqətinin digər problemlərə yönəlməsi ilə bağlı idi. Belə ki, Azərbaycanın şimal qonşusu Rusiya və cənub-qərb qonşusu Osmanlı imperiyaları bu dövrdə Napoleon Fransasına qarşı mübarizə aparmaq haqqında düşünürdülər. Hətta keçmiş düşmənlər olan Osmanlı imperiyası və Rusiya Napoleon Bonapartın təcavüzündən qorunmaq məqsədilə bir ittifaqa gəldilər (əlavə məlumat üçün bax: 41, 45-46).

XIX yüzilliyin əvvəllərində də Avropa dövlətləri və Rusiya öz qızışdırıcı siyasətləri ilə Osmanlı dövlətini zəiflətmək niyyətindən əl çəkməmişdilər. Napoleon Fransası bu istiqamətdə öz siyasətini davam etdirərək Osmanlı dövlətinin İngiltərə və Rusiya ilə münasibətlərinin pozulmasına nail olur. Sonra Rusiya ilə 1808-ci ildə əlahiddə Erfurtda ittifaq bağlayır (47, 67). Napoleon bir tərəfdən III Səlimi bu ittifaqdan narahat olmasın deyə arxayın salmağa çalışırdısa, digər tərəfdən Osmanlı dövlətini öz aralarında bölüşdürmək haqqında Rusiya ilə gizli razılığa gəlir (46, c.9, 65-66).

Qeyd etdiyimiz məlumatların bir başa mövzumuz ilə bağlılığı olmasa da, belə bir fikri söyləməyə bizə əsas verir ki, təhlil etdiyimiz dövrdə Türkiyənin Cənubi Qafqazda möhkəmlənmək niyyəti olmamışdı. Əksinə, Rusiyanın bu regionda möhkəmlənməsini istəmirdi. Çünki bu Rusiyanın "yunan layihəsi"nin gerçəkləşməsinə şərait yarada bilərdi.

Təsadüfi deyil ki, Rusiya ilə Fransa ittifaq bağlayanda Çar hökuməti sultandan Fransaya qarşı çıxmamağı tələb etmişdi. Tələbə əməl olunmasa idi, Rusiya sultanı İstanbula hücum edəcəyi ilə hədələyirdi (46, c.7, 154.).

## 3.3. Şamaxı xanlığının Rusiya ilə münasibətləri

Şamaxı xanlığının Rusiya ilə münasibətləri daha gərgin olmuşdur. Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının müstəqil siyasət yeritməsi beynəlxalq münasibətlərdə müstəmləkəçilik siyasəti ilə daha çox fərqlənən, Qafqaz siyasətində daha çox şansı olan çar Rusiyasını qane etmirdi. XVIII yüzilliyin I yarısında həyata keçirilən bir sıra iqtisadi-siyasi islahatlar nəticəsində öz mövqeyini xeyli möhkəmləndirən çar Rusiyası çox fəal işğalçılıq siyasəti yeridirdi. Şimal müharibəsi (1700-1721-ci illər) nəticəsində Baltik dənizinə çıxış əldə edən Rusiya Qara dənizə və Xəzər dənizinə sahib olmaq üçün yollar axtarırdı. Xəzər sahillərinin sosial-iqtisadi vəziyyətini öyrənmək üçün ekspedisiya dəstələri göndərilir, ticarət əlaqələri genişləndirilir, konsulluqlar açılırdı. Təsadüfi deyil ki, 1716-cı ildə Rusiyanın Azərbaycandan keçib İrana gedən elçisi A.P.Volinski Şamaxıda rus konsulluğunun açılmasına razılıq almışdı (104, 13). Rus konsulları rus tacirlərinin mənafeyini müdafiə etməli idilər.

Şamaxı Niyazabad xəttilə Rusiyanın cənub sərhədlərinə yaxın olduğu üçün Azərbaycan-Rusiya ticarətində mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda gələcəkdə Xəzərsahili əraziləri ələ keçirmək üçün hərbi qüvvələrin Şamaxı ərazisindən keçməsi daha əlverişli idi. Qeyd etdiyimiz kimi, Şamaxı xanlıqlar dövründə də rus-Azərbaycan ticarətinin mərkəzi idi. Bu isə qubalı Fətəli xanı qane etmədiyindən Şamaxıda yerləşən rus ticarət mərkəzinin Salyana köçürülməsini rus hökumətinin diqqətinə çatdırırdı (117, 41). Rəşt müqaviləsinin (1732-ci il) şərtlərinə görə Azərbaycanda gömrüksüz ticarət hüququnu alan rus tacirləri xanlıqlar dövründə də bu hüququ saxlayırdılar. Quba xanlığının təsir dairəsindən çıxdıqdan sonra Şamaxı xanları Fətəli xandan fərqli olaraq, Rəşt müqaviləsinin şərtlərinə məhəl qoymurdular (117, 4).

XVIII yüzilliyin 70-80-ci illərində çar hökumətinin Şərq siyasəti yenidən fəallaşır, xüsusilə İranda Kərim xan Zəndin ölümündən sonra kəskinləşən daxili çəkişmələr Rusiyanın Şərqdə iqtisadi maraqlarını daha da artırdığı kimi, (91, 285) siyasi maraqlarının da həyata keçirilməsinə şans verir. 1768-1774-cü il Rusiya-Türkiyə müharibəsi başa çatdıqdan sonra Rusiyanın Cənubi Qafqaz siyasətində kəskin dönüş yaranır. Müharibə zamanı Rusiya bütün şərq xristianlarını Türkiyəyə qarşı qaldırmaq haqqında qərar qəbul edir (125, 380. Qeyd etmək lazımdır ki, Rusiya, Rəşt (1732) və Gəncə (1735) müqavilələrindən sonra Azərbaycanı işğal etmək ümidini itirsə də, XVIII yüzilliyin II yarısında bu məqsədini yenidən reallaşdırmaq üçün əlinə fürsət düşür.

1783-cü ildə Krımı diplomatik yolla ələ keçirən Rusiya Şərqi Gürcüstanı da öz “himayəsinə” keçirir. Gürcü çarı II İraklinin Rusiyanın himayəçiliyini qəbul etməkdə məqsədi var idi: rus ordusunun köməyi ilə Gəncə və İrəvan xanlıqlarına sahib olmaq istəyirdi (106, 173).

Rusiya XVIII yüzilliyin 80-ci illərində Cənubi Qafqazı ələ keçirmək üçün buraya iki istiqamətdə qoşun yeritməyi qərarlaşdırır. Qoşunun bir hissəsi Dərbənd vasitəsilə Azərbaycanın Xəzərsahili vilayətlərini ələ keçirməli, digər hissəsi isə Dəryal keçidi vasitəsilə Gürcüstana daxil olub (3, 116), sonra Şimali Azərbaycan xanlıqlarını tutmalı idi. Rusiya hökuməti 1783-cü ilin sonu və 1784-cü ilin əvvəlində bu planını həyata keçirmək üçün Mərkəzi İranda öz mövqeyini möhkəmləndirən Əli Murad xanın köməyi ilə həyata keçirməyə çalışır. Əli Murad xan öz rəqiblərinə qalib gəlmək üçün Rusiyanın bütün təklifləri ilə hesablaşmağa hazır idi. 1785-ci ildə Əli Murad xanın ölümü Rusiya-İran yaxınlaşmasına nəinki mane oldu (78, 48-49), hətta hakimiyyətə sahib olan yeni sülalə ilə - Qacarlarla düşmən münasibətləri yarandı.

Rusiya özünün cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün əvvəl xanlıqlararası çəkişmələrdən istifadə etmədən onları ələ keçirməyə çalışırdısa, 1787-1791-ci il Rusiya-Osmanlı müharibəsi zamanı isə Cənubi Qafqaz siyasətində xanlıqlarla münasibətlərində onları müxtəlif yollarla şirnikləndirməyə və danışıqlar aparmağa daha çox üstünlük verirdi.

Rusiya Osmanlı dövləti üzərində qələbə çalandan sonra yenidən Cənubi Qafqazda fəal siyasət yeritməyə başlayır. 1792-ci il mayın 8-də II Yekaterina Qafqazdakı ruslarının baş komandanı general İ.Qudoviço yazırdı ki əgər bizim taxt-tacımıza hörmət etsələr, bizim imperator himayəmizə əmin ola bilərlər (74,11 hissə, 286).

Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza məlum yürüşə hazırlaşması Rusiyanın hakim dairələrini narahat etməyə başlayır. Bu hücuma mane olmaq üçün bəzi diplomatik tədbirlər görülsə də, bir nəticə vermir. Qacarın Azərbaycanın Arazdan şimaldakı torpaqlarına və Tiflisə qoşun yeritməsinə cavab olaraq II Yekaterina hökuməti Cənubi Qafqaza hücum etmək haqqında qərar qəbul etdi və A. Bakıxanovun təbirincə desək, imperatriçə İran ilə müharibəyə başlayır (16, 182). O.P.Markova isə göstərir ki, bu yürüşdə əsas məqsəd Xəzərsahili bölgələrdə rus ticarətinin üstünlüyünü qoruyub saxlamaq üçün Ağa Məhəmməd xan Qacarı cəzalandırmaq idi (106, 191). Qeyd edək ki, həmin ticarətdə Şamaxı mühüm rol oynadığı üçün Şamaxı xanlığının zəbt edilməsi xüsusilə diqqət mərkəzində idi.

Cənubi Qafqaza yürüş edən rus qoşunlarına V.Zubov komandan təyin edilir. Yürüş 1796-cı ilin aprelində başlayır. Azərbaycan xanlıqları təbii ki, rusların hansı məqsədlə gəldiyindən agah idilər. V.Zubovun yürüşü zamanı Bakı xanı Hüseynqulu xan şamaxılı Mustafa xana xəbər verirdi ki, rus ordusu Azərbaycan hakimlərini hakimiyyətdən devirmək üçün gəlir (92, 124).

Dərbənd, Quba və Bakı xanlığından sonra rus qoşunları Şamaxıya doğru hərəkət edərkən artıq heç bir yerdə Məhəmməd xan Qacarın qoşunlarına rast gəlmirlər. Rus qoşunları Dağıstandan Muğan düzünə doğru hərəkət edəndə Qacar 60.000 nəfərlik qoşununu Xorasanda saxlasa da, may ayının əvvəlində V.Zubovun yürüşünü eşidib əvvəl Tehrana, sonra isə Mazandarana gəlir (85,11 hissə 169).

V. Zubov Ağa Məhəmməd Qacara qarşı digər Azərbaycan xanları kimi Şamaxı xanına da müraciət edir. V.Zubovun müraciətinə cavab məktubunda şamaxılı Mustafa xan şaha qarşı bütün qüvvələrini toplayıb rus qoşunları ilə birləşməyə hazır olduğunu bildirir. Qarabağlı İbrahimxəlil xan, naxçıvanlı Kəlbalı xan, gəncəli Cavad xan da eyni məzmunda cavab məktubu göndərirlər. XIX yüzilliyin rus tarixçisi Dubrovin haqlı olaraq yazır ki, V.Zubov xanların "səmi-yətinə" üzdə inanırdı. Müəllif daha sonra qeyd edir ki, İran qoşunlarının yenidən yaxınlaşması haqqında məlumat alan xanlar bir tərəfdən Ağa Məhəmməd Qacarın dağıdıcı təcavüzündən müdafiə olunmaq üçün tədbirlər görür, digər tərəfdən isə Rusiyanın himayəsinə keçməklə öz siyasi müstəqilliklərinin itiriləcəyi faktı qarşısında qalmışdılar (85,II hissə, 174). A.Suvorovun qeydlərinə əsaslanan M.Nersisyan göstərir ki. V.Zubovun yürüşü zamanı Dərbənd və Salyanda heç bir maneə ilə rastlaşmayan rus qoşunları Şamaxıya daxil oldular. (110, 76).

Avqustun əvvəlində rus qoşunları Şamaxı yaxınlığında Pirsaat çayının sahilindəki Qurdbulaq yaylağında yerləşdirilir. Payızda isə general-mayor Platovun komandanlığı ilə rus qoşunları Yeni Şamaxıya doğru hərəkət edərkən Mustafa xan şəhərdən çıxır. Şamaxı xanını ələ almaq istəyən V.Zubov ona hədiyyə ilə birlikdə məktub göndərərək bildirir ki, "xan yalnız imperator hakimiyyətindən faydalana bilər" (103, 52). Mustafa xan şəhərdən çıxmasına baxmayaraq, bir tərəfdən Platovu inandırmağa çalışır ki, tərəddüdsüz rus qoşunlarının gəlişini gözləyir və onunla görüşməyə hazırlaşır, digər isə xanlığın rus qoşunları tərəfindən qarət olunmasının qarşısını almaq və hakimiyyətini qoruyub saxlamaq üçün V. Zubova qarşı müttəfiq axtarmışdır. Bununla belə, çıxılmaz vəziyyətdə qalan şamaxılı Mustafa xan V.Zubovun düşərgəsinə özünün gəlməyəcəyini, qardaşını göndərəcəyi haqda Platova xəbər göndərir. Həmin vədini də yerinə yetirməyən Mustafa xan Şamaxıdan getməmişdən qabaq Hacı Qədir adlı naibinə tapşırır ki, rus qoşunları Şamaxıdan keçib gedənə qədər onlara qarşı heç bir müqavimət göstərməsin. Bu barədə Platov qraf V.Zubova məlumat verəndə o Mustafa xanın hərəkətlərinə heç də heyrətlənmir. Çünki o Mustafa xanın Rusiyaya "sədaqət" göstərəcəyinə həmişə şübhə edirdi (85, 188). Sonrakı tarixi hadisələr V.Zubovun şübhələrində yanılmadı-ğını göstərir. V.N.Leviatovun yazdığına görə, əsasən şamaxılı Mustafa xanın və qarabağlı İbrahimxəlil xanın rəhbərliyi ilə Avar və Qazıqumux hakimləri birgə general V.Zubova sui-qəsd təşkil etmişdilər. Lakin bu işi həyata keçirəcək Nurəli bəyin ehtiyatsızlığı ucbatından bu qəsd baş tutmadı (101, 183-184). Göründüyü kimi, şamaxılı Mustafa xan Rusiya təhlükəsindən xanlığını xilas etmək, qorumaq üçün diplomatik manevrlərlə yanaşı, bəzən əməli tədbirlərə də əl atmaq məcburiyyətində qalırdı.

Mustafa xana inanmayan V.Zubov hələ əvvəldən -1794-cü ildən əmisi oğlu tərəfindən Şamaxıdan qovulmuş Qasım xan ilə əlaqə saxlayır və ondan Mustafa xana qarşı zərbə qüvvəsi kimi istifadə etmək planını hazırlayırdı.

Şəki xanı Səlim xan ilə müttəfiqlik edən Qasım xan isə Rusiyanın köməyi ilə hakimiyyətə sahib olacağına ümid edirdi (85, 188). General V.Zubova qarşı qəsdin üstünün açılması onu ölümdən xilas etsə də, bu hadisə şamaxılı Mustafa xana baha başa gəlir. Belə ki, Mustafa xan 1796-cı il noyabrın 2-də xanlıqdan kənar edilir və V.Zubovun planlaşdırdığı kimi onun yerinə əmisi oğlu Qasım xan hakimiyyətə gətirilir.

Rusiya 1796-cı il yürüşündən sonra xanlığı daha çox diqqət mərkəzində saxlamağa başlayır. Lakin 1796-cı ilin noyabrında II Yekaterinanın ölümü Rusiyanın Qafqaz siyasətində dəyişiklik yaradır. Hakimiyyətə gələn çar I Pavel anasının bütün tədbirlərini ləğv etdiyi kimi, rus qoşunlarının Azərbaycandan çıxarılması haqqında da əmr verir. 1797-ci ilin yazında V.Zubovun başçılıq etdiyi rus hərbi dəstələrinin axırıncı qalıqlarının Azərbaycanı tərk etməsindən sonra şamaxılı Mustafa xan əmisi oğlu Qasım xanı hakimiyyətdən qovaraq real hakimiyyətə sahib olur (18, 53).

Lakin XVIII yüzilliyin sonu XIX yüzilliyin ilk illərində digər Azərbaycan xanlıqları kimi Şamaxı xanlığının da müstəqilliyi real təhlükə qarşısında idi. Belə bir vəziyyətdə Mustafa xan Yeni Şamaxıdan bir inzibati mərkəz kimi istifadə etsə də, əsas diqqətini Fitdağ qalasının möhkəmləndirilməsinə verirdi. M.Sisoyevə istinad edən A.P.Fitunu Fitdağ qalasını Şamaxı xanlığının yeni paytaxtı, Yeni Şamaxını isə ikinci paytaxtı hesab edir. O qeyd edir ki, Fitdağ qalası Mustafa xanın dövründə paytaxt edilmişdir (123, 114).

Fitdağ qalasının alınmazlığı sübut edir ki, qala əvvəlki dövrlərdə də sığınacaq yeri olmuşdur. Bu barədə A.Fituni daha sonra göstərir ki, bu alınmaz qartal yuvası təkcə Mustafa xana bəlli deyildi, qaladan əvvəllər də sığınacaq məq-sədilə istifadə olunmuşdur. Belə ki, XVIII yüzilliyin I yarısında Şirvanda Hacı Davudu əvəz edən Surxay xan da Nadirin Şamaxıya yürüşü zamanı dağlara çəkilir. Heç şübhəsiz ki, Surxay xan Şamaxının üç verstliyində yerləşən Mücü kəndindən Fitdağ qalasına çəkilmişdir (123, 119).

Beləliklə, XVIII yüzilliyin sonlarında Şamaxı xanlığının Rusiya ilə münasibətlərinin əsasını Mustafa xanın xanlığın müstəqilliyini qorumaq uğrunda mübarizəsi təşkil etmişdir. Bu mübarizə isə, əsasən açıq müdaxilə deyil, diplomatik manevrlərdən ibarət olmuşdu.

# IV FƏSİL

## ŞAMAXI XANLIĞININ RUSIYA TƏRƏFİNDƏN İŞĞALI

XVIII yüzilliyin sonu- XIX yüzilliyin əvvəllərində mövcud beynəlxalq münasibətlər sistemində Azərbaycan mühüm yer tuturdu. Həmin dövrdə Azərbaycanın beynəlxalq vəziyyəti Qərbi Avropa dövlətlərinin, xüsusilə də Rusiya və Osmanlı Türkiyəsinin mövqeyi ilə sıx bağlı idi. Bu, onun mühüm geostrateji mövqeyi, Avropa dövlətlərinin İranla ticarətindəki rolu ilə əlaqədər idi. Göstərilən dövrdə beynəlxalq şərait Rusiyanın xeyrinə olsa da, Qərb dövlətlərinin Azərbaycana olan marağı Rusiyanın bu bölgəyə olan ekspansionist siyasəti ilə toqquşurdu.

Qeyd olunan dövrdə İran və Osmanlı dövlətləri Azərbaycan xanlıqlarının müstəqilliyi üçün o qədər də ciddi təhlükə törətmirdilər. Rusiya imperiyası isə əksinə, sərhədlərini, Şimali Qafqaz, həmçinin Mərkəzi Asiya və Qazaxıstan torpaqları hesabına genişləndirmişdi və mövcud şəraitdə Şərqə doğru bu işğalçılıq siyasətini daha da gücləndirmək niyyətində idi.

Rusiya imperiyası Cənubi Qafqazın, o cümlədən Azərbaycanın zəngin sərvətlərini mənimsəməyə, Xəzər dənizi hövzəsindo ağalığa nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycan ərazisində mərkəzləşdirilmiş dövlətin olmaması, siyasi pərakəndəliyin mövcud olması vahid xarici siyasət xəttinin aparılmasına mane olur, yadelli işğalçıların hücumlarını dəf etməyə imkan vermirdi. Buna görə də, Azərbaycan ərazisindəki dövlət qurumları - xanlıqlar bölgədə siyasi mühitin formalaşmasına təsir göstərən əcnəbi qüvvələr arasında müəyyən fikirləri əsas götürərək, manevr etmək məcburiyyətində idilər.

1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya ilhaq edilməsi ilə qəti olaraq 1803-cü ildən Azərbaycanın şimal-qərb torpaqlarının da Rusiya tərəfindən işğalına rəvac verildi (93, 225). Bu dəfə Cənubi Qafqazın işğalına həmin işğalın "baş memarı" (49,Ic, 111) hesab edilən general P.D.Sisianov təyin edilmişdi.

I Aleksandr (1801-1825) 1801-ci ilin dekabrında Qafqaz qoşunlarının baş komandanı general Knorrinqə yazırdı: "Qonşu hakimlər və xalqlarla əlaqə saxlayaraq, Rusiya tərəfdarlarının sayını artırmağa çalışmalı, xüsusən də üzərlərində hələlik Baba xanın (Fətəli şahın - N.B.) hakimiyyəti yaranmamış İrəvan, Gəncə, Şəki, Şirvan (Şamaxı - N.B.), Bakı və başqa xanları cəlb etməli" (13,16).

Bu məqsədi reallaşdırmaq üçün 1802-ci ilin yazında Şimali Qafqazın Georgiyevsk şəhərində Dağıstan hakimləri ilə birgə Azərbaycan xanlıqlarından Quba və Lənkəran xanlıqlarının nümayəndələri də iştirak etmişdi. Lakin həmin danışıqlarda Şamaxı xanlığının nümayəndəsi iştirak etməmişdi.

Digər bir tərəfdən isə 1802-ci ilin iyulunda Fətəli şahın sərkərdəsi Pirqulu xan Qacar Şuşaya daxil olanda İbrahim xanla birlikdə İran şahına tabe olmayan şəkili Məhəmmədhəsən xanı və Mustafa xanı yox etmək planı hazırlanmışdı (74, 528) Rusiya işğalının yeni mərhələsinin başladığı dövrdə qeyd olunan xanlıqların Rusiyaya meyil edəcəyindən narahat olan Fətəli şahın bu planı hazırlaması təbii idi.

Göründüyü kimi, qeyd olunan dövrdə Azərbaycanın digər xanlıqları kimi Şamaxı xanlığının da müstəqilliyi real təhlükə qarşısında idi. Şimaldan Rusiyanın, cənubdan isə Qacar dövlətinin təhlükəsi qarşısında qalan Mustafa xan hər iki dövlətin təcavüzündən xanlığın müstəqilliyini qorumaq üçün manevr etmək məcburiyyətində qalmışdı.

Georgiyevsk danışıqlarında Şamaxı xanının iştirak etməməsi onun müstəqilliyini heç kimlə bölmək fikrində olmadığını sübut edir. Həmin dövrdə Şamaxı xanı nə Rusiyaya meyil etmiş, nə də Fətəli şaha tabe olmuşdur.

Fətəli şah Cənubi Qafqazı fəth etmək üçün Rusiya ilə münasibətləri nizama salmağa cəhd göstərsə də, bu niyyət baş tutmamış, beləliklə, XIX yüzilliyin əvvəllərində bu region uğrunda birinci Rusiya-İran müharibəsinin başlanması üçün şərtlər meydana çıxmışdır (13,III c, 439).

Şamaxı xanlığının qonşu xanlıqlarla münasibətləri əvvəlki fəsildə təqdim edildiyi üçün təkrara yol vermək istəmirik. Lakin bu münasibətlərin istiqamətlərinin müxtəlif olduğunu qəbul etmiş olsaq məhz bu istiqamətlərdən biri də yuxarıda qeyd etdiyimiz kimi çarizmin işğal siyasəti ilə sıx bağlı olmuşdur. Çar məmurlarından general Lazarevin general Knorrinqə 1801-ci ilin aprelində yazdığı raportundan məlum olur ki, qarabağlı İbrahimxəlil xan ilə şamaxılı Mustafa xan ittifaq bağlayanda Məhəmmədhəsən xan, Şeyxəli xan və Qazıqumuk hakimi Xanbutay xan qüvvələrini birləşdirib Mustafa xanın üzərinə hücum edirlər. İbrahimxəlil xan isə 2000 nəfərlik dəstəni oğlunun rəhbərliyi ilə Mustafa xanın köməyinə göndərir (61, III c.,sən. 972). Qeyd edək ki, Şeyxəli xan həm də Fətəli şahın Bakı xanlığı ilə münasibətlərində şahı dəstəkləyir ki, Salyanı Mustafa xandan almaqda ona hərbi qüvvə ilə kömək etsin.

Mənbələrdən bəlli olur ki, 1804-cü ildə Mustafa xan Səlim xanın qızı Asiya bəyim ilə evlənmişdi (61, V c, 1109). Rusiya hakim dairələri Şəki və Şamaxı xanları arasında olan bu qohumluq münasibətlərindən istifadə edərək şəkili Səlim xanın vasitəsilə şamaxılı Mustafa xana təsir göstərməyə çalışırdı.

Xanlıqlararası münasibətləri diqqət mərkəzində saxlayan, onlar arasındakı qarşıdurmadan məharətlə istifadə edən çar məmurları tez-tez bu barədə hökumətə - çar sarayına məlumatlar göndərir və yeri gəldikdə həmin qarşıdurmanı süni şəkildə daha da qızışdırırdılar.

Əldə edilmiş razılığa görə, Səlim xan P.D.Sisianovun göstərişi ilə Mustafa xanı inandırmalı və əmin etməli idi ki, Rusiyanın "himayəsində" olarkən heç kim heç nəyi ondan ala bilməz (61, II c.,sən.l288). Lakin şəkili Səlim xanın öz məqsədi

var idi. O həm böyük qardaşı Məhəmmədhəsən xanı, həm də Mustafa xanı hakimiyyətdən devirməyi Sisinovdan xahiş etmişdir (84, 407). P.D.Sisianova isə belə bir müraciətin edilməsi xanlar arasında, xüsusilə Mustafa xan ilə Səlim xan arasında qarşıdurma yaratmaq üçün bir fürsət idi. Bir daha xatırladaq ki, çar hökuməti xanlıqlararası münasibətlərdən öz mənafeyi üçün çox məharətlə istifadə etməyi güclü bir vasitə hesab edirdi. P.D.Sisianov çox gözəl bilirdi ki, hakimiyyətdən devrilmiş Səlim xan Mustafa xanın yardımı ilə yenidən hakimiyyətə sahib olmaq üçün onunla müttəfiqlik edib, qohumluq əlaqəsi yaratmışdır. Mustafa xan vədinə xilaf çıxmayaraq, Səlim xan ilə qüvvələrini birləşdirərək, Şəki xanlığına doğru hərəkət edirlər. Məhəmmədhəsən xan adəti üzrə onlara tabe olduğunu bildirərək qılıncını boynundan asır, Səlim xan isə Mustafa xanın köməyi ilə 1805-ci ilin yanvarında Şəkidə hakimiyyətə sahib olur. Mustafa xan Məhəmmədhəsən xanı Şamaxıya gətirir, Səlim xana isə tam etibar etmədiyi üçün ondan əmanət istəyir, eyni zamanda Şəkiyə öz naibini göndərir (61, II c, sən. 1289).

Fitdağ qalasında özünə sığınacaq tapan Şamaxı xanı Mustafa xan Rusiyaya tabe olmaq niyyətində deyildi. General Sisianov isə qalanı müdafiəsiz fəth etməyin çətin olduğunu və uzun müddət mühasirədə saxlamağın qeyri-mümkünlüyünü görüb, Mustafa xanı itaətə gətirmək üçün onunla siyasi danışıqlara başlamağı üstün tutur və bunun üçün müxtəlif yollar axtarırdı (30, 108). P.D.Sisianov Səlim xana əminliklə bildirirdi ki, Mustafa xanın ərazilərini Rusiya silahının gücü ilə ələ keçirdikdən sonra Şamaxı xanlığının sahibi olacaq (61, II c.,sən.l306). Təbii ki, P.D.Sisianov Səlim xan ilə Mustafa xanın qohumluq əlaqəsindən nə qədər istifadə etməyə çalışırdısa, bir o qədər də həmin qohumluq onu narahat edirdi. Buna görə də, Səlim xana Şamaxı xanlığında hakimlik vəd edərək, bu iki xanı bir-birinə qarşı qoymağa cəhd göstərməklə onları Rusiyaya qarşı zərərsizləşdirməyə çalışırdı.

Sisianovun qızışdırıcı siyasəti ilə, nəhayət ki, bu iki xan arasında münasibətlər gərginləşir. Belə ki, Səlim xan qızı Asiya bəyimi Mustafa xandan geri alır (61, II c,son.l323 ).

1805-ci ildə Qarabağ və Şəki xanlığının işğal edilməsinə qədər Şamaxı xanlığının Rusiyaya tabe edilməsi haqqında danışıqlar gedirdi. Hələ 1801-ci ildə general Knorrinq Mustafa xandan tələb edir ki, Ağa Məhəmməd xan Tiflisin işğalı zamanı ələ keçirdiyi 2 rus topunu geri qaytarsın (61, II c, son.870). Daha sonra P.D.Sisianov Mustafa xana hədələyici məktublarını göndərməkdə davam edərək 1804-cü ilin yanvarında yazırdı ki, Salyanda tacirlərin mallarının yüklənməsinə bir şərtlə kömək etməyə razı olar ki, o Rusiyanın tabeliyinə keçməyə razı olsun (61, II c,son.l341). Rədd edilən tələblərin bir nəticə vermədiyini görən P.D.Sisianov "hiylə tədbirləri" ilə Mustafa xanı dilə tutmağa başlayır. Mustafa xan isə özünün hazırlıq tədbirlərini görürdü. Həmin vaxt İran şahı yenə də Mustafa xana "yardımından" əl çəkmirdi. Mustafa xanı Rusiya təcavüzündən xilas etmək, Bakını

qorumaq üçün Naib-üs-səltənə (Abbas Mirzə - N.B.) tərəfindən Hüseynqulu xan Qacar, onun ardınca isə Təbrizin bəylərbəyi Əhməd xan Müqəddəm tərəfindən bəzi dəstələr və artilleriya göndərilir (132, 325).

Mustafa xan Rusiyaya münasibətində P.D.Sisianova yazırdı ki, keçmişdə onun babaları olan Şirvan xanları bütün Azərbaycana hakim idilər, deməli, rus komandanı Şəki xanlığını və digər yerləri də Şamaxı xanlığına qaytarmalıdır. P.D.Sisianov isə Mustafa xandan vaxtilə Qarabağdan Şamaxıya köçmüş əhalinin geri qaytarılmasını təkidlə tələb edir. (61,11 hissə, sən. l353)

Sisianov Mustafa xana yazdığı növbəti məktubunda bildirirdi ki, "Siz İran şahından hədiyyə qəbul edirsiniz, mənimlə isə müqavilə imzalayırsınız" (99, 123) Mustafa xan isə cavabında bildirirdi ki, birincisi, həmin hədiyyələr geri qaytarılmışdır, ikincisi isə həmin hədiyyələr mənə göndərilən zaman Şamaxı xanlığı Rusiya ilə heç bir müqavilə imzalamamışdı (61, II c, sən.1355).

Sisianov daha sonra 1805-ci il avqustun 15-də aşağıdakı məzmunda növboti tələbləri göndərir:

1) Siz (xan) İrandan və ya hər hansı başqa bir dövlətdən asılı olmadığınızı etiraf etməli və Ali hakimiyyəti (çar Rusiyasını - N.B.) tanımalısınız.

2) Qarabağdan olan bütün ailələri geri qaytarmalısınız.

3) Cavad ərazisini Qarabağ xanına qaytarmalısınız.

4) Ümumrusiya imperiyasına sadiq olmağınıza zəmanət kimi öz qardaşınız İsmayıl bəyi və uşaqlarını verməlisiniz.

5) Hər il xəzinəyə 8.000 çervon pul verməlisiniz.

6) Həştərxandan Bakıya və oradan Gürcüstana gedən karvanların təhlükəsiz keçməsini təmin etmək üçün sadiq məmurlar təyin etməlisiniz (61, II c, son.1348).

Mustafa xan P.D.Sisianova yazdığı cavab məktubunda isə yazırdı ki, o sakinlər ki, Qarabağdan keçiblər, geri qayıtmaq istəmirlər. Bir halda ki, Şamaxı da, Qarabağ da imperiyaya məxsusdur, mən əminəm ki, siz nə məni, nə də o sakinləri bir də narahat etməyəcəksiniz. Cavad ərazisinə gəldikdə isə Cavad heç bir vaxt Qarabağ ərazisinə aid deyildi. Cavad keçidi Şirvanla Mıığan arasındadır. Əgər kimsə, qarabağlı və ya başqa birisi mənə sübut etsə ki, Cavad nə vaxtsa Qarabağa aid olub, onda ixtiyar sizindir. Daha sonra, əgər xanlıq mənim hakimiyyətimdən çıxmışdırsa, hansı gəlirlə mən 8000 çervon verə bilərəm (61, II c, son.1343).

Yeri gəlmişkən qeyd edək ki, P.D.Sisianov qarabağlı İbrahimxəlil xana yazırdı ki, Mustafa xanın Cavad adlı torpağın Qarabağ xanlığına verilməsinə qarşı etirazı əsaslıdır (61,IIc.,sən.l349).

Tələblərlə "özünəməxsus razılıq" hissi ilə razılaşan Mustafa xanın sonda traktatı imzalamaq üçün Kür sahilinə gəlməməsi P.D.Sisianovu çox narahat edir. Tələblərin zahirən qəbul edildiyini bəhanə edərək P.D.Sisianov 1805-ci il noyabrın 31-də Şamaxı xanlığına yürüş edir. Qeyd etmək lazımdır ki, Şamaxı xanlığının Rusiyaya tabe edilməsini təxirə salan bu inadkar xana qarşı yürüşdə rus

qoşunları ilə birlikdə 1000 nəfərdən ibarət Qarabağ atlıları da iştirak edirdi. Rus hərbi hissələri həmin il dekabrın 11-də Ağsu şəhərinin 5 kilometrliyinə çatdılar. Bu vaxt Şamaxı xanı Fitdağ qalasında idi. Onun buraya sığınması birinci dəfə deyildi. Xanlar arasında gedən müharibələr, Ağa Məhəmməd xanın apardığı dağıdıcı əməliyyatı, bundan daha əvvəl və sonrakı dövrlərdə iranlıların tez-tez Azərbaycana olan hərbi basqınlarının təhlükəsi və P.D.Sisianov ilə gedən danışıqların nəticə verməməsi üzündən Mustafa xan Fitdağına çəkilərək orada möhkəmlənməyə çalışırdı. General P.D.Sisianov Mustafa xanı Kürəkçay sahilinə öz hərbi qərargahına dəvət etdiyi zaman Mustafa xan Fitdağ qalasından uzaqlaşmaq istəmədiyini bildirmişdir (18, 59). P.D.Sisianovun növbəti müraciətini də cavabsız qoyan Mustafa xan öz müdafiə mövqeyini daha da qüvvətləndirməyə çalışır. Lakin 1805-ci il dekabrın 27-də xanın "istəklərinə uyğun" imzalanmış müqavilə nəticəsində Şamaxı xanlığı da Rusiya tərəfindən işğal edilir. Rusiya Şamaxı xanlığının idarə edilməsi işinin Mustafa xanda və onun varislərində qalacağını, onun və ümumiyyətlə, xanlığın daxili işlərinə qarışmayacağını bildirir. Rusiya ilə müqavilə bağlanmasına baxmayaraq, Mustafa xan tabe olmaq istəmir, Fitdağ qalasını tərk etmək istəməyərək buranı xanlığın daimi mərkəzinə çevirmək niyyətindən əl çəkmir, yaranmış vəziyyətdən daim çıxış yolu axtarır.

XIX yüzilliyin əvvəlində xanlığın qonşu dövlətlərlə münasibətlərində beynəlxalq şəraitin əsas rol oynadığı inkaredilməzdir. Belə ki, Mustafa xan 1805-ci il müqaviləsindən sonra Rusiyaya qarşı açıq-aydın mübarizə aparmasa da, sənədlərdən məlum olur ki, xan beynəlxalq münasibətləri çox güman ki, diqqətlə izləyir və qüvvələr nisbətinin beynəlxalq aləmdə nə vaxt Rusiyanın əleyhinə dəyişəcəyi anı gözləyirdi (61, III c, sən. 559).

1808-1809-cu ilə aid bir məlumatda göstərilir ki, Mustafa xan Rusiyanın təsirindən xilas ola bilmiş, Dağıstan xanlarından olan Putay xanla Rusiyaya qarşı ittifaqa girmişdir (53, 43). Həmin dövrdə türk sultanının da Azərbaycan xanlarına, həmçinin şamaxılı Mustafa xana Rusiyaya qarşı birgə ittifaq bağlamaq haqqında məktubları göndərilirdi (61, III c, sən.552).

Rusiya isə İran ilə apardığı müharibədə xanlıqların qüvvəsindən istifadə etməkdə davam edir, onlara müxtəlif hədiyyələr göndərirdi. 1809-cu ilin aprelində qraf Rumyantsev Mustafa xana məktub yazaraq bildirirdi ki, "Əlahəzrət imperator sizə xüsusi olaraq yaxşı münasibət göstərir, o, sizə mükafat olaraq, brilyantdan hazırlanmış qələm ucu göndərir" (61,IIIc,sən.758).

Mustafa xan Rusiya-İran müharibələrinin hələ də davam etdiyi üçün Fitdağ qalasının möhkəmləndirilməsi işini davam etdirir. Bu barədə sənəddə oxuyuruq: "Mustafa xan Fitdağ qalasında öz yerini möhkəmlətmək istəyir, partlayıcı maddələri yerləşdirmək üçün xəndəklər qazdırır. Sulut kəndini Fit qalasına köçürmək istəyir... hətta İran tacirlərinin Şamaxı ərazisindən keçməsinə icazə verilməməsi əmrinə məhəl qoymayaraq, ardı-arası kəsilmədən İran karvanlarının xanlığın ərazisindən keçməsinə şərait yaradır (61, III c, sən.579).

1810-cu il avqustun 18-də podpolkovnik Tixonov da general Tormosova yazırdı: "Mustafa xan bu günlərdə Fitdağ qalasını möhkəmləndirmək işini daha da sürətləndirmişdir. Dağın 4 tərəfində eni 3, uzunluğu 6 arşın olan divar çəkdirir, bu divarları qalaçalarla möhkəmləndirir. Bu işə 3000 nəfər cəlb edilmiş və avqustun 15-dən tikinti işinə başlanmışdır" (61, III c, sən.787). Digər xanlıqlarla müqayisədə Şamaxı xanlığında Rusiyanın işi bir o qədər də rəvan getmirdi. Mustafa xan buradakı rus hərbçilərinin fəaliyyətini məhdudlaşdırmağa çalışırdı. Belə ki, xanlıq ərazisində hökumət nümayəndəsi olan pristav, demək olar ki, təcrid edilmişdir, o, xanın əlaqələri haqqında, demək olar ki, heç nə bilmirdi (45, 122).

Məlumdur ki, 1804-1813-cü illərdə gedən hərbi əməliyyatlarda məğlub olan Qacarlar sülaləsinin idarə etdiyi İran dövləti Gülüstan sülhünü imzalamağa məcbur olmuşdur. Bu zaman Qafqazdakı rus qoşunlarının baş komandanı general Yermolov Azərbaycanda mövcud olan xanlıq üsulunun ləğv edilməsinə çalışır, eyni zamanda Şamaxı xanlığı haqqında da düşünürdü. Tarixşünaslıqda Mustafa xanın İrana mühacirət etməsi ilə əlaqədar belə bir fikir yaranmışdır ki, çar hökuməti Şamaxı xanlığının Rusiya-İran müharibəsinin gedişində xanlığın İrana meyil edəcəyindən ehtiyat edir, ona görə də müharibənin gedişində xanlığın varlığına son qoymağa çalışır. Lakin 1816-cı il dekabrın 4-də A.Yermolov Mustafa xanla Zərdab kəndində görüşdükdə Şamaxı xanlığını ləğvetmə məsələsini ortaya atmağa cürət etmədi. Bu görüşdən sonra Mustafa xan daha ehtiyatlı olmağa başlayır. Buna baxmayaraq, Yermolovun siyasəti tam aydınlığı ilə özünü büruzə verdikdə Mustafa xan bir daha əmin olur ki, xanlığın müstəqilliyi uzun sürməyəcək. Odur ki, Yermolov Qroznıya, Pestel isə Qaraqaytaqa yürüşə hazırlaşanda, rus mənbələrinin verdiyi məlumata görə, Mustafa xan hərbi hazırlıq tədbirləri görməyə başlayır, İrandan kömək almaq üçün danışıqlar aparır (114, II c.,677-678), hətta ticarət əlaqələri pərdəsi altında Dağıstan ilə əlaqəni də möhkəmləndirir (122, 103). Mustafa xan Lənkəran xanlığında olan doğma qardaşı Həşim xanı və Dağıstanda olan əmisi oğlu Qasım xanı özünə düşmən hesab edirdi. Həmişəonlardan ehtiyat edirdi ki, onu çar hökumətinin "gözündən salarlar". Artıq avqustun ortalarında Həşim xanın tərəfdarları Tiflisə məlumat göndərməyə başlamışdı ki, Mustafa xan tez-tez öz adamlarını Təbrizə göndərir (85, VI c, 328).

Çar məmurlarına xanlıq haqqında, Mustafa xanın Fitdağda möhkəmlənməsi haqqında təzadlı məlumatlar çatdırılırdı. Mustafa xanın qızına evlənmiş Surxay xan Avar xanlığından qaçarkən onun yanında sığınacaq tapır. Mustafa xan general Yermolovun xəbərdarlığına baxmayaraq, Surxay xanın Şamaxı xanlığının ərazisindən keçib İrana getməsinə şərait yaradır (90, 80).

Yaranmış vəziyyət Mustafa xanın Rusiyaya qarşı niyyəti haqqında şübhə yaradır. Digər bəhanələr kimi Mustafa xanın Surxay xanın İrana keçməsinə yardımını da Rusiya bir bəhanə hesab edir, onu İrana meyillikdə günahlandıraraq saxta məktublarla onu şübhə içərisində saxlayır, çar hökumətinə xanlıq üsuli-idarəsini ləğv etmək üçün fürsət verir.

Yermolov Mustafa xanı sıxışdırır, onun Fitdağ qalasında qalmasına, qalanı şəhərə çevirməsinə etiraz edir və sonra da hədələyir. Sözsüz ki, Yermolov xanlıq quruluşunu ləğv etməyi qarşıya məqsəd qoymuşdu. Sıxışdırılan və mühasirəyə alınan Mustafa xan çıxış yolunu ancaq qaçmaqda görür. Mustafa xan, hətta Yermolova sui-qəsddə günahlandırılır. Tam qərara gələ bilməyən xan müdafiə üçün bir qədər qoşun da toplayır. Ancaq bununla belə Yermolova yazdığı məktubunda Rusiyaya "həmişə sədaqətli" olduğunu bir daha bildirir. Lakin A.Dornun verdiyi məlumatdan aydın olur ki, 1813-cü il Gülüstan sülhü ilə Şamaxı xanlığı Rusiyaya verilən zaman Mustafa xan Rusiyanın qəddar düşməni idi, İran ilə həmişə gizli yolla əlaqə saxlayırdı (81, 79).

Həqiqətən də, bakılı Hüseynqulu xan Dağıstan hakimi Surxay xan, qubalı Hüseynəli xan, qarabağlı İbrahimxəlil xan 1806-cı ildə Abbas Mirzəyə ittifaq məktubu göndərəndə Şamaxılı Mustafa xan bu ittifaqda görünmür, (131, 81). Lakin 1819-cu ildə o, Dağıstan hakimi Surxay xan, qarabağlı Mehdiqulu xan ilə ittifaq bağlayaraq Rusiya təcavüzünə qarşı Abbas Mirzə ilə birləşmək qərarına gəlir (131, 167).

1818-ci ildə general-leytenant Velyaminov Yermolova yazırdı ki, "Mustafa xan hazırlıq görür, bu hazırlıqda əsas məqsəd yerli feodallarla bərabər, İrana çəkilməkdən ibarətdir. Buna görə də xanın qaçmasına mane olmaq üçün Kür çayının keçidlərini tutmağa əmr vermişəm" (61, VI c, I hissə, 1191). Yermolov Mustafa xandan tələb edirdi ki, müqavimət göstərməkdən əl çəksin və imperator hakimiyyətini qəbul etsin.

Yermolov Madatova göndərdiyi məktublarda dəfələrlə ona xatırladırdı ki, Mustafa xan ilə yazışmalarında "dostluq" ənənələrinə sadiq qalsın, həm də yerli əhalini xana qarşı qaldıranda ehtiyatlı olsun (113 a).

Rusiya ilə münasibətlərin daha da pisləşdiyini görən Mustafa xan bəylərin ailələrini, qiymətli əşyalarını İrana göndərir, eyni zamanda Kür çayının o biri sahilində İran hərbi qüvvələrindən, başda Ata xan olmaqla, 800 şahsevən atlısı onu müdafiə etmək üçün hazır dayanır (114, 682). Müasirlərin dediyinə görə, xan tez-tez bu sözləri təkrar edirmiş: "mən çoxdan bilirdim ki, belə olacaq" (114, 681; 85, VI c, 389).

Yermolov belə hesab edirdi ki, təkəbbürlü xan Fitdağ qalasında axıra qədər özünü müdafiə edə bilər. Lakin biləndə ki, Mustafa xan İrana keçmək üçün tam hazır vəziyyətdədir, yaranmış əlverişli vəziyyətdən istifadə edərək qoşunlara Şamaxıya doğru hərəkət etməyi əmr edir. Rus mənbələrinin verdiyi məlumatdan belə aydın olur ki, Yermolov Mustafa xanın İrana keçməsinin qarşısını almaq üçün qoşunlarını Şamaxı xanlığına yeridir. Əslində isə, əvvəldən hazırlanmış plana əsasən, Mustafa xanın İrana qaçması reallaşan kimi rus qoşunları xanlığın ərazisini zəbt etməli idi. Bu istiqamətdə Vlasovun ordusu, 4 batalyon, 1000 kazak, 6 top və artilleriyadan ibarət qoşun hərəkət edir (90, III c, 80).

Saxta məktublarla şübhəyə salınaraq İrana qaçmağa vadar edilən Mustafa xanın mühacirəti ilə bağlı, İran ilə münasibətləri ilə əlaqədar hesab edirik ki, incə bir məqamı nəzərdən qaçırmaq olmaz. Mustafa xan əslində İran ilə ən azı ona görə əlaqə saxlaya bilərdi ki, Rusiya-İran müharibəsində qüvvələr nisbətinin necə dəyişdiyini və müharibənin kimin xeyrinə dəyişəcəyini diqqətlə izləmək lazım idi. Çünki xanlığın varlığı müharibənin nəticəsindən çox-çox asılı idi. Qərb dövlətlərinin, xüsusilə Napoleon Fransasının Avropada apardığı müharibə əməliyyatlarını, həmçinin bu dövlətlərin bəzilərinin, xüsusilə Fransanın İran sarayında tez-tez görünməyini də unutmaq olmaz. Mustafa xanın təbii ki, Avropa dövlətləri ilə birbaşa əlaqəsi olmamışdı. Ancaq güman edirik ki, Mustafa xan bu dövlətlərin siyasətindən bixəbər deyildi. Mustafa xan 1820-ci ildə artıq Rusiyaya olan bütün ümidlərini itirmişdi (117 a, s. 16, iş 4291, v. 37 arx.). Qələbə əzmində olan Rusiyanın əsarətinə düşməkdənsə, mühacirəti üstün sayan Mustafa xan 1820-ci il avqustun 19-da xanlığı tərk edir. O, 1824-cü ilə kimi, demək olar ki, hər gün adlı-sanlı bəylərə İrana keçib qüvvələrini onunla birləşdirmələri haqqında xəbər göndərirdi (117a, s. 16, iş 4291, v. 37 arx.). Mustafa xan əmlakının xeyli hissəsini Fitdağda və Sulut kəndində qoyub getmişdir. Ailəsini, bacı-qardaşlarını, onların ailələrindən başqa 31 bəyi və 51 ailə üzvünü İrana aparır (61, VI c, I h., sən. 1221). Beləliklə, bir qədər əvvəl qeyd etdiyimiz kimi, əvvəldən hazırlanmış plana əsasən, Mustafa xan qaçmağa təhrik edilir. Mustafa xanın xanlığı tərk etməyə məcbur edilməsi belə bir faktla da təsdiq edilə bilər ki, azyaşlı Bibixanımı Sulut kəndində qoyub qaçmağa məcbur olmuşdur (Mustafa xan tələsik qaçdığından Bibixanım arabanın təkərləri altına düşmüş və onu heç kim görməmişdir. Sağ Qalan uşağı rus məmuru Makayev götürmüş və onu saxlamaq üçün kənddə bir ailəyə vermişdir) (61, VI c, I his. 1110). Göründüyü kimi, təqiblərə məruz qalan xan başqa çıxış yolu tapa bilməmişdir.

Bundan sonra rus qoşunları xanlıq ərazisini işğal edir, hökumət məmurları Şamaxıda Mustafa xanın xidmətçilərini öz vəzifələrindən kənar edir, Mustafa xanın əmlakı kapitan Makayevin göstərişinə əsasən siyahıya alınır.

1826-1828-ci il Rusiya-İran müharibəsi zamanı Azərbaycanı tərk edən xanlardan bəziləri yaranmış vəziyyətdən istifadə edərək yenidən öz hakimiyyətlərini ələ keçirməyə cəhd göstərmişdilər. Mənbədə göstərilir ki, bu zaman Abbas Mirzə şəkili Məhəmmədhüseyn xan, lənkəranlı Mir Həsən xan ilə birlikdə Mustafa xanı da Araz çayı sahilinə göndərir. Mustafa xan bu zaman İran qoşunları ilə birlikdə Şamaxıya daxil olmuş (117a, s. 16, iş 4294 (1), v. 48) və az müddət ərzində Şamaxını ələ keçirə bilmişdir. N.Dubrovinin şəhadətinə görə, Şamaxıya daxil olan Mustafa xan, hətta mahal naiblərinə bəyannamə göndərmiş və öz hakimiyyətini yenidən bərpa etməyə cəhd göstərmişdi. 1827-ci il sentyabrın 25-də Mustafa xan Qaradağa gəlir və Şirvan əyalətində Allahyar xana qarşı ümumi hücuma keçmək üçün Abbas Mirzədən cavab gözləyir. Plana görə, İrəvan sərdarı Mirzə Həsən xan Ərkivan qalasına daxil olanda, Mustafa xan da Cavad keçidini

tutmalı idi (117a, s. 16, iş 4337, v. 5). Lakin məlumdur ki, Rusiya-İran müharibələrində qüvvələrin qeyri-bərabərliyi şəraitində Azərbaycan torpaqlarının, o cümlədən Şamaxı xanlığının Rusiya tərəfindən işğal edildiyi üçün Mustafa xan öz niyyətini dəyişərək yenidən İrana qayıtmaq məcburiyyətində qalmışdı (85, VI c, 626).

Çar Rusiyası tərəfindən Azərbaycan xanlıqları işğal edildikdən sonra çarizmin müstəmləkəçilik siyasətinə qarşı müxtəlif formada etirazlar səslənirdi. Silahlı üsyanlar olmasa da, əhali öz etirazını müxtəlif formalarda bildirir, ən əsası isə yaşadıqları ərazini tərk edirdilər. Qaçanlar daha çox şamaxılı Mustafa xan ilə əlaqə yaratmaqda günahlandırılaraq həbs edilirdilər (108, 16-21).

Mustafa xan sonralar Rusiyanın təbəəliyinə keçməsi haqqında dəfələrlə çar hökumətinə müraciət etmiş, (61, VII c, 393, 399) nəhayət, 1831-ci ilin oktyabrında yenidən Azərbaycana qayıdarkən, Tiflisdə mehribanlıqla qəbul olunmuşdu. Sonra o, hökumətin qərarına əsasən, öz ailəsi ilə birlikdə Yeddibulaq kəndinə köçmüşdü. Onunla birlikdə Azərbaycana İrandan 400 azərbaycanlı ailə qayıtmışdı. Onlar da həmin kənddə və onun ətrafında yerləşmişlər (14, 66). Güman edirik ki, Mustafa xanın nəslinin çox olması ilə əlaqədar ona Şamaxıda yox, məhz Yeddibulaqda məskunlaşmağa icazə verilir.

# NƏTİCƏ

XVIII yüzilliyin ortalarında Nadir şahın ölümündən sonra Azərbaycanda baş verən hadisələrlə bağlı olaraq Şamaxı xanlığının yaranması tarixi gerçəkliyin obyektiv təzahürü idi.

Nadir şah öz imperiyasını yaradarkən Səfəvilər dövlətinin inzibati idarə sistemini - bəylərbəylik sistemini dağıdarkən Azərbaycanda ayrı-ayrı feodal qrupların müqavimətini qırmışdı,

Vaxtı ilə Nadir şahın dövründə Yeni Şamaxı şəhərinin salınması, gələcəkdə Şamaxı xanlığı yaranan zaman burada ikihakimiyyətliliyin yaranmasına səbəb oldu. Nadir şah tərəfindən Yeni Şamaxıya hakim təyin edilən Hacı Məhəmmədəli şahın qətlə yetirildiyi andan etibarən burada müstəqil hakimə çevrildi. Köhnə Şamaxıda isə Xançobanı nəslindən olan Məhəmmədsəid və Ağası xan qardaşları hakimiyyətə sahib oldular.

İqtisadi əlaqələrin zəifliyi nəticəsində mövcud olan feodal pərakəndəliyi, daxili çəkişmələr, hakimiyyət dəyişikliyi, xarici təcavüzə qarşı hərbi toqquşmalar digər xanlıqlarda olduğu kimi Şamaxı xanlığının da iqtisadi və ticarət həyatına öz təsirin göstərmişdi. Lakin bununla belə, həmin vəziyyət xanlığın Rusiya ilə ticarət əlaqələrinə ciddi zərbə vura bilməmişdi. Xam ipək mərkəzi olan Şamaxı şəhəri uzun müddət Azərbaycanın iqtisadi və ticarət mərkəzi olmuş və nə qədər dağıntılara məruz qalsa da, xanlığın ərazisində ipək ticarəti tənəzzülə uğramamış, əksinə, çoxsaylı sənətkar sexlərinin olması ilə fərqlənmişdi.

Xanlığın ərazisində, xüsusən Köhnə Şamaxıda hələ XVIII yüzilliyin əvvəlində rus tacirləri intensiv olaraq ticarət edir, sonrakı dövrlərdə də İran və Rusiya ilə həmin ticarət əlaqələri davam etmişdir. Şamaxının xarici ticarəti öz əhəmiyyətini XVIII yüzilliyin II yarısında da saxlayırdı. Rusiyadan İrana və Hindistana mal aparan tacirlər Bakı və Niyazabad limanları vasitəsilə məhz Şamaxıya gələrək burada mal mübadiləsi aparırdılar. Mənbələrin verdiyi məlumata görə Şamaxı hələ XVI-XVII yüzilliklərdə Rusiyanın İranla ticarət əlaqəsinin mərkəzi olmuş və ticarət dövriyyəsində misilsiz əhəmiyyət kəsb etmişdir.

Xeyli maddi ehtiyata və strateji əhəmiyyətə malik olan Şamaxı xanlığı mühüm iqtisadi rayonları əhatə etməklə Azərbaycanın daxili siyasi həyatında mühüm rol oynayırdı. Eyni inzibati-idarə quruluşuna malik olan Azərbaycan xanlıqlarının hamısında olduğu kimi Şamaxı xanlığında da xan əsas sima idi. Lakin bununla bərabər Şəki, Quba, Qarabağ və Şamaxı xanlıqlarında divan fəaliyyət göstərmişdi. Şamaxı xanlığında divan hakim-feodal təbəqələrdən təşkil olunduğu üçün divanın xan üzərində nüfuzu xeyli üstün olmuşdur.

XVIII yüzilliyin 90-cı illərinə qədər xanlığın 15, sonra isə 17 inzibati mahalı mövcud olmuşdu. İqtisadi-siyasi və hərbi cəhətdən böyük əhəmiyyətə malik olan xanlıq Rusiya tərəfindən işğal edildikdən sonra da bir müddət həmin inzibati

bölgü qorunub saxlanmışdır. Mahalları xan tərəfindən təyin edilən naiblər idarə edirdilər.

Digər xanlıqlar kimi, Şamaxı xanlığının da ictimai-iqtisadi həyatı siyasi hadisələrlə sıx bağlı olmuşdur. Digər xanlıqlardan fərqli olaraq, ikihakimiyyətlilik əsasında yaranan xanlığın qonşu xanlıqlarla və dövlətlərlə siyasi əlaqələrinin əsas istiqamətini müstəqilliyin qorunub saxlanması uğrunda mübarizə təşkil etmişdi.

Əlverişli coğrafi mövqeyinə, ticarətin inkişaf etməsinə baxmayaraq, ikihakimiyyətlilik əsasında yarandığına görə Şamaxı xanlığı ilk dövrlərdə hərbi cəhətdən qüvvələrini birləşdirə bilməmişdi. Təəssüflə qeyd etməliyik ki, xanlığın *ya*randığı ilk gündən onların bir-biri ilə münasibəti dəyişkən xarakter daşımaqla bərabər, hər hansı bir ərazi üstündə mənafe toqquşmaları ilə müşayiət olunmuşdu. Digər tərəfdən bu münasibətlər beynəlxalq şəraitdən də asılı olaraq tez-tez dəyişmişdi.

Qarabağ, Quba, Şəki və Urmiya xanlıqlarından fərqli olaraq, Şamaxı xanlığı Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizə aparmasa da, öz müstəqilliyini qoruyub saxlamaq uğrunda həm qonşu xanlıqlarla, həm də qonşu dövlətlərlə, xüsusilə Rusiya və İran ilə münasibətlərində müxtəlif manevrlərdən istifadə edərək müstəqil xarici siyasət yeritməyə çalışırdı. Lakin Şamaxı xanlığı ilk dövrlərdə hərbi cəhətdən qüvvələrini birləşdirə bilməsə də, Sərkərlər nəslindən olan Ağa Rəzi bəy 1749-cu ildə Şahsevən Əhməd xanın Köhnə Şamaxıya olan yürüşünün qarşısını ala bilmişdi. Ağa Rəzi bəy daha sonra Kartli-Kaxetiya çarı II İraklinin Azərbaycan xanlarına qarşı törətdiyi xəyanətə cavab olaraq Şəki xanlığının 1751-ci ildə təşkil etdiyi yürüşdə yaxından iştirak edərək özünü güclü bir qüvvə kimi göstərə bildi. Ağa Rəzi bəy 1758-ci ildə Quba xanlığının daxilində baş verən hakimiyyət dəyişikliyindən istifadə edib Qubanın Bərmək mahalına yürüş edərək, 200-ə yaxın ailəni Şamaxıya köçürdü. İkihakimiyyətlilik dövründə Yeni Şamaxıda hakimlik edən Hacı Məhəmmədəli Quba, Şəki, Qarabağ xanlarından fərqli olaraq, İranda hakimiyyətə sahib olan İbrahim şahın tələbinə müsbət cavab verdiyi üçün Azərbaycanın digər xanlıqları ilə münasibətlərini gərginləşdirdi.

Həmin dövrdə Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizəyə başlayan Qubalı Fətəli xan üçün Hacı Məhəmmədəli bir o qədər də təhlükəli qüvvə deyildi. Buna görə də o, əsas mübarizəni Köhnə Şamaxıya – Sərkərlərə qarşı yönəltdi. Lakin qubalı Fətəli xan xanlığı həmin dövrdə Şamaxı xanlığını tam tabe edəcək qədər güclü deyildi. Halbuki ikihakimiyyətlilik şəraitində bunu həyata keçirmək daha asan olardı. Çünki Hacı Məhəmmədəli Sərkərlərlə münasibətdə sonralar qubalı Fətəli xanın müttəfiqinə çevrildi.

Sonrakı dövrdə xeyli hərbi qüvvə toplayan Şamaxı xanlığı həm bütün Azərbaycanda, həm Qarabağ və Şəki xanlığı arasında, həm də Quba xanlığı ilə Azərbaycanın cənub xanlıqları arasında böyük strateji əhəmiyyətə malik olmuşdur.

Məhz buna görə də, Fətəli xan Şamaxı xanlığının qüdrətinin artmasından ehtiyat etdiyi üçün xanlığın tezliklə ələ keçirilməsinə xüsusi əhəmiyyət vermişdi.

Fətəli xan Şamaxı xanlığının əlverişli strateji mövqeyindən istifadə edərək Şəki və Qarabağ xanlıqlarını ələ keçirmək və Cənubi Azərbaycana doğru hərəkət etmək üçün xanlığın ərazisindən bir istinadgah kimi istifadə etmək niyyətində idi. Fətəli xan Dərbənd və Bakı xanlıqlarını qan tökülmədən Quba xanlığına birləşdirdiyi kimi, Şamaxı xanlığını da mübarizəsiz əldə etməyi düşünürdü. Lakin Sərkərlərin Şamaxıda təkhakimiyyətə sahib olması bu planı bir qədər çətinləşdirdi və Fətəli xanı Şamaxı xanlığına qarşı şəkili Hüseyn xanla ittifaq bağlamaq məcburiyyətində qoydu. 1968-ci ildə o, Dərbənd, Bakı və Şəki xanlığının birləşmiş qüvvələrinin köməyi ilə Şamaxı xanlığını tabe etdi. Şamaxı xanının məğlubiyyəti yalnız Fətəli xanın hərbi gücü hesabına olmamışdı, eyni zamanda Şamaxı xanlığındakı daxili çəkişmələrlə də bağlı idi.

Şamaxı xanlığının Quba xanlığı tərəfindən tabe edilməsinə baxmayaraq, Sərkər sülalə üzvləri Şəki xanı və Gilan xanı Hidayət xanla ittifaq bağlayaraq yenidən öz hakimiyyətlərini bərpa etmək üçün mübarizəni davam etdirmişdilər. Yalnız 1789-cu ildə qubalı Fətəli xanın ölümündən sonra Şamaxı xanlığı yenidən öz müstəqilliyini bərpa edə bilmişdi.

Mustafa xanın dövründə xanlığın qonşu xanlıqlar və dövlətlərlə münasibətlərində öz müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizəsi daha ciddi xarakter aldı. Təəssüflə etiraf etməliyik ki, Mustafa xanın dövründə Quba, Şəki, Lənkəran və Qarabağ xanlıqları ilə münasibətlər bir çox hallarda düşmənçilik xarakteri daşımışdı. Sərkərlər nəslindən yalnız Mustafa xan öz ərazisini genişləndirmək uğrunda mübarizə aparmışdı.

